AVROPA İTTİFAQI

BMT-nin ƏHALİ FONDU

# AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ QANUNVERİCİLİK VƏ DÖVLƏT SİYASƏTİNİN GENDER ASPEKTİNİN QİYMƏTLƏNDİRİLMƏSİ ÜZRƏ

# HESABAT



2020

AVROPA İTTİFAQI

BMT-nin ƏHALİ FONDU

# Azərbaycan Respublikasının milli qanunvericilik və dövlət siyasətinin gender aspektinin qiymətləndirilməsi üzrə

# HESABAT

BAKI - 2020

BMT-nin Əhali Fondu: hər bir hamiləliyin arzuedilən olduğu, hər bir doğuşun təhlükəsiz keçdiyi və hər bir gəncin potensialının reallaşdığı dünyaya doğru.

AZƏRBAYCAN RESPUBLİKASININ MİLLİ QANUNVERİCİLİK VƏ SOSİAL-İQTİSADİ SİYASİ ÇƏRÇİVƏSİNİN GENDER ASPEKTININ QİYMƏTLƏNDİRİLMƏSİ ÜZRƏ HESABAT

## MÜƏLLİFLƏR:


***Xalisə Şahverdiyeva,*** gender üzrə müstəqil mütəxəssis, tədqiqat qrupunun rəhbəri
***Günel Mehdiyeva,*** gender üzrə müstəqil mütəxəssis
***Taliyə İbrahimova,*** Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin Hüquq departamentinin rəhbəri


## BEYNƏLXALQ EXPERT:


***Dr. Laura Rahm,*** Elmi tədqiqatçi, Əhali və İnkişaf Mərkəzi (CEPED), Paris Dekart Universiteti


## LAYİHƏNİN MƏSLƏHƏTÇİLƏRİ:

***Fərid Babayev,*** BMT-nin Əhali Fondunun Azərbaycandakı Nümayəndəliyinin rəhbəri
***Nərminə Məlikova,*** BMT-nin Əhali Fondunun Azərbaycandakı Nümayəndəliyinin Əhali və İnkişaf Məsələləri üzrə Proqram müşaviri
***Bəhicə Əliyeva,*** BMT-nin Əhali Fondunun Azərbaycandakı Nümayəndəliyinin Gender Məsələləri üzrə Proqram müşaviri
***Nailə Cəfərova,*** BMT-nin Əhali Fondunun Azərbaycandakı Nümayəndəliyi tərəfindən həyata keçirilən "Oğlan uşaqlarına verilən üstünlüyün və qız uşaqlarına daha az dəyər verilməsinin aradan qaldırılması üzrə Qlobal Proqram"ın Layihə meneceri

## REDAKTƏ ETDİ:

***Almaz Nəsibova***


"Azərbaycan Respublikasının milli qanunvericilik və sosial-iqtisadi siyasi çərçivəsinin gender aspektinin qiymətləndirilməsi" adlı sənəd Avropa İttifaqının maliyyə dəstəyi ilə BMT-nin Əhali Fondunun və Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və İdman və Gənclər Nazirliyi ilə birgə həyata keçirdiyi Oğlan Uşaqlarına Verılən Üstünlüyün Qarşısının Alınması və Qızların Dəyarının Təşviq Edılməsı üzrə Qlobal Proqram çərçivəsində hazırlanmışdır.



Vəsait milli qanunvericilik və dövlət siyasətinin gender məsələlərinə adekvat reaksiyasının qiymətləndirilməsinin nəticələrini və çatışmazlıqların aradab qaldırılması üçün tövsiyələri əks etdirir. Vəsaitdə əks olunmuş təhlil və fikirlər müəlliflərə məxsusdur və BMT-nin Əhali Fondunun, BMT-nin digər qurumlarının və Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və İdman və Gənclər Nazirliyinin, eləcə də Avropa İttifaqının rəsmi mövqeyini əks etdirməyə bilər.

© BMT-nin Əhali Fondu (UNFPA), 2020-ci il

Bu vəsaitin Azərbaycandakı nəşr hüquqları BMT-nin Əhali Fonduna aiddir. Naşirin razılığı olmadan qismən və ya tamamən çap olunması qadağandır.

# MİNNƏTDARLIQ

BMT-nin Əhali Fondunun Azərbaycandakı Nümayəndəliyi bu tədqiqatın aparılması üçün verdiyi töhfə və dəstəyə görə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinə dərin minnətdarlığını bildirir.

Belə bir mühüm layihənin başlanması və həyata keçirilməsi işində verdiyi dəstəyə görə Avropa İttifaqına təşəkkür edirik.

Bu tədqiqatın gerçəkləşməsi üçün göstərilmiş birgə səylərə və töhfələrə görə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, İqtisadiyyat Nazirliyi, Daxili İşlər Nazirliyi, Ədliyyə Nazirliyi, Səhiyyə Nazirliyi, Təhsil Nazirliyi, Əmlak Məsələləri Dövlət Komitəsinin yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinə və onların dəyərli əməkdaşlarına minnətdarlığımızı bildiririk.

Öz fikirlərini, təcrübəsini və vaxtını əsirgəməyərək tədqiqata töhfə verən beynəlxaq məsləhətçi Dr. Laura Rahm, yerli vəkil-ekspertlər Şəfa Camalzadə və Sevinc Əliyevaya, eləcə də tədqiqat çərçivəsində Saatlı və Abşeron rayonları üzrə fokus qrup müzakirələrdə iştirak etmiş qadınlara və kişilərə ayrıca təşəkkür edirik.

# MÜNDƏRİCAT


**İXTİSARLAR** ____ **5**

**XÜLASƏ** ____ **6**

**GİRİŞ** ____ **11**

Problemin təsviri ____ 11

Gender qiymətləndirməsinin məqsədi və konseptual çərçivə ____ 12

**TƏDQİQAT METODLARI** ____ **14**

**BÖLMƏ 1. QADINLARIN MÜLKİYYƏT VƏ MİRAS HÜQUQLARI: DE-YURE VƏ DE-FAKTO BƏRABƏRLİK ARASINDAKI BOŞLUQLAR** ____ **16**

1.1. Qadınların mülkiyyət hüquqları ____ 16

1.2. Qadınların yaşayış yeri üzrə qeydiyyatı ____ 23

1.3. Soyadın və uşağın valideynlərinin kimliyinin müəyyən edilməsində gender məsələləri ____ 25

1.4. Qadınların vərəsəlik hüquqları ____ 27

**BÖLMƏ 2. QADINLARIN MƏŞĞULLUQ VƏ ÖZÜNÜMƏŞĞULLUQDA İŞTIRAKI: ÇƏTİNLİKLƏR VƏ İMKANLAR** **30**

2.1. Karyera inkişafında qeyri-bərabərlik (o cümlədən gender əsaslı ayrı-seçkilik və seksual qısnama) ____ 30

2.2. Valideyn məzuniyyəti siyasəti ____ 37

2.3. Qadınların sahibkarlıqda iştirakı, dövlət dəstəyi və imtiyazlardan istifadə ____ 39

2.4. Qadınların təhsili və yüksək gəlirli peşə sahələrinə yönləndirilməsi ____ 42

**BÖLMƏ 3. SOSİAL MÜDAFİƏ: GENDER MƏSƏLƏLƏRİ** ____ **45**

3.1. Yaşlıların sosial müdafiəsi ____ 45

3.2. Yaşlı Əhaliyə Dəstək Proqramları ____ 50

3.3. Tibbi sığorta ____ 52

3.4 Ailə planlaması məsələlərinin tənzimlənməsi ____ 55

**TÖVSİYƏLƏR** ____ **57**

**İSTİNADLAR** ____ **63**

# İXTİSARLAR

| | |
|---|---|
| **AR** | Azərbaycan Respublikası |
| **ƏƏSMN** | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi |
| **ƏM** | Əmək Məcəlləsi |
| **MM** | Mülki Məcəllə |
| **İXM** | İnzibati Xətalar Məcəlləsi |
| **İTS** | İcbari Tibbi Sığorta |
| **İTSA** | İcbari Tibbi Sığorta Agentliyi |
| **KOS** | Kiçik və orta sahibkarlıq |
| **NK** | Nazirlər Kabineti |
| **QHT** | Qeyri-hökumət Təşkilatı |
| **MTK** | Mənzil Tikinti Kooperativi |

# XÜLASƏ

Gender əsaslı cins seçimi nəticəsində hamiləliyin süni şəkildə pozulması hazırda Azərbaycan cəmiyyətində mövcud olan əsas problemlərdən biri hesab edilir və onun gələcəkdə qarşısıalınmaz fəsadlara səbəb olacağı gözlənilir. 1990-cı illərin əvvəllərindən başlayaraq Azərbaycanda oğlan uşaqlarına verilən üstünlük doğulan uşaqlar arasında cins nisbətinin ciddi şəkildə pozulmasına səbəb olub. Belə ki,1990-cı illərin əvvəllərindən etibarən bu göstəricidə baş verən dəyişikliklər 2003-cü ildə o dövrə qədər müşahidə edilən ən yüksək həddə çatmışdır. 2009-cu ildən başlayaraq sözügedən göstəricidə qismən azalma müşahidə edilib. Ancaq bununla belə, Azərbaycan dünyada hələ də doğulan uşaqlar arasında cins nisbətinin ciddi şəkildə pozulması müşahidə edilən ölkələr sırasındadır[1].

2011-ci ildən etibarən Azərbaycan hökuməti BMT-nin Əhali Fondunun dəstəyi ilə oğlan uşaqlarına üstünlüyün verilməsi və gender əsaslı cins seçimi probleminin həlli üçün bir sıra tədbirlər həyata keçirir. Görülən əsas tədbirlər bu sahədə dövlət siyasətinin formalaşdırılması, dəlillərə əsaslanan məlumatların paylaşılması, ictimaiyyət arasında məlumatlılığın artırılması və bu fenomenin qarşısının alınması üçün qanunvericilik bazası və onun icrasını təmin edən siyasi çərçivənin hazırlanmasına xidmət edir. O cümlədən BMT-nin Əhali Fondu "Oğlan uşaqlarına verilən üstünlüyün qarşısının alınması və qızların dəyərinin təşviq edilməsi üzrə Qlobal Proqram: Cənubi Qafqaz və bir sıra Asiya ölkələrində doğulan uşaqlar arasında cins nisbətinin tənzimlənməsi" layihəsi çərçivəsində Azərbaycanda cins seçiminə töhfə verən və ya onun qarşısının alınmasına töhfə verə biləcək mövcud qanunlar, sosial-iqtisadi siyasi çərçivə və proqramlar üzrə həyata keçirilmiş cavab tədbirlərinin gender aspektinin qiymətləndirilməsi təşkil edilib (qısa olaraq: gender qiymətləndirilməsi).

Sözügedən qiymətləndirmə Azərbaycanda cins seçiminə birbaşa və ya dolayısı ilə əsas verən, habelə gender bərabərsizliyinin dərinləşməsinə yol açan səbəblərin aşkarlanması üçün aşağıdakı üç prioritet sahə üzrə keçirilib:

1. **Qadınların mülkiyyət və miras hüquqları: de-yure və de-fakto bərabərlik arasındakı boşluqlar.** Bu prioritet sahə üzrə aparılan qiymətləndirmədə qadınların ailədəki əmlak və vərəsəlik hüquqları, yaşayış yeri üzrə qeydiyyatı və ad/soyad, habelə bu sahələrə aid hüquqi tənzimləmə və onun icrası məsələləri əhatə edilib;
2. **Qadınların məşğulluq və özünüməşğulluqda iştirakı: çətinliklər və imkanlar.** Qiymətləndirmə zamanı karyera inkişafında qeyri-bərabərlik (o cümlədən gender əsaslı ayrı-seçkilik və seksual qısnama), valideyn məzuniyyəti siyasəti, qadınların sahibkarlıqda iştirakı, dövlət dəstəyi və imtiyazlardan istifadə, onların təhsili və yüksək gəlirli peşə sahələrinə yönləndirilməsi kimi vacib məsələlər tədqiq edilib;
3. **Sosial müdafiə: gender məsələləri.** Bu istiqamət üzrə əsasən pensiya və icbari tibbi sığorta siyasəti, yaşlı əhali üçün ayrıca imtiyazlara (ictimai nəqliyyatdan pulsuz istifadə, kommunal xidmətlərdə güzəştlər və s. məsələlər) xüsusi diqqət yetirilərək, sosial müdafiə sistemlərində cins seçiminə birbaşa və ya dolayısı ilə əsas verən və gender bərabərsizliyinin dərinləşməsinə yol açan məqamlar araşdırılıb.

[1]Oğlan uşaqlarına verilən üstünlüyün qarşısının alınması və qızların dəyərinin təşviq edilməsi üzrə Qlobal Proqram: Cənubi Qafqaz və bir sıra Asiya ölkələrində doğulan uşaqlar arasında cins nisbətinin tənzimlənməsi. Azərbaycan üzrə Ölkə İcmalı. UNFPA, 2018. https://azerbaijan.unfpa.org/sites/default/files/pub-pdf/UNFPA_Azerbaijan_country_profile_AZE.pdf

Bu tədqiqat çərçivəsində yuxarıda qeyd olunmuş konseptual sahələri əhatə edən mövcud hüquqi və siyasi çərçivə, onların gender bərabərliyi və gender əsaslı ayrı-seçkiliyə birbaşa və ya dolayısı ilə təsirləri nəzərdən keçirilib, ayrı-ayrılıqda tədqiqat aparılaraq, mövcud problemlə əlaqəsi arqumentləşdirilib.

Qiymətləndirmə zamanı gender əsaslı cins seçimi hallarının yayılma səviyyəsi, eyni zamanda coğrafi yerləşmə və araşdırma üçün vaxt məhdudiyyəti nəzərə alınaraq Abşeron və Saatlı rayonları ilkin hədəf rayonlar olaraq seçilib. Bu rayonlarda qadın və kişi fokus qrupları ilə görüşlər təşkil edilib və tədqiqat mövzusu çərçivəsində iştirakçılarla müzakirələr aparılıb. Tədqiqat çərçivəsində həmçinin əlaqədar dövlət qurumları, vətəndaş cəmiyyəti təşkilatları və müstəqil ekspertlərlə müsahibələr aparılıb.

Yekun hesabatda gender qiymətləndirilməsini əhatə edən və gender bərabərliyi, habelə gender əsaslı ayrı-seçkiliklə əlaqələndirilən aşağıdakı aspektlər əks olunub:

**Qadınların mülkiyyət və vərəsəlik hüquqları:** Aparılan tədqiqatdan əldə edilən nəticəyə görə, qadınların Konstitusiya ilə təmin olunmuş hüquqlarının qorunması, onların səmərəli həyata keçirilməsində rast gəlinən ən ciddi çətinliklər mülkiyyət və ondan istifadə, eləcə də vərəsəliklə bağlıdır. Bu hüquqların həyata keçirilməsində de-jure və de-fakto bərabərlik arasındakı boşluqlar aşkar edilib. Bu boşluqların kökündə mədəniyyət (ailə və cəmiyyət tərəfindən qadınların mülkiyyətçi və vərəsə kimi qəbul edilməməsi), hüquqi-administrativ (daşınmaz əmlakın sənədləşdirilməməsi, torpaqların təyinatının tətbiq olunmaması, özbaşına tikililər və s.) və iqtisadi (ailələrin qeydiyyat üçün xidmət haqqı və rüsumları ödəyə bilməməsi) faktorların olduğu müəyyən edilib. Bununla yanaşı, aşkar edilən boşluqların aradan qaldırılması üçün zəruri cavab tədbirlərinin yetərincə olmadığı qənaətinə gəlinib.

Mədəniyyət və gender normaları ucbatından Azərbaycanda qadınlar mülkiyyətçi qismində qəbul edilmirlər. Ailə və cəmiyyət tərəfindən qadınların mülkiyyətçi və vərəsə kimi qəbul edilməməsinin bir sıra səbəbləri gender stereotiplərinə əsaslanır. Gender əsaslı bu stereotiplər ailəyə qızların deyil, oğlanların gəlir gətirən olması gözləntisindən, habelə qızların ailə qurduqda başqa bir ailəyə köçməsi düşüncəsindən qaynaqlanır. Bu səbəbdən də valideynlər ailəyə məxsus əmlakın oğlanlarına ötürülməsinə üstünlük verirlər ki, əksər hallarda da buna asanlıqla nail olurlar (qızlar çox vaxt cəmiyyətin onlara təlqin etdiyi gender rollarına uyaraq etiraz etmirlər). Mülkiyyətin de-yure və de-fakto oğlanlara ötürülməsi və torpaqların əksər hallarda kişilərin əlində cəmlənməsi xüsusilə əhalinin gəlirlərinin az olduğu rayon və kənd yerlərində qadınların iqtisadi imkanlarını məhdudlaşdırır.

Daşınmaz əmlakın sənədləşdirilməməsi, torpaqların təyinatının tətbiq olunmaması, özbaşına tikililərin, habelə Mənzil Tikinti Kooperativlərindəki (MTK) paylı mənzillərin məcburi qeydiyyatının aparılmaması kimi məsələlər qadınların əmlak hüquqlarının həyata keçirilməsində ciddi maneə olan və onları daha çətin duruma düşürən amillər kimi müəyyən edilib. Bu kimi problemlər əmlak və vərəsəlik, habelə boşanma zamanı mülkiyyətin bölüşdürülməsində qadınların daha çətin vəziyyətə düşməsinə, eləcə də ailələr arasında münaqişəyə və zorakılığa səbəb olur.

**Qadınların yaşayış yeri üzrə qeydiyyatı:** Fiziki şəxsin daimi yaşadığı yer onun yaşayış yeri sayılır. Hazırda ölkədə şəxsi əmlakın dövlət qeydiyyatı ilə bağlı yuxarıda qeyd etdiyimiz problemlər ucbatından (sənədsiz evlər, özbaşına tikililər) vətəndaşların yaşayış yeri üzrə qeydiyyatında əngəllər var. Bu isə özü-özlüyündə vətəndaşların bir sıra problemlərlə üzləşməsinə, bəzən hüquq pozuntusu hallarına da gətirib çıxarır. Vətəndaşlar, xüsusilə qadınlar yaşayış yerində daimi qeydiyyatda

olmadıqlarına görə tibbi xidmətlərin göstərilməsində, yaşayış yeri haqqında qeydiyyat tələb edən digər məsələlərin həllində problemlərlə üzləşirlər. Bundan əlavə, ailələrdə yaranan müəyyən problemlər ucbatından boşanma baş verdikdə həmin əmlak üzərində qadının istifadə hüququnun tanınması mümkün olmur.

**Soyadın və uşağın valideynlərinin kimliyinin müəyyən edilməsində gender məsələləri:** Günümüzün aktual məsələlərindən biri də soyadların gender cəhətdən neytral olmaması, uşağın valideynə münasibətdə yalnız ata adının qeyd edilməsi kimi gender bərabərsizliyi hallarının tətbiqidir. Soyadların milliləşdirilməsi üçün hüquqi tənzimləmə mövcud olsa da, sovetlər dövründən tətbiq edilən soyadlar və sənədlərdə valideynlərdən yalnız ata adının göstərilməsi gender ayrı-seçkiliyini davam etməsinə şərait yaradır. Soyadın özünün kişi nəsli ilə xarakterizə olunması faktından başqa, doğum haqqında şəhadətnamədə, Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsində və ümumvətəndaş pasportunda şəxsin adı və soyadı ilə yanaşı da yalnız ata adı qeyd edilir. Anaya münasibətdə isə belə bir qeyd aparılmır.

**Karyera inkişafında qeyri-bərabərlik (o cümlədən gender əsaslı ayrı-seçkilik və seksual qısnama):** Karyera inkişafında da horizontal və vertikal ayrı-seçkiliyə səbəb olan amillər mövcuddur. Bunlardan qadın əməyinin tətbiqi qadağan edilən iş yerlərinin olması, habelə qadınların əsasən pedaqoji, təbiət elmləri, eləcə də mədəniyyət və incəsənət sahələrinə yönləndirilməsi, qadınlar arasında yüksək gəlirli peşə və ixtisasların təşviq edilməməsi kimi halları misal göstərmək olar. Dövlətin fərdi məşğulluq və özünüməşğulluq sahəsində həyata keçirdiyi proqram və strategiyaların gender cəhətdən həssas olmaması qadınların mövcud imkanlardan bərabər şəkildə faydalanmasına əngəl törədir. Halbuki gender cəhətdən həssas yanaşma prinsipinə əsaslanaraq fərdi məşğulluq və özünüməşğulluq tədbirlərinin artırılması, habelə mövcud bərabərsizliyin aradan qaldırılması istiqamətində müvafiq addımların atılması bir öhdəlik kimi qəbul edilməlidir.

Azərbaycanın müvafiq qanunvericiliyində karyera inkişafında (işə qəbul, işdə irəli çəkilmək, peşə hazırlığı, yeni ixtisasa yiyələnmək və ixtisasartırma) ayrı-seçkiliyin qadağan edilməsinə dair müddəaların olmasına baxmayaraq, bərabər imkanların horizontal və vertikal seqreqasiyası, eləcə də hansı vasitələrlə bərabər imkanlara nail olunacağı müəyyənləşməyib. Bundan başqa, peşə və karyera inkişafında horizontal və vertikal ayrı-seçkiliklə mübarizə, qadınların gəlir gətirən sahələrdə və ya aparıcı vəzifələrdə iştirakını təşviq edən dövlət strategiyası, eləcə də qısamüddətli və ya uzunmüddətli proqramlar mövcud deyil. İnzibati Xətalar Məcəlləsində (İXM) də karyera inkişafında ayrı-seçkiliyə yol verilməsinə görə işəgötürənlər üçün hüquqi məsuliyyət nəzərdə tutulmayıb.

Tədqiqat zamanı seksual qısnamanın qarşısının alınması və seksual qısnama törətmiş şəxslərin məsuliyyətə cəlb edilməsi üzrə hüquqi normaların olmaması, habelə seksual qısnama ilə bağlı şikayətçilərin məxfiliyinin qorunması və aidiyyəti işlərin araşdırılması üzrə prosedurların müəyyən edilməməsi aşkar edilib.

**Valideyn məzuniyyəti siyasəti:** Qadınlara, uşaqlarını təkbaşına böyüdən kişilərə və uşaq övladlığa götürmüş şəxslərə əlavə məzuniyyət hüququnun nəzərdə tutulmaması, kişilərin atalıq məzuniyyətinin ödənişsiz əsaslarla tənzimlənməsi, habelə əmək məzuniyyətinin verilməsindəki növbəlilik kimi hallar gender cəhətdən müsbət dəyişikliklərə səbəb ola biləcək yanaşmanı əhatə etmir. O cümlədən kənd təsərrüfatı istehsalında çalışan qadınların hamiləliyə və doğuşa görə məzuniyyət hüququ qanunla nəzərdə tutulsa da, bu hüququn tətbiqi dövlət tərəfindən tənzimlənmir.

**Qadınların sahibkarlıqda iştirakı, dövlət dəstəyi və imtiyazlardan istifadə:** Azərbaycanda sahibkarlığa dövlət dəstəyi nəzərdə tutulsa da, gender cəhətdən həssas yanaşmanın təşviqi,

xüsusilə kiçik fərdi qadın sahibkarların xarici-iqtisadi fəaliyyətinin, o cümlədən istehsalat, maliyyə-kredit, ticarət, elmi-texniki və informasiya əlaqələrinin inkişafında üzləşdiyi çətinliklərin nəzərə alınmaması halları mövcuddur. Qadınlar arasında sahibkarlığın artması və fərdi sahibkar qadınların bizneslərinin inkişafı sahəsində müəyyən edilmiş çətinliklər resurslar və imkanlar barədə məlumatlılığın azlığı, maliyyə resurslarından (güzəştli kreditlər, bank kreditləri) istifadə imkanlarının məhdudluğu və gender stereotiplərinin (ərin və ya ailənin kişi üzvlərinin qadının hərəkət və səyahət imkanlarına mane olması) mövcudluğu ilə əlaqələndirilir. Fərdi sahibkar qadınların şəbəkələnməsi, onların məlumatlandırılması və öz sahələrində təkmilləşdirilməsi istiqamətindəki işlər Qadın Sahibkarlar Assosiasiyası vasitəsilə təşkil olunur. Lakin qadın sahibkarların, xüsusilə regionlardakı qadın sahibkarların və ya sahibkar olmaq istəyən qadınların mövcud dövlət proqramlarına çıxışını təmin edəcək və onları yüksək gəlirli sahələrə istiqamətləndirəcək spesifik gender yanaşmalı tədbirlər proqramı yoxdur.

**Qadınların təhsili və yüksək gəlirli peşə sahələrinə yönləndirilməsi:** Təhsildəki gender göstəricilərinə əsasən müəyyən olunub ki, Azərbaycanda qadınlar daha çox pedaqoji, təbiət elmləri, eləcə də mədəniyyət və incəsənət ixtisaslarına üstünlük verirlər. Yüksək gəlirli peşə seçimi üzrə göstəricilərdə qadınların kişilərə nisbətdə daha az faiz təşkil etməsi, qadınların iqtisadi cəhətdən ələbaxımlılığını artıran faktorlardan biridir. Bundan başqa, tədris proqramlarında ənənəvi gender rolları və peşə seçimlərini təbliğ edən materialların (şəkil, mətn, oyun və s.) olması mövcud problemi daha da dərinləşdirir. Bu fəsadların qarşısının alınması və mövcud natarazlığı dəyişmək üçün tədris proqramına gender bərabərliyini aşılayan materialların da salınması, qadınların onlar üçün ənənəvi olmayan və gəlir gətirən peşə ixtisaslarına cəlb edilməsində qanunlar və icra sənədlərində dövlətin öhdəliyi aydın göstərilmir.

**Yaşlıların sosial müdafiəsi:** Azərbaycanda təqaüd yaşına çatmış şəxslərin sosial müdafiəsinin beynəlxalq standartlara uyğun olmaması yaşlı insanların layiqli həyat sürə bilməsinə mane olur. Pensiyaların məbləğinin aşağı olması, habelə pensiyaya çıxma qaydalarında diskriminasiyanın və gender stereotiplərinin olması mövcud vəziyyəti daha da mürəkkəbləşdirir. Beləliklə, çoxuşaqlı və sağlamlıq imkanları məhdud övladları olan qadınlara güzəştli şərtlərlə pensiya hüququnun verilməsi onların əmək bazarından uzaqlaşdırılması ilə bərabər, gələcəkdə daha az məbləğdə pensiya almasına gətirib çıxarır. Pensiyaçılara layiqli pensiyaların ödənilməsi onların sosial qayğılarının azalması ilə yanaşı, övladlarından maddi asılılığını da azaldacaq ki, bu da doğulacaq uşağın cins seçimi kimi bir problemin aradan qaldırılmasına töhfə verə bilər.

**Yaşlı Əhaliyə Dəstək Proqramları:** Ahıl vətəndaşların sosial hüquqlarının təmin edilməsi və həyat şəraitlərinin yaxşılaşdırılması üçün dövlət tərəfindən aylıq pensiya ilə yanaşı, müəyyən kateqoriya şəxslərə əlavə maddi dəstəklər də verilir. Lakin bu dəstəyin davamlı xarakter daşımaması, və ildə bir dəfə təşkil edilməsi əhəmiyyətli dəyişikliklər yaratmır. Dövlətin digər sosial xidmətləri də məhdud səviyyədədir. Eyni zamanda, Azərbaycanda yaşlı əhali üçün (+65) nəqliyyatdan pulsuz istifadə və güzəştli kommunal ödənişlər üzrə xüsusi dəstək proqramları mövcud deyil. Bu və digər güzəştlərin (gəlir vergisindən azad edilmə, xüsusi əmanət sxemlərinin təklif olunması, təhsil imtiyazları, icmalarda fəaliyyətə cəlb edilmə) tətbiq edilməsi də yaşlı əhalinin sosial vəziyyətinin yaxşılaşmasına töhfə verə bilərr.

**Tibbi sığorta:** Əhaliyə, xüsusilə də həssas qruplardan olan əhaliyə (pensiyaçılar, əlilliyi olan şəxslər, qadınlar, uşaqlar və s.) göstərilən tibbi xidmətlərin keyfiyyətinin yüksəldilməsində icbari tibbi sığortanın tətbiqinin xüsusi əhəmiyyəti var. "Tibbi sığorta haqqında" Qanunun 1999-cu ildə qəbul edilməsinə baxmayaraq, onun yalnız 1 yanvar 2020-ci ildən etibarən bütün ölkə ərazisində tətbiqinə

başlanıbdır (bölgələr üzrə növbəlik əsasında tətbiq edilir). İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin Mingəçevir, Yevlax şəhərləri və Ağdaş rayonu üzrə icra etdiyi pilot layihə çərçivəsində göstərilən səhiyyə xidmətləri əhalinin tibbi xərclərlə bağlı maliyyə yükünü azaldıb. Göstərilən xidmətlərdən vətəndaşların məmnunluq dərəcəsi Mingəçevir-Yevlax şəhərləri üzrə – 87 %, Ağdaş rayonu üzrə – 90 % olub. İcbari Tibbi Sığorta xidməti çərçivəsində pensiyaçılar (əmək və sosial), uşaqlar və dövlətdən sosial dəstək alan digər vətəndaşların xidmətlər zərfinin baza və əlavə hissəsindən dövlət hesabına yararlanma hüquqları var. Lakin məişət zorakılığı qurbanları və insan alveri qurbanlarının, habelə işsiz kimi qeydiyyata alınmış şəxslərin icbari tibbi sığortadan dövlət hesabına yararlanması qanunvericilikdə hələ ki nəzərdə tutulmayıb.

# GİRİŞ

## Problemin təsviri

Cinsi ayrı-seçkiliyin fərqli təzahür formaları var. Son dövrlərin ən aktual problemlərindən olan gender əsaslı cins seçimi cinsi ayrı-seçkiliyin bariz nümunələrindəndir. Bu fenomen Azərbaycan da daxil olmaqla, bir çox ölkələrdə demoqrafik balansın pozulmasına rəvac verir və nəticə etibarilə arzuolunmaz fəsadlar törədir.

1990-cı illərin əvvəllərindən başlayaraq Sovet İttifaqının süqutundan qaynaqlanan sosial-iqtisadi çətinliklər Cənubi Qafqazın digər ölkələrində olduğu kimi, Azərbaycanda da doğulan uşaqlar arasında cins nisbətinin pozulması ilə nəticələndi. Belə ki, bu nisbət 1991-ci ildə hər 100 qız uşağına 107 oğlan, 2003-cü ildə isə hər 100 qız uşağına 118 oğlana qədər artaraq ən yüksək həddə çatmışdır. 2009-cu ildən başlayaraq bu göstərici qismən azalaraq 2015-2017-ci illərdə 114-ə enib. Bununla belə, Azərbaycan hələ də dünya səviyyəsində cins nisbətinin pozulduğu ölkələr arasında ilk sıralardadır[2]. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatlarına görə, hazırda bu göstərici 100 qıza nisbətdə 114 oğlan uşağı təşkil edir[3].

Azərbaycanda doğulan uşaqlar arasında cins nisbəti ilə bağlı müxtəlif ssenarilərin təhlili[4] göstərir ki, doğulan uşaqlar arasında cins nisbətinin pozulmasına görə Azərbaycan dünyada ilk ölkələr sırasındadır. . Son illərə qədər bu sırada birinci yerdə olan Çində bu göstəricinin getdikcə azalması müşahidə olunur. Bu səbəbdən də sözügedən təhlil yaxın gələcəkdə doğulan uşaqların cins nisbətinin pozulduğu ölkələr siyahısında Azərbaycanın birinci ola biləcəyini istisna etmir. Həmçinin, “Demoqrafik proqnozlar, 2014-2050” araşdırmasında[5] qeyd olunur ki, belə bir tendensiyanın davam edəcəyi təqdirdə ölkədə demoqrafik vəziyyət maskulinizasiya adlanan mərhələyə çatacaq və bu halda gender balansını sonradan bərpa etmək xeyli çətinləşəcək. Araşdırmada o da qeyd edilir ki, belə bir vəziyyət üçün hətta ən optimist əhali proqnozlarında belə əsrin ortalarına qədər cins nisbətində balansın bərpa olunması qeyri-mümkün ola bilər.

Azərbaycanda gender əsaslı cins seçiminin başlıca səbəbi tarixən oğlan uşağına verilən üstünlük, oğlanların qızlarla müqayisədə sosial və iqtisadi baxımdan daha gərəkli hesab edilməsi kimi bir sıra sosial əsaslı faktorlarla bağlıdır. Ölkədə adətən torpaq da daxil olmaqla, əmlakın əksər formaları və ailə biznesi əsasən kişiyə ötürülür. Kişilərin əmək fəaliyyəti ilə daha çox məşğul olması onlara ailə gəlirinə daha çox töhfə vermək imkanı yaradır. Effektiv sosial müdafiə mexanizmlərinin olmaması yaşlanan valideynləri oğullarının maddi dəstəyinə möhtac edir. Azərbaycan mədəniyyətində qızlar, bir qayda olaraq, “köçəri quş” hesab edilir. Ərə getdikdən sonra qızlar öz doğma ailələrindən ayrılır və çox vaxt yeni ailədə də aşağı sosial-iqtisadi mövqeyə malik olurlar. Bu səbəbdən də onların valideynlərinə dəstək vermək imkanları məhdud olur. Bundan əlavə, cəmiyyətin yazılmamış qaydalarının diktəsinə görə də yalnız oğullar ailə soyadının, eləcə də bir sıra dini və mədəni ənənələrin davamını təmin edə bilər.

---

[2]Oğlan uşaqlarına verilən üstünlüyün qarşısının alınması və qızların dəyərinin təşviq edilməsi üzrə Qlobal Proqram: Cənubi Qafqaz və bir sıra Asiya ölkələrində doğulan uşaqlar arasında cins nisbətinin tənzimlənməsi. Azərbaycan üzrə Ölkə İcmalı. UNFPA, 2018. https://azerbaijan.unfpa.org/sites/default/files/pub-pdf/UNFPA_Azerbaijan_country_profile_AZE.pdf
[3]https://modern.az/az/news/227889?fbclid=IwAR34utlLaogqYKbJmUjL2RNW2V_2G5X5jl-jk7I1McWq2QlZVUk1M1CoEFQ
[4]Demoqrafik proqnozlar, 2014-2050: Azərbaycanda Doğulanların Cins Nisbətinin Müxtəlif Ssenariləri. https://azerbaijan.unfpa.org/sites/default/files/pub-pdf/ReportAz_2015P.pdf
[5]Eyni mənbə.

Bu günə qədər oğlan uşağına verilən üstünlüyün və gender əsaslı cins seçiminin aradan qaldırılmasına yönəlmiş tədbirlər maarifləndirmə kampaniyalarının aparılması, eləcə də qanunvericiliyin təkmilləşdirilməsi və müvafiq milli fəaliyyət planının hazırlanması ilə məhdudlaşıb. Heç şübhəsiz ki, Milli Fəaliyyət Planının qəbulu istiqamətində Azərbaycan hökumətinin göstərmiş olduğu səylər yüksək qiymətləndirilir. Ancaq eyni zamanda ölkədə bu fenomenlə mübarizə həmçinin yarana biləcək mümkün risklərin qarşısının alınması məqsədilə gender bərabərliyinin təminatına və qadınların, eləcə də qız övladların statusunun təşviqinə yönələn strategiyaların müəyyən olunmasına xidmət etməlidir.

Oğlan uşaqlarına verilən üstünlüyün və gender əsaslı cins seçiminin qarşısının alınması hərtərəfli yanaşma, bir-biri ilə sıx bağlı tədbirlər, daha təkmil qanunvericilik və siyasi çərçivənin olmasını, o cümlədən biliklərə əsaslanan məlumatlılığın artırılmasını, əhalinin və qərar qəbul edən şəxslərin bu məsələyə həssas yanaşmasını zəruri edir. Bunun üçün hökumət nümayəndələrinin (Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Gənclər və İdman Nazirliyi), eləcə də vətəndaş cəmiyyəti təşkilatlarının, dini qurumların, medianın, Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin (ASAN Xidmət) iştirakı ilə çoxsektorlu yanaşmanın tətbiqinə ehtiyac var.

2011-ci ildən etibarən hökumət BMT-nin Əhali Fondunun dəstəyi ilə oğlan uşaqlarına verilən üstünlük və gender əsaslı cins seçimi probleminin həlli üçün çalışır. Görülən başlıca tədbirlər məlumatlara əsaslanan dövlət siyasətinin formalaşdırılması, dəlillərə söykənən informasiyanın paylaşılması, ictimaiyyət arasında məlumatlılığın artırılması, həmçinin bu fenomenin qarşısının alınması üçün qanunvericilik bazası və onun icrasına təminat verən siyasi çərçivənin hazırlanmasına xidmət edir.

Əvvəlki təşəbbüslərin davamı olaraq BMT-nin Əhali Fondu "Oğlan uşaqlarına verilən üstünlüyün və qız uşaqlarına daha az dəyər verilməsinin aradan qaldırılması üzrə Qlobal Proqram" çərçivəsində Azərbaycanda cins seçiminə töhfə verən və ya onun qarşısını alan mövcud qanunların, dövlətin sosial-iqtisadi siyasətinin və proqramlarının gender aspektinin qiymətləndirilməsini (bundan sonra: gender qiymətləndirməsi) təşkil edib.

## Gender qiymətləndirməsinin məqsədi və konseptual çərçivə

Qadınlarla kişilər arasında gender bərabərliyinin təminatları haqqında ayrıca Qanunun[6] qəbul olunmasına baxmayaraq, Azərbaycanda hələ də oğlan uşaqlarına verilən üstünlük və qızlara daha az dəyər verilməsi kimi ənənəvi təcrübə müxtəlif fəsadlar törətməkdə davam edir. Bu arzuolunmaz prosesin səbəblərini müəyyənləşdirmək məqsədi ilə müvafiq milli qanunvericilik aktları, dövlət siyasəti və proqramları gender qiymətləndirməsindən keçirilib. Nəticədə bəlli olub ki, bir çox hallarda mövcud qanunlar və onların icrasını təmin edən siyasi qərarlar mahiyyətinə məhəl qoymadan qadın və kişilərə fərqli şəkildə təsir edə bilir. Bəzən hətta bu qərarlar da qadınlara, qızlara qarşı sosial, mədəni və ya iqtisadi baxımdan qərəzli yanaşmanın artmasına zəmin yaradır. Ona görə də əgər qanunlar və onların icrasını təmin edən siyasi qərarların formalaşdırılması mərhələsində həmin mənfi təsirlər nəzərə alınmazsa, bu qanunlar və yanaşmalar Azərbaycanda gender vəziyyətinin müsbətə doğru dəyişməsinə kömək edə bilməyəcək. Odur ki, görülən tədbirlər ilk növbədə mütəxəssis rəyinə əsaslanmalıdır. Bununla yanaşı, qadın və kişilərin fərqli ehtiyacları və maraqlarının təmin edilməsi,

[6]Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında Azərbaycan Respublikasının Qanunu. 2006. № 150-IIIQ. http://www.e-qanun.az/framework/12424

onların resurslara çıxışı və nəzarət etməsindəki maneələrin və gender bərabərsizliyinin müəyyən olunması, gender stereotiplərinin qadın və kişilərə təsirinin nəzərə alınması, habelə mümkün fərqli təsirlər əvvəlcədən hesablanaraq gender bərabərliyinin dəstəklənməsinə yönəlik cavab tədbirlərinin görülməsi vacibdir[7].

Sözügedən Gender Qiymətləndirməsi üçün üç prioritet sahə müəyyən edilib:

1. **Qadınların mülkiyyət və miras hüquqları: de-yure və de-fakto bərabərlik arasındakı boşluqlar.** Bu sahə üzrə qadınların ailədəki əmlak və vərəsəlik hüquqları, yaşayış yeri üzrə qeydiyyatı və ad/soyad məsələlərində gender cəhətdən neytral siyasətə diqqət yetirilib;

2. **Qadınların məşğulluq və özünüməşğulluqda iştirakı: çətinliklər və imkanlar.** Bu sahə üzrə əsasən karyera inkişafında qeyri-bərabərlik (o cümlədən gender əsaslı ayrı-seçkilik və seksual qısnama), valideyn məzuniyyəti siyasəti, qadınların sahibkarlıqda iştirakı, dövlət dəstəyi və imtiyazlardan istifadə, onların təhsili və yüksək gəlirli peşə sahələrinə yönləndirilməsi kimi vacib məsələlər araşdırılıb.

3. **Sosial müdafiə: gender məsələləri.** Bu istiqamət üzrə əsasən pensiya və icbari tibbi sığorta siyasəti, yaşlı əhali üçün xüsusi imtiyazlara (ictimai nəqliyyatdan pulsuz istifadə, kommunal xidmətlərdə güzəştlər və s. məsələlər) diqqət yetirilərək sosial müdafiə sistemləri tədqiq edilib.

Yuxarıda göstərilən hər üç sahə və onların müvafiq alt sahələri üzrə Azərbaycanda oğlan uşaqlarına verilən üstünlük və qızlara daha az dəyər verilməsinə birbaşa və ya dolayı yolla təsir göstərən mövcud qanunların, dövlət siyasəti və proqramlarının gender məsələlərinə adekvat reaksiyasının qiymətləndirilməsi aparılıb.

**Hədəf rayonlar:**

İlkin hədəf rayonlar kimi gender əsaslı cins seçimi hallarının daha çox müşahidə olunduğu[8] Abşeron və Saatlı rayonları götürülüb. Bu rayonların seçilməsinə onların coğrafi mövqeyi və araşdırma üçün vaxt məhdudluğunun olması da təsir edib.

---

[7] European Institute for Gender Equality, Gender Impact Assessment, 2016.

[8] Demoqrafiya və Sağlamlıq Sorğusu, 2011. Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzi (İSİM), 2013. Bakı, Azərbaycan. Səh. 96.

# TƏDQİQAT METODLARI

Azərbaycanda gender əsaslı cins seçimi və oğlan uşaqlarına verilən üstünlüyün potensial sosial-iqtisadi təsirlərini aşkar etmək məqsədilə müvafiq hüquqi və siyasi çərçivənin gender qiymətləndirilməsi aşağıdakı tədqiqat metodologiyası üzrə araşdırılıb:

***Müvafiq siyasi çərçivənin, o cümlədən tədqiqat hesabatlarının nəzərdən keçirilməsi***

Metodologiyanın bu konsepti sosial-iqtisadi sahələr üzrə müvafiq hüquqi və siyasi çərçivənin nəzərdən keçirilməsi, onların icra təcrübəsinə dair məlumatların toplanması və təhlili, aşkar edilmiş əsas boşluqlar və bu boşluqların regionlara səfərlər zamanı yerindəcə dəqiqləşdirilməsinə imkan yaradan qiymətləndirmənin əsas hissəsidir.

Azərbaycanda dünyaya gələn uşaqların cinsə görə nisbətinin pozulmasına təsir edən mexanizmləri anlamaq, ailənin və cəmiyyətin qız uşaqlarından daha çox oğlan uşaqlarına üstünlük verməsinin səbəblərini izah etmək məqsədilə BMT-nin Əhali Fondunun 2014-cü ildə hazırladığı "Azərbaycanda doğulan uşaqların cins nisbətinin pozulmasına zəmin yaradan mexanizmlər: keyfiyyət və kəmiyyət əsaslı tədqiqat"[9] da əsas sənəd kimi nəzərdən keçirilib.

Bu tədqiqat Azərbaycanın mövcud sosial-iqtisadi siyasi çərçivəsi, onun gender əsaslı cins seçiminə birbaşa və ya dolayı təsirini müəyyən etmək məqsədilə aparılıb. Tədqiqat əmlak hüquqları, vərəsəlik, eləcə də əmək və məzuniyyət siyasəti, təhsil, habelə pensiya sistemi, tibbi sığorta, işsizlik müavinəti və s. məsələləri tənzimləyən qanunlar və proqramları, onların əsas aspektlərini əhatə edib. Bu istiqamətdə qanunvericiliyin müxtəlif sahələri üzrə ailə, mülkiyyət, mənzil və vərəsəlik məsələlərini tənzimləyən, o cümlədən sosial müdafiə, məşğulluq, tibbi sığorta, təhsil və digər əlaqəli normalar nəzərdən keçirilib. Dövlət siyasətinin təhlili isə strategiyalar, proqramlar, tədbirlər planları, dövlət orqanlarının prosedurlarına aid bu kimi sənədləri əhatə edib.

Bundan əlavə, Azərbaycanda sosial-iqtisadi siyasətin aparılmasında gender bərabərliyi və gender məsələləri ilə bağlı Azərbaycanın qoşulduğu saziş qurumlarının tövsiyələri, yerli və beynəlxalq təşkilatların, o cümlədən BMT-nin hazırladığı tədqiqatlar və hesabatlar, xüsusilə də ölkədə gender əsaslı cins seçiminə cavab tədbirləri, onun qarşısının alınması üzrə 2018-ci ildə hazırlanmış Milli Fəaliyyət Planının layihəsi mühüm sənəd kimi təhlildə istifadə edilib.

Sosial siyasət, qanunlar və gender əsaslı cins seçimi arasında qarşılıqlı əlaqəni müəyyənləşdirmək üçün aşağıdakı məlumat mənbələrinə istinad edilib:

- Doğum zamanı cins nisbəti üzrə keyfiyyətli məlumatları təmin edən qeydiyyat sistemləri;
- Doğuş qabiliyyətli qadınlar, kontraseptivlərdən istifadə səviyyəsi və abortlarla bağlı təhlil imkanı yaradan "Azərbaycanda Demoqrafiya və Sağlamlıq Sorğusu, 2011".

***Keyfiyyət əsaslı tədqiqat – müsahibə və fokus qrup müzakirələri***

Keyfiyyət əsaslı təhlil ilkin tapıntılar üzrə tədqiqatın tamamlanması üçün zəruri məlumatların əldə edilməsi baxımından əvəzsiz vasitədir. Məlumatların toplanılmasında istifadə olunan belə üsullar – hazırkı tədqiqatın üç əsas sahəsi üzrə icmalar daxilində səkkiz fokus qrup müzakirələr (47 qadın, 26 kişi iştirakçı) və müvafiq dövlət orqanlarının səlahiyyətli şəxsləri ilə aparılan 32 müsahibə

[9] Azərbaycanda doğulan uşaqların cins nisbətinin pozulmasına zəmin yaradan mexanizmlər: keyfiyyət və kəmiyyət əsaslı tədqiqat. UNFPA Azerbaijan, 2014. http://unazerbaijan.org/wp-content/uploads/2012/11/GBSS_Azerbaijan_AZ.pdf

(14 qadın, 18 kişi müsahib) məlumatların əldə olunmasına kömək edib. Əlavə olaraq, bu zəmində bir neçə mülki sahə üzrə ixtisaslaşmış vəkil və qadın məsələləri ilə məşğul olan QHT-lərdə çalışan ekspertlərlə görüşlər keçirib. Dövlət orqanları ilə yarımstrukturlu müsahibələr zamanı Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, İqtisadiyyat Nazirliyi, Əmlak Məsələləri üzrə Dövlət Komitəsinin yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti, Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyi, Ədliyyə Nazirliyinin Qeydiyyat və Notariat Baş İdarəsi, Səhiyyə Nazirliyi və Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin səlahiyyətli şəxslərindən götürülmüş təfərrüatlı məlumatlar hesabatın nəticələrinin təsdiqlənməsi və genişləndirilməsində böyük imkanlar yaradıb.

Müsahibələrdən əlavə, Saatlı və Abşeron rayonlarında 47 qadın, 26 kişi iştirakçı ilə səkkiz fokus qrup müzakirələri keçirilib (FQM). Belə müzakirələr hər birində 8-10 nəfər olmaqla qadın və kişi qruplarında aparılıb. Müzakirələr dörd əsas aktual mövzu – vərəsəlik, analıq və atalıq məzuniyyəti; sahibkarlıqda iştirak; dövlət dəstəyindən yararlanma; bazar tələbatına uyğun peşə sahələrinə cəlb olunmanı əhatə edib. FQM nəticəsində əldə edilmiş məlumatlar hesabatın müvafiq sahələrə uyğun olan təhlil hissələrinə inteqrasiya edilib.

***<u>Məlumatların təhlili</u>***

Müvafiq sahələr üzrə gender qiymətləndirməsində nəzərdən keçirilən qanunvericilik və dövlət siyasəti sənədləri, habelə müsahibələr və fokus qrup müzakirələr sayəsində əldə olunmuş keyfiyyət əsaslı məlumatlar təhlil edilərək yekun hesabat hazırlanıb. Bu zaman tədqiqat heyəti əldə olunmuş məlumatların keyfiyyətini və kəmiyyətini ayrıca qiymətləndirib, tədqiqatın nəticələrinin düzgünlüyünü dövlət nümayəndələri və ekspertlərlə qarşılıqlı şəkildə yoxlayaraq, onların etibarlılığını təmin edib. Tədqiqatın nəticələrinin təhlili və yekun hesabatın hazırlanması zamanı beynəlxalq ekspertin və BMT-nin Əhali Fondunun Azərbaycan üzrə ölkə ofisinin əməkdaşları ilə məsləhətləşmələr aparılıb. Yekun hesabatda qiymətləndirmə zamanı müəyyən edilmiş boşluqlar və narahatlıq doğuran sahələrin aradan qaldırılması üçün müvafiq və praktiki tövsiyələr əks olunub (tövsiyələr hər sahə üzrə ayrılıqda təsvir olunub və bütün tövsiyələrin siyahısı hesabata əlavə edilib).

# BÖLMƏ 1.

# QADINLARIN MÜLKİYYƏT VƏ MİRAS HÜQUQLARI: DE-YURE VƏ DE-FAKTO BƏRABƏRLİK ARASINDAKI BOŞLUQLAR

Universal Dövri İcmalın 2013 və 2018-ci illərdə Azərbaycan üzrə yekun hesabatlarda verdiyi əsas tövsiyələrindən biri Azərbaycan vətəndaşlarının Konstitusion hüquq və azadlıqlarının qorunması, onların səmərəli həyata keçirilməsinə dair müvafiq normativ hüquqi aktlar və icra qərarlarının qəbul edilməsi, habelə onların icrasına nəzarət edilməsi məsələləri olub. Qeyd olunub ki, ölkə səviyyəsində qadın və uşaqların hüquq və qanuni maraqlarının müdafiəsi üzrə milli qanunvericilik təkmilləşdirilməli və qurumların inkişafı davam etdirilməlidir. Bundan əlavə, hesabatda qadınların təkcə ictimai sektorda deyil, eləcə də özəl sektorlarda iştirakçılığının gücləndirilməsinin təşviqi və onlara dəstək göstərilməsi üzrə müvafiq addımların atılması da tövsiyə edilib[10].

Məlumdur ki, qadınlar kişilərlə bərabər Konstitusiya və qanunlarla təmin edilən mülkiyyət və vərəsəlik hüquqlarına malikdir. Bu araşdırma çərçivəsində belə hüquqlardan praktikada istifadə imkanları da gender cəhətdən qiymətləndirilib. Tədqiqat qrupu bu sahədə mövcud sosial-iqtisadi çətinlikləri, qanun və icradakı boşluqları nəzərdən keçirib. Qadınların ailədə bərabər əmlak və miras əldə etmək, ailə mülkiyyətindən və ya biznesindən istifadə etmək kimi məsələlər üzrə ayrı-seçkiliyə məruz qalıb-qalmadıqları, həmçinin qadın və qızların hüquq və qanuni maraqlarının qorunması üzrə mövcud müdafiə mexanizmləri də nəzərdən keçirilib.

## 1.1. Qadınların mülkiyyət hüquqları

***<u>Qadınlar mülkiyyətçi qismində qəbul edilmirlər</u>***

Azərbaycanda oğlan uşaqlarına üstünlük verilməsinin vüsət almasına təsir edən başlıca amil – özündə iki funksiyanı daşıyır: soyadın davamı və ailə mülkiyyətinin saxlanılması[11]. Bundan başqa, “IMAGES” tədqiqatının[12] nəticələrinə görə, əksər hallarda qız uşaqlarına nisbətən az üstünlük verilir. Çünki qızlar ailənin (valideynlərinin) maddi təminatçısı hesab edilmir. Azərbaycanda əvvəlcədən ehtimal olunur ki, qız ərə getdikdən sonra daha çox yeni qurduğu ailəsinin qayğısına qalmalı, öz ailəsini təmin etməlidir. Ona görə də oğulun öz yaşlı valideynlərinə sosial-iqtisadi qayğı göstərməsi ehtimalı nəzərə alınaraq ailədə oğlan uşağının olmasına daha çox üstünlük verilir. Əksər hallarda cəmiyyət oğulu həm ailənin, həm də vətənin müdafiəçisi kimi görür. Oğlan uşağının

[10] https://www.ohchr.org/EN/HRBodies/UPR/Pages/AZIndex.aspx

[11] Azərbaycanda doğulan uşaqların cins nisbətinin pozulmasına zəmin yaradan mexanizmlər: keyfiyyət və kəmiyyət əsaslı tədqiqat. UNFPA Azerbaijan, 2014. http://unazerbaijan.org/wp-content/uploads/2012/11/GBSS_Azerbaijan_AZ.pdf

[12] “Azərbaycanda gender bərabərliyi və gender münasibətləri: mövcud vəziyyət və imkanlar. Kişilərin Gender Bərabərliyinə Münasibətinə dair Tədqiqatın (IMAGES) nəticələri üzrə Hesabat”. UNFPA/AQUPDK, 2018. Bakı, Azərbaycan. https://azerbaijan.unfpa.org/sites/default/files/pub-pdf/gender%20equality-az_0.pdf

gələcəyin təminatçısı, soyadın daşıyıcısı və  nəslin davamçısı kimi qəbul edilməsi və qız uşaqlarının bir sıra hallarda hətta yük hesab edilməsi özünü əmlak bölgüsündə, ailə əmlakı və biznesinin bağışlanmasında, o cümlədən vərəsəlik hüquqlarının ötürülməsində də göstərir. Belə ki, yuxarıda qeyd edilən səbəbləri nəzərə alaraq valideynlər ailəyə məxsus əmlakın oğlanlarının adında qeydiyyatda olmasına (və ya faktiki sahibliyində olmasına) üstünlük verir və əksər hallarda buna asanlıqla nail olurlar (qızlar çox vaxt cəmiyyətin onlara təlqin etdiyi gender rollarına uyaraq etiraz etmirlər).

Tarixən əmlakın oğlan övladlara dövr edilməsi nəticəsində yeni qurulmuş ailələrdə də əmlak əksər hallarda ərin mülkiyyətində olur. Bu o deməkdir ki, kişilər yeni qurulmuş ailəyə qadınlara nisbətən daha çox əmlak və iqtisadi imkanlarla daxil olur. İqtisadi imkanlardakı bu qeyri-tarazlıq sonradan ailə münasibətlərinə, xüsusilə də qadınların ailənin rifahı barədə qərar qəbul etmək imkanlarına mənfi təsir göstərir və bəzən  qadınlara qarşı iqtisadi, psixoloji və fiziki zorakılığa yol açır. Təsadüfi deyil ki, Azərbaycanın hələ də qoşulmadığı İstanbul Konvensiyasında[13] qadınlar və kişilər arasında bərabərliyə nail olunması ilə qadınlara qarşı zorakılığın aradan qaldırılması arasında aydın bir əlaqənin olduğu vurğulanıb.

Mülkiyyətin oğlanlara dövr edilməsi və torpaqların əksər hallarda kişilərə məxsus olması xüsusilə əhalinin gəlirinin az olduğu rayon və kənd yerlərində qadınların iqtisadi imkanlarını məhdudlaşdırır. Həm qadınlar, həm də kişilər üçün bütün növ daşınmaz əmlak, xüsusilə də torpaq təhlükəsizlik, sığınacaq və dolanışıq deməkdir. Qadınların ev və torpaq hüquqlarının təminatı onların iqtisadi cəhətdən səlahiyyət sahibi olmaları üçün xüsusi önəm kəsb edir. Kənd təsərrüfatından yararlanma və aqrar biznesdə iştirak qadınların iqtisadi resurslara çıxışını artırır, maliyyə sabitliyi üçün ciddi zəmin yaradır və bir çox hallarda onların rifahının yüksəlməsinə yardım edir. Dövlət səviyyəsində gender cəhətdən həssas siyasətin aparılması sayəsində qadınların ailədə və cəmiyyətdə dəyərinin artırılmasında, sosial-iqtisadi statusunun yaxşılaşdırılmasında və beləliklə, gender bərabərsizliyi ilə mübarizədə dayanıqlı nəticələrə nail olmaq mümkündür.

***Ər-arvadın birgə mülkiyyətinin bölünməsindəki əsas çətinliklər***

Azərbaycanda hər kəsin mülkiyyət hüququ (əmlaka sahib olmaq, əmlakdan istifadə etmək və onun barəsində sərəncam vermək) Azərbaycan Respublikasının Konstitusiyası[14] ilə  tanınır və qorunur. Azərbaycan Respublikasının tərəfdar çıxdığı insan hüquqlarına dair BMT-nin əksər sazişləri, eləcə də Avropa Şurasının İnsan Hüquqları və Əsas Azadlıqlarının Müdafiəsinə dair Avropa Konvensiyası və onun 1 saylı Protokolu ilə hər bir fiziki və hüquqi şəxsin mülkiyyət hüququ və ondan dinc istifadə hüququ təsbit edilib. Cəmiyyətin maraqları naminə qanunla və beynəlxalq hüququn ümumi prinsipləri ilə nəzərdə tutulmuş şərtlər istisna olmaqla, ölkədə heç kim öz mülkiyyətindən məhrum edilə bilməz.

Konstitusiya ilə təsbit edilmiş qadın və kişinin hüquq bərabərliyinə uyğun olaraq Azərbaycan Respublikasının Ailə Məcəlləsi də ərin və arvadın ailə münasibətlərində bərabər şəxsi və əmlak hüquqlarını müəyyən edir[15]. Eyni zamanda, nikah müddətində ər-arvadın birgə əldə etdikləri əmlak onların ümumi birgə mülkiyyəti sayılır[16]. Ər-arvadın ümumi gəlirləri hesabına əldə edilən daşınan və daşınmaz əşyalar, qiymətli kağızlar, kredit idarələri və s. kommersiya təşkilatlarına qoyulmuş paylar,

[13]Explanatory Report, the Council of Europe Convention on preventing and combating violence against women and domestic violence. Istanbul, 11.V.2011. https://rm.coe.int/16800d383a
[14]Azərbaycan Respublikası Konstitusiyası. 1995. № 00. http://www.e-qanun.az/framework/897
[15]Azərbaycan Respublikasının Ailə Məcəlləsi. 1999. 781-IQ http://www.e-qanun.az/code/10
[16]Ər-arvadın ümumi birgə mülkiyyətinə həmçinin onların hər birinin əmək, sahibkarlıq və intellektual fəaliyyəti nəticəsində əldə etdikləri gəlirlər, aldıqları pensiya və müavinətlər, eləcə də xüsusi təyinatı olmayan digər pul ödəmələri daxildir.

əmanətlər, kapitaldan olan paylar və əmlakın ər və ya arvadın adına əldə olunmasından, yaxud əmanətin kimin adına və ya kim tərəfindən qoyulmasından asılı olmayaraq, nikah dövründə ər-arvadın qazandığı hər hansı əmlak onların ümumi birgə mülkiyyətinə daxildir. Xüsusi qeyd edilməli məsələlərdən biri də odur ki, nikah dövründə ev təsərrüfatı və uşaqlara qulluq etməklə məşğul olduğundan və ya digər üzrlü səbəblərə görə müstəqil qazancı olmayan ərin və ya arvadın da ümumi əmlak üzərində bərabərhüquqlu olması məcəllədə təsbit edilib[17].

Ər-arvadın ümumi əmlakının bölünməsi nikah dövründə, eləcə də onlardan birinin tələbi ilə nikah pozulduqdan sonra, habelə kreditorun tələbi ərin və ya arvadın ümumi əmlakdakı payına yönələrkən ümumi əmlakın bölünməsi barədə ərizə verdikdə həyata keçirilir (mübahisə olduqda ümumi əmlakın bölünməsi, eləcə də bu əmlakda ərlə arvadın paylarının müəyyən olunması məhkəmə qaydasında həyata keçirilir[18]). Ayrı-ayrı hallar (yetkinlik yaşına çatmayan uşaqların, ərin və ya arvadın mənafeyi və s.) istisna olmaqla ümumi əmlakın bölünməsi zamanı tərəflərin paylarının bərabər olması nəzərdə tutulur[19]. Tədqiqat çərçivəsində müsahibədə iştirak etmiş vəkil-ekspertlərin bildirdiyinə görə, ümumi əmlakın bölüşdürülməsi zamanı məhkəmələr bir çox hallarda uşaqların və ya iqtisadi cəhətdən daha zəif durumda olan qadınların mənafeyini nəzərə almır. Məhkəmə təcrübəsinə əsasən boşanma zamanı uşaqlar əksər hallarda ananın himayəsində qalır və hakimlər ümumi əmlakın bölgüsü məsələsini həll edərkən uşaqların mənafeyini nəzərə alıb anaya düşəcək əmlak payı hissəsini artırmır. Bu da himayəsində yetkinlik yaşına çatmayan uşaqları olan qadınların mənafeyinin və sosial ədalət prinsipinin pozulmasına gətirib çıxarır. Bu səbəbdən də məhkəmə təcrübəsinin yaxşılaşdırılması və boşanma zamanı himayəsində yetkinlik yaşına çatmayan uşaqları olan, iqtisadi cəhətdən daha zəif durumda olan ərin və ya arvadın mənafeyinin qorunması məqsədilə Ali Məhkəmənin sözügedən istiqamətdə məhkəmə təcrübəsini təhlil etməsinə və məsələnin məhkəmələr tərəfindən ən yaxşı təcrübəyə əsaslanaraq həlli barədə tövsiyə qərarı qəbul etməsinə ehtiyac var.

Qadınların mənafeyinin və əmlak hüquqlarının pozulmasına səbəb olan, ər-arvadın birgə əmlakının bölünməsi məsələlərinə aid məhkəmə təcrübəsində ən çox rast gəlinən işlərdən biri də nikah dövründə əldə edilmiş avtonəqliyyat vasitələrinin alqı-satqısı zamanı tərəflərdən birinin razılığının tələb olunmaması ilə bağlıdır. Belə ki, Ailə Məcəlləsinə əsasən ər-arvadın rəsmi reyestrdə qeydə alınmalı olmayan ümumi daşınan əmlak üzərində sərəncam əqdini onlardan biri həyata keçirirsə, bu halda güman edilir ki, o, digərinin razılığı ilə hərəkət edir. Məhkəmə təcrübəsindəki problemlərdən danışan vəkil-ekspertlərin fikrincə, birgə mülkiyyətə daxil olan avtonəqliyyat vasitələrinin alqı-satqısı zamanı əksər hallarda arvadların razılığı alınmır. Qanunvericilik alqı-satqının predmeti olmuş avtonəqliyyat vasitələri üzrə bağlanan müqavilənin sonradan etibarsız sayılmasına dair tərəflərin hüquqlarını təmin etsə də, əvvəlcədən ərin və ya arvadın rəsmi icazəsinin olmaması ucbatından (əksər hallarda arvadın xəbəri olmur) sonradan əmlak hüquqlarının bərpasına dair çoxsaylı çətinliklər yaranır (alqı-satqıdan əldə edilmiş pulun təkbaşına xərclənməsi və ya gizlədilməsi, məhkəmə prosesinin apardığı vaxt və çəkilən xərclər və s.). Buna görə də müvafiq qanunvericilik aktlarına birgə nikah dövründə əldə edilmiş avtonəqliyyat vasitələrinin alqı-satqısı zamanı ərin və ya arvadın rəsmi razılığının tələb olunmasına dair əlavə və dəyişikliyin edilməsi zəruridir. Belə bir addımın atılması tərəflərin, xüsusilə də qadınların əmlak hüquqlarının qorunmasına yönəlmiş əhəmiyyətli tədbir olar.

---

[17]Azərbaycan Respublikasının Ailə Məcəlləsi. 32-ci maddə.
[18]Eyni mənbə. 36-cı maddə.
[19]Eyni mənbə. 37-ci maddə.

***Qadınların mülkiyyət hüquqlarının həyata keçirilməsində əsas əngəllər***

Daşınmaz əmlakın dövlət qeydiyyatına alınması həmin əmlak üzərində mülkiyyət hüququnun kimə məxsus olmasını təsbit edir. Bu, mülkiyyətçinin qanuni maraqlarının və mənafeyinin dövlət tərəfindən qorunması üçün əsas hüquqi vasitədir. Azərbaycan Respublikasının mülki qanunvericiliyinə əsasən yeni yaranmış daşınmaz əmlaka mülkiyyət hüququ onun daşınmaz əmlakın dövlət reyestrində qeydə alındığı andan əmələ gəlir[20]. Daşınmaz əmlaka mülkiyyət və digər əşya hüquqlarının dövlət qeydiyyatı – daşınmaz əmlaka hüquqların əmələ gəlməsinin, məhdudlaşdırılmasının (yüklülüyünün), başqasına keçməsinin və bu hüquqlara xitam verilməsinin dövlət tərəfindən tanınması və təsdiq edilməsi barədə hüquqi aktdır[21]. Daşınmaz əmlak üzərində qeydiyyata alınmış hüquq mübahisələndirilə bilər. Bu baxımdan ölkə səviyyəsində bütün növ daşınmaz əmlakın dövlət qeydiyyatına alınması şəxslərin, xüsusilə də qadınların əmlak hüquqlarının dövlət tərəfindən tanınması və qorunması üçün çox önəmlidir.

Bu qiymətləndirmə çərçivəsində müvafiq dövlət qurumları ilə keçirdiyimiz görüşlər nəticəsində müəyyən edilib ki, ölkə üzrə şəxsi mülkiyyətdə olan daşınmaz əmlaklar və onların ilkin dövlət qeydiyyatına dair dəqiq bir rəqəm/faiz göstəricisi yoxdur. Rəsmilərin təxmin etdiyi rəqəmə görə, ölkə üzrə şəxsi mülkiyyətdə olan daşınmaz əmlakların yalnız 20-30 %-i dövlət qeydiyyatına alınıb. Rayon yerlərində bu göstərici daha aşağıdır (maksimum 2-5 % arası təşkil edir).

Gender əsaslı cins seçiminə görə abortların sayının daha yüksək olduğu Aran bölgələrindən biri – Saatlı rayonunda əhali arasında aparılan fokus qrup müzakirələrinə əsasən, kəndlərdə yalnız 2-3 ev və həyətyanı torpaqların mülkiyyət sənədləri var. İştirakçıların bildirdiyinə görə: “Kənddə ötən əsrin 60-cı illərindən bəri tikilən evlər də daxil olmaqla, müstəqillik dövründə tikilən evlərin, habelə onların yerləşdiyi həyətyanı torpaqların kupçası (dövlət qeydiyyat şəhadətnaməsindən çıxarış) yoxdur. Yalnız bir neçə evin sənədi var. Bu sənədlər də ailə başçısı (ər) kredit götürərkən ipoteka üçün bankın ondan evin kupçasını tələb etməsi səbəbindən əldə edilib.”. Həm Abşeron, həm də Saatlı rayonundan olan iştirakçılar daşınmaz əmlakların dövlət qeydiyyat sənədlərinin olmamasını, ailələrdə qərar verən şəxslərin sənədləşdirmədə maraqlı olmadıqlarını qeyd edərək aşağıdakı çətinlikləri sadalayıblar: tələb olunan sənədlərdəki çatışmazlıqlar (qeydiyyat üçün tələb olunan sənədlərin olmaması və ya düzgün tərtib edilməməsi), icra hakimiyyəti və bələdiyyələr tərəfindən təsərrüfat təyinatlı torpaqların fərdi yaşayış üçün ayırılması (məmur səhlənkarlığı ucbatından torpaqların təyinatının düzgün tətbiq olunmaması), əmlakın özbaşına tikili olması, ailələrin qeydiyyat üçün xidmət haqqı və rüsumları ödəyə bilməməsi, qeydiyyat üzrə ərazi idarələrinin uzaq məsafədə yerləşməsi və buna görə də yaranan çətinliklər (rayonlararası nəqliyyatın mütəmadi olmaması və yol xərcləri).

Tədqiqatda iştirak etmiş vəkillərin bildirdiyinə görə, məhkəmə təcrübəsində ən çox rast gəlinən məsələ sənədsiz evlərin və torpaq sahələrinin üzərində mülkiyyət hüququnun müəyyən edilməsi və boşanma zamanı həmin əmlakın bölüşdürülməsi ilə bağlıdır. Belə ki, qadın və kişi ailə qurandan sonra özləri üçün həyətyanı torpaqda yeni ev tikib, orada yaşayırlar. Lakin müxtəlif səbəblərdən həmin əmlak dövlət qeydiyyatına aldırılmır. Bu da sonradan ayrılma və ya boşanma zamanı qadınlar, əsasən də himayəsində yetkinlik yaşına çatmayan uşaqları olan qadınlar üçün əmlak hüquqlarının tanıdılması və qorunmasında ciddi problemlər yaradır. Evin dövlət qeydiyyatına alınması barədə çıxarışı olmadığı üçün birgə əmlak üzərində mülkiyyət hüququnun məhkəmə

[20] Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 178-ci maddəsi. http://www.e-qanun.az/code/8
[21] “Daşınmaz əmlakın dövlət reyestri haqqında” Azərbaycan Respublikasının Qanunu. http://e-qanun.gov.az/framework/5456

tərəfindən tanıdılması və bölüşdürülməsi mümkün olmur. Belə olan halda qadınlar həmin evdə zorakı mühitdə yaşamağa və ya uşaqlarını götürüb öz valideynlərinin evlərinə sığınmağa məcbur olurlar.

Dövlət Reyestr Xidmətinin əməkdaşlarının bildirdiyinə görə, 90-cı illərdən başlayaraq Azərbaycanda aparılmış torpaq islahatları nəticəsində ümumi torpaqlar dövlət, bələdiyyə və şəxsi pay torpaqları kimi bölünüb. O dövrdə vətəndaşlara ayırılan pay torpaqlarına dair dövlət aktı verilib. Bu aktlar torpağa dair istifadə və sahiblik hüququ versə də, sərəncam vermə hüququ yaratmır. Belə aktlar torpaq sahəsinin dövlət qeydiyyatına alınması üçün əsasdır və qeydiyyata alındıqdan sonra tam mülkiyyət hüququ yaradır. Buradan da göründüyü kimi, torpaqlara dair dövlət aktı tam mülkiyyət hüququ yaratmadığı üçün bölüşdürmə və vərəsəlik məsələlərində qadınlara xüsusi çətinliklər törədir. Bundan əlavə, 2013-cü ilə kimi yerli bələdiyyələrin sərəncamında olan torpaqlar təyinatı üzrə vətəndaşların mülkiyyətinə və istifadəsinə verilməyib. Belə ki, bələdiyyə qərarları ilə bir çox əkin təyinatlı torpaqlar vətəndaşlara fərdi yaşayış adı ilə verilib (xüsusilə Bakı və Abşeron ətrafında). Belə administrativ səhlənkarlıq və vətəndaş məsuliyyətsizliyi ucbatından həmin torpaqlar üzərində tikilən yaşayış massivləri və obyektlər dövlət qeydiyyatı tələblərinə uyğun gəlmədiyi üçün sənədləşdirilmir. Bu o deməkdir ki, belə əmlaka sahiblik və istifadə edən vətəndaşların mülkiyyət hüquqları təmin oluna bilməz. Bunun üçün hökumət müvafiq tədbirlər görməli və müvafiq dövlət qurumu tərəfindən (Nazirlər Kabineti) həmin yaşayış massivləri üzrə torpaqların təyinatı dəyişdirilməlidir.

Əmlakla bağlı yuxarıda qeyd edilən faktiki halların hamısını ümumiləşdirərək belə nəticəyə gəlmək olur ki, bütün növ əmlakların dövlət qeydiyyatına alınmaması ilk növbədə ailədə daha zəif mövqedə olan qadınların əmlak hüquqlarının tanınması, əmlakdan istifadə və onun üzərində sərəncam vermək kimi fundamental insan hüquqlarının həyata keçirilməsini məhdudlaşdırır. Bu da dolayısı ilə ailədə və cəmiyyətdə qadınların dəyərinin aşağı olmasına, gender bərabərsizliyinin dərinləşməsinə, oğlan uşaqlarına verilən üstünlüyün və gender əsaslı cins seçiminin yüksək olmasının davam etməsinə gətirib çıxarır. Gender bərabərsizliyi və gender əsaslı cinsi seçimlə mübarizə – fundamental insan hüquqlarının həyata keçirilməsi üçün dövlətin təxirə salınmadan atacağı addımlardan ən önəmlisi sənədsiz daşınmaz əmlakın (mənzil, həyət evi, qeyri-yaşayış sahəsi, həyətyanı və pay torpaq sahələri, bağlar və s.) dövlət qeydiyyatını sürətləndirməkdir. Bu məqsədlə 2 illik dövlət proqramının hazırlanması və xərclərin (rüsum və xidmət haqqı) dövlət büdcəsi hesabına qarşılanması (və ya onun bir hissəsi) kimi proqressiv yanaşmalar tətbiq edilə bilər.

Mülkiyyət hüquqlarının həyata keçirilməsində qadınların qarşılaşdığı digər bir problem ***özbaşına tikintilərə***[22] mülkiyyət hüququnun tanınması ilə bağlıdır. Qanunvericiliyə görə özbaşına tikinti aparmış şəxs ona mülkiyyət hüququ əldə etmir. Onun tikintiyə dair sərəncam vermək – satmaq, bağışlamaq, icarəyə vermək və digər əqdlər bağlamaq ixtiyarı yoxdur. Özbaşına tikintiyə mülkiyyət hüququ məhkəmə tərəfindən o şəxs üçün tanına bilər ki, tikinti aparılmış torpaq sahəsi onun mülkiyyətində olsun[23].

Mətbuat və vətəndaş cəmiyyəti təşkilatlarının məlumatlarına görə, hazırda təkcə Bakı şəhəri və Bakıətrafı kənd/qəsəbələrdə təxminən 700 mindən çox özbaşına tikili var[24]. Özbaşına tikililərin bir

[22]Azərbaycan Respublikasının Mülki Məcəlləsinə görə ***özbaşına tikinti*** **–** tikinti məqsədləri üçün ayırılmayan torpaq sahəsində və ya buna lazımi icazələr almadan və ya şəhərsalma və tikinti normalarını və qaydalarını ciddi surətdə pozmaqla tikilmiş yaşayış evini, digər tikili, qurğu və ya başqa daşınmaz əmlak nəzərdə tutur.
[23]AR Mülki Məcəlləsinin 180-ci maddəsi. http://www.e-qanun.az/code/8
[24]Sənədsiz evlər probleminin həlli üçün yeganə çıxış yolu. Jurnalist araşdırması. https://modern.az/az/news/144171

qismi nisbətən riskli ərazilərdə – neft buruqlarına, su, qaz, elektrik xətlərinə yaxın ərazilərdə yerləşir. Lakin belə evlərin böyük əksəriyyəti risk olmayan yerlərdə tikilib. Dövlət başçısının göstərişi əsasında yaradılan Komissiya[25] özbaşına tikililərin siyahıya alınmasını həyata keçirsə də, problemin həlli istiqamətində hələ ki bu günədək ciddi bir addım atmayıb. Həmin evlərin mülkiyyət hüququnun formalaşması əmlak sahiblərinin hüquqi müstəvidə münasibətlərinin formalaşması baxımından (xüsusilə də qadınların birgə əmlak üzərində hüquqlarının təmini) zəruridir. Bunun üçün gender cəhətdən həssas müvafiq qanun layihəsinin qəbul edilməsi və onun icra mexanizmlərinin yaradılması çox vacibdir. Dövlətin belə addımı onun beynəlxaq insan hüquqları üzrə müqavilələrdən irəli gələn pozitiv öhdəliklərinin həyata keçirilməsinə böyük töhfə vermiş olar.

Qadınların əmlak hüquqlarının həyata keçirilməsinə ciddi maneə olan və onları daha çətin vəziyyətə salan digər vacib məsələ ***Mənzil Tikinti Kooperativlərindəki (MTK) paylı mənzillərin Dövlət Reyestr Xidmətində məcburi qeydiyyatının aparılmamasıdır***. Belə ki, yeni tənzimləyici hüquqi aktlara görə, MTK-lar tərəfindən tikilən çoxmənzilli binalardakı vətəndaşların mənzil paylarının Dövlət Reyestr Xidmətində əvvəlcədən qeydiyyatı yalnız pay sahibinin hüququ kimi nəzərdə tutulub. Mülki sahədə ixtisaslaşmış vəkillərin bildirdiyinə görə, kişilər əksər hallarda belə mənzil paylarının qeydiyyatını aparmırlar. MTK-lar da mənzil payları üzrə vəkil sorğularına rəsmi cavab vermir, kişinin istəyi üzrə pay onun digər qohumlarının adına keçirilir və ya alqı-satqısı aparılır. Bu da əksər hallarda qadınların əmlak və ondan istifadə, həmçinin yaşayış hüquqlarını birbaşa pozur, ailələr arasında münaqişə və zorakılığa səbəb olur. Buna görə də müvafiq qanunvericilik aktlarına əlavə və dəyişiklik edilərək MTK-lar tərəfindən tikilən yeni binalardakı mənzillər üzrə payların Dövlət Reyestr Xidmətində məcburi qeydiyyatı məsələsinin MTK-ların üzərinə məcburi vəzifə kimi qoyulması daha məqsədəuyğun olardı.

Yuxarıda qeyd edilənləri ümumiləşdirərək belə bir nəticəyə gəlmək olar ki, Azərbaycanda qadınların mülkiyyət hüquqlarına de-yure təminat verilməsinə baxmayaraq, həmin hüquqların de-fakto həyata keçirilməsində boşluqlar mövcuddur. Bu boşluqların kökündə mədəniyyətlə bağlı (ailə və cəmiyyət tərəfindən qadınların mülkiyyətçi kimi qəbul edilməməsi), hüquqi-administrativ (daşınmaz əmlakın sənədləşdirilməməsi, torpaqların təyinatının tətbiq olunmaması, özbaşına tikililər və s.) və iqtisadi (ailələrin qeydiyyat üçün xidmət haqqı və rüsumları ödəyə bilməməsi) faktorların dayandığı müəyyən edilib. Bunların nəticəsi kimi ilk növbədə ailədə daha zəif mövqeyə malik olan qadınların əmlak hüquqlarının tanınması, əmlakdan istifadə və onun üzərində sərəncam vermək kimi fundamental insan hüquqlarının həyata keçirilməsi məhdudlaşdırılır. Tədqiqat zamanı bu boşluqların aradan qaldırılması üzrə dövlətin apardığı siyasət təqdir olunsa da, qadınların əmlak hüquqlarının tanınması və həyata keçirilməsi üçün əlavə hüquqi və siyasi mexanizmlərin formalaşdırılmasının zəruriliyi müəyyən edilib.

***Qadın və kişilərin mülkiyyəti barədə dəqiq, əhatəli və cinslər üzrə təsnif edilmiş məlumat bazası mövcüd deyil***

Tədqiqata əsasən nə Daşınmaz Əmlakın Dövlət Reyestr Xidməti, nə də Dövlət Statistika Komitəsi ölkədə əmlak sahibliyi və əmlak idarəçiliyi haqqında cinslər üzrə tam təsnif olunmuş məlumata malik deyil[26]. Qadın və kişilərin mülkiyyəti barədə dəqiq və etibarlı statistika qadınların

---

[25]Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2011-ci il martın 9-da Bakı şəhər İcra Hakimiyyətində keçirdiyi müşavirədə Bakı və Bakıətrafı ərazilərdə həmin tikililərin sənədləşdirilməsinə dair mexanizmin hazırlanması barədə müvafiq göstəriş vermişdir. Bunun əsasında Nazirlər Kabineti (NK) nəzdində xüsusi Komissiya yaradılmışdır.

[26]Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsinin 2017-ci ildə görülmüş işlərə dair hesabatında (http://www.emdk.gov.az/images/HESABA1.PDF) qeyd olunur ki, Komitə və onun Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti öz fəaliyyətində institusional yeniliklərin, innovativ xidmətlərin tətbiqinə xüsusi önəm vermişdir. Əmlak idarəçiliyi

mülkiyyət hüquqlarının həyata keçirilməsi üçün  əsas şərtlərdəndir. Ölkədə əmlak sahibliyi və əmlak idarəçiliyini cinslər üzrə təsnif edən məlumatların olması bu sahədə düzgün siyasət və tənzimləmə mexanizmlərinin müəyyən edilməsi üçün ciddi  əhəmiyyət daşıyır. Bu sahədə məlumatların az olması və cinslər üzrə təsnif olunmaması qadın və kişilərin daşınmaz əmlaka (xüsusilə də torpağa), digər təbii sərvətlər də daxil olmaqla iqtisadi resurslara çıxış və nəzarətinin qiymətləndirməsinə, uyğun cavab tədbirlərinin seçilməsinə imkan vermir. Bu da öz növbəsində iqtisadi imkanlar baxımından qadın və kişilər arasında gender bərabərsizliyinin dərinləşməsinə səbəb olur. Belə qeyri-tarazlıq ailədə və cəmiyyətdə qadınların dəyərinin və statusunun aşağı olması, oğlan uşaqlarına verilən üstünlüyün və gender əsaslı cins seçiminin yüksək olması ilə birbaşa əlaqəlidir. Dövlət Reyestr Xidmətinin nəzdində ölkə səviyyəsində əmlak sahibliyi və əmlak idarəçiliyi barədə dəqiq, əhatəli və cinslər üzrə təsnifatlaşdırılmış məlumat bazası yaradılmasının bu sahədə düzgün siyasət və tənzimləmə mexanizmlərinin müəyyən edilməsi üçün böyük əhəmiyyəti olardı.

## TÖVSİYƏLƏR:

1) Boşanma zamanı himayəsində yetkinlik yaşına çatmayan uşaqları olan şəxslərin mənafeyinin və sosial ədalət prinsipinin təmin edilməsi üçün məhkəmə təcrübəsinin təhlilinin aparılması və Ali Məhkəmə Plenumunun qərarı ilə məsələnin həlli üçün məhkəmələr tərəfindən ən yaxşı təcrübənin tövsiyə edilməsi faydalı olar;
2) Birgə nikah dövründə əldə edilmiş avtonəqliyyat vasitələrinin alqı-satqısı zamanı ərin/arvadın rəsmi razılığının tələb edilməsi üzrə müvafiq qanun və qaydalara əlavə/dəyişiklik edilsin;
3) Şəxsi pay torpaqlarına dair dövlət aktı olan şəxslərin mülkiyyət hüquqlarının  dövlət qeydiyyatını sürətləndirmək məqsədilə qeydiyyat xərcləri (rüsum və xidmət haqqı) dövlət büdcəsi hesabına təmin edilsin (və ya onun bir hissəsi);
4) Qeydiyyatı üçün hüquqi əsasları olan sənədsiz daşınmaz əmlakın (mənzil, həyət evi, qeyri-yaşayış sahəsi, həyətyanı və pay torpaq sahələri, bağlar və s.) dövlət qeydiyyatını sürətləndirmək məqsədilə 2 illik dövlət proqramı hazırlansın və xərclər (rüsum və xidmət haqqı) dövlət büdcəsi hesabına qarşılansın (və ya onun bir hissəsi);
5) Özbaşına tikililərə mülkiyyət hüququnun formalaşması və əmlak sahiblərinin hüquqi müdafiəsi üçün gender həssaslı müvafiq qanun layihəsi qəbul edilsin və onun icra mexanizmi yaradılsın;
6) Tikilən yeni çoxmənzilli binalardakı mənzil paylarının Dövlət Reyestr Xidmətində məcburi qeydiyyat məsələsi bütün növ hüquqi şəxslərin (MTK-lar, MMC-lər) üzərinə məcburi vəzifə kimi qoyulsun və bu vəzifə yerinə yetirilmədiyi təqdirdə cəza tədbirləri üçün müvafiq mülki və inzibati qanunvericiliyə əlavə/dəyişikliklər edilsin;

---

sahəsində göstərilən xidmətlərin daha müasir və effektiv üsullarla elektron müstəviyə keçidinin təmin olunması, modern və çevik idarəetmənin təşkili, müasir yanaşmaların tətbiqi, şəffaflığın artırılması, vətəndaş məmnunluğunun təmin edilməsi istiqamətində işlər davam etdirilmişdir. Həmçinin ölkə əhəmiyyətli 2 yenilik tətbiq edilmişdir ki, bunlardan biri “Elektron hərrac”, digəri isə “Elektron çıxarış” xidmətlərinin istifadəyə verilməsidir. 2017-ci il ərzində elektron və onlayn xidmətlər vasitəsilə 180 mindən çox müraciət daxil olmuş və onlar cavablandırılmışdır. Bundan əlavə, 2007-ci ildən başlayaraq aparılan islahatlar nəticəsində xüsusi mülkiyyətin dövlət qeydiyyatı prosedurları sadələşdirilmişdir (qeydiyyat müddəti 60 gündən 3-10 gün aralığına kimi azaldılmışdır). Hesabatda eyni zamanda qeyd edilir ki, 2017-ci il ərzində ölkə üzrə 200 minə yaxın daşınmaz əmlak obyekti üzərində mülkiyyət hüquqları qeydiyyata alınmışdır. Bu da 2016-ci ilin eyni dövrü ilə müqayisədə 14,5% çox olmuşdur. Aparılan ilkin qeydiyyat isə 2016-ci ilin eyni dövrü ilə müqayisədə 15,7% artmışdır.

7) 3, 4 və 5-ci tövsiyələrdə nəzərdə tutulan tədbirlərin icrasında qadınların mülkiyyət hüququ, o cümlədən birgə mülkiyyət hüquqlarının təmin olunmasında gender cəhətdən həssas yanaşma tətbiq edilsin, bütün lazımi tədbirlər əvvəlcədən planlaşdırılıb həyata keçirilsin;
8) Əmlakın dövlət qeydiyyatı üçün sənədlərin təqdim edilməsinin 6 aydan çox yubadılmasına görə inzibati cərimələrin tətbiqi üzrə qanunvericiliyə əlavələr edilsin, əhalinin kütləvi məlumatlandırılması aparılsın;
9) Dövlət Reyestr Xidmətinin nəzdində qadın və kişilərin mülkiyyəti barədə dəqiq, əhatəli və cinslər üzrə təsnifatlanmış məlumat bazası yaradılsın;
10) Dövlət Reyestr Xidməti və onun ərazi idarələrində vətəndaşlarla birbaşa ünsiyyətdə olan əməkdaşlara gender cəhətdən həssas xidmətlərin göstərilməsi ilə bağlı təlimlər keçirilsin;
11) Qadınların əmlak hüquqlarının həyata keçirilməsi və bu hüquqların həyata keçirilməsinə mane olan halların aradan qaldırılması üzrə əhali arasında geniş ictimai maarifləndirmə kampaniyaları aparılsın.

## 1.2. Qadınların yaşayış yeri üzrə qeydiyyatı

Mülki Məcəlləyə görə fiziki şəxsin adətən yaşadığı yer onun yaşayış yeri sayılır. On dörd yaşına çatmamış şəxslərin yaşayış yeri valideynlərinin yaşayış yeri sayılır. Əgər şəxs hər hansı səbəbdən öz yaşayış yerini müəyyən müddətə tərk edirsə, o, yaşayış yerini itirmir[27]. Bundan başqa, "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Qanun[28] ***şəxsin yaşayış yeri*** anlayışına daha çox aydınlıq gətirərək şəxsin mülkiyyətçi kimi icarə və kirayə müqaviləsi üzrə yaxud qanunvericiliklə nəzərdə tutulmuş digər əsaslarla daimi və ya daha çox yaşadığı ev, mənzil, xidməti yaşayış sahəsi, yataqxana, qoca və əlil evləri, sağlamlıq imkanları məhdud uşaqlar üçün internat evləri, xüsusi təhsil müəssisələri və bu kimi digər yaşayış yerlərinin başa düşüldüyünü təsbit edib.

Qanun Azərbaycan Respublikası vətəndaşları barəsində yaşayış yerini müəyyən edən sənədin yalnız Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi olduğunu göstərərək, ilk dəfə vətəndaşa şəxsiyyət vəsiqəsi verilərkən onun yaşayış yeri üzrə qeydiyyata alındığını nəzərdə tutur. Bununla da həm ilk dəfə şəxsiyyət vəsiqəsi alan şəxslər üçün, həm də yaşayış yerini dəyişdirmiş vətəndaşlar üçün yaşayış sahəsinə köçməyə əsas verən sənəd (mülkiyyət hüququnun dövlət qeydiyyatına alınması haqqında daşınmaz əmlakın dövlət reyestrindən çıxarış, order, kirayə müqaviləsi yaxud qanunvericilikdə nəzərdə tutulmuş başqa sənəd) və ya vətəndaşa yaşayış sahəsi verən şəxsin notarial qaydada təsdiq edilmiş ərizəsi tələb olunur.

Hazırda şəxsi əmlakın dövlət qeydiyyatı vəziyyətinə dair yuxarıda sadalanan problemlər ucbatından (sənədsiz evlər, özbaşına tikililər) vətəndaşların yaşayış yeri üzrə qeydiyyatı ilə bağlı da maneələr mövcuddur. Bu isə özü-özlüyündə vətəndaşların bir sıra problemlərlə üzləşməsinə, bəzən hüquq pozuntusu hallarına da gətirib çıxarır. Buna misal kimi pulsuz tibbi xidmətdən istifadə zamanı yaranan çətinliyi göstərmək olar. Deyək ki, vətəndaş rayonda daimi qeydiyyatdadır. Ancaq o, Bakı və ya Bakı ətrafındakı sənədsiz evlərin birində yaşayır. Bu halda əgər vətəndaş ödəniş etmədən tibbi müayinədən keçmək istəsə, faktiki yaşadığı deyil, daimi qeydiyyatda olduğu yer üzrə poliklinikada belə xidmətdən yararlana bilər. Yaxud da əgər vətəndaş hansısa xəstəliyə görə təcili cərrahi əməliyyat keçirməlidirsə, yalnız qeydiyyatda olduğu yer üzrə xəstəxanada buna pulsuz nail ola bilər.

[27]Azərbaycan Respublikasının Mülki Məcəlləsi. http://www.e-qanun.az/code/8
[28]"Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Qanun. № 55-IQ.1996. http://www.e-qanun.az/framework/3988#

Əks halda (başqa ərazidə yerləşən xəstəxanada əməliyyat olunacağı təqdirdə) o, mütləq qeydiyyatda olduğu rayonun xəstəxanasından göndəriş almalıdır.

Hüquqşünas ekspertlərin fikirlərinə görə, vətəndaşlar, xüsusilə də himayəsində azyaşlı uşaqları olan qadınlar yaşayış yerindən istifadə və orada daimi qeydiyyat ilə bağlı çoxsaylı problemlərlə qarşılaşırlar. Bu problemlər əsasən dövlət qeydiyyatına alınmamış əmlaklarla (ev, mənzil) bağlıdır. Belə ki, 90-cı ilin sonundan başlayaraq xeyli insan rayonlardan paytaxta axın edib (bu axının böyük bir hissəsini Qarabağ müharibəsi və torpaqların işğalı nəticəsində yaranan qaçqın və məcburi köçkünlər təşkil edir). Hazırda bu insanların çoxu Bakıda əmlak sahibidir, evləri var. Lakin onların əksəriyyəti həmin evlərə dövlət əmlakının qeydiyyat şəhadətnaməsini almayıb. Hüquqi sənədləri olmadığı üçün də illərdir yaşadıqları evə daimi qeydiyyata düşə bilməyiblər. Bundan əlavə, ailələrdə yaranan problemlər ucbatından boşanma zamanı həmin əmlak üzərində qadının mülkiyyət və istifadə hüququnun tanınması, eləcə də əmlakın bölgüsü və ya alqı-satqısı kimi təməl hüquqlarının reallaşdırılması mümkün olmur. Bununla bağlı məhkəmələrə müraciət edildikdə də qadınların, xüsusilə də himayəsində azyaşlı uşaqları olan qadınların əmlak və həmin əmlakdan istifadə (orada yaşamaları və daimi qeydiyyata düşmələri) hüquqlarının təminatı mümkün olmur. Beləliklə də, qadın daha həssas vəziyyətə düşür, getməyə yeri olmadığı üçün zorakılıq mühitində qalmağa məcbur olur.

AR Daxili İşlər Nazirliyinin Baş Pasport, Qeydiyyat və Miqrasiya İdarəsindən verilən məlumata görə, qanunvericiliyin tələblərinin pozulması ilə inşa edilmiş ev və mənzillərə yaşayış yeri üzrə qeydiyyat aparılmır. Məlumatda o da bildirilir ki, sənədsiz evlərə qeydiyyata düşmək üçün bu quruma çoxsaylı vətəndaş müraciətləri olur. Lakin qanunvericiliyin tələblərinə uyğun daşınmaz əmlakın dövlət reyestrindən çıxarış sənədi olmadığı üçün qeydiyyat işi aparıla bilmir. Belə vətəndaşlar ən yaxşı halda polisin rəyi əsasında polisin inzibati binasına müvəqqəti qeydiyyata götürülürlər.

Qadınların yaşayış yeri üzrə qeydiyyatı və yaşayış yerindən istifadə məsələsində qarşılaşa biləcəkləri digər çətinliklər sosial kirayə müqaviləsi əsasında verilən yaşayış sahələri ilə bağlıdır. Mənzil Məcəlləsi həm sosial kirayə müqaviləsi əsasında verilən yaşayış sahələri (ehtiyacı olan aztəminatlı vətəndaşlara dövlət və ya bələdiyyə mənzil fondu hesabına verilən yaşayış sahələri), həm də xüsusi təyinatlı mənzil fondunun yaşayış sahələri (yataqxanalar, manevr fondu yaşayış sahələri, sosial xidmət sisteminə daxil olan binalar, qaçqın və məcburi köçkünlərin müvəqqəti yerləşdirildikləri bina/evlər, habelə ayrı-ayrı kateqoriyalardan olan vətəndaşların sosial müdafiəsi üçün yaşayış sahələri) üzrə yaşayış və istifadə münasibətlərini tənzimləyir. Məcəllənin belə münasibətləri tənzimləyən normalarından görünür ki, sosial mənzillərin kirayəçiləri öz ailə üzvlərini (arvadını/ərini, uşaqlarını və valideynlərini) yaşadığı mənzilə/evə kirayə müqaviləsi əsasında köçürmək hüququna malikdirlər. Belə hüquqlar yalnız sosial mənzilin kirayəçisinə məxsusdur. Ailə başçısı kimi əksər hallarda kişinin göstərilməsi və mövcud təcrübəni nəzərə alsaq, demək olar ki, Məcəllədə bu cür normaların olması qadınların sosial mənzillərdən istifadə hüququnu məhdudlaşdırır və belə hüquqların həyata keçirilməsində onları kişilərdən asılı vəziyyətə salır.

## TÖVSİYƏLƏR:

12) Sənədsiz daşınmaz əmlakların qeydiyyatını sürətləndirmək və vətəndaşların daimi yaşayış yeri üzrə qeydiyyatı məsələlərinin qısa zamanda həlli məqsədilə hökumət tərəfindən bütün lazımi tədbirlərin icrası təmin edilsin;

13) Sosial kirayə müqaviləsi əsasında verilən yaşayış sahələrindən, eləcə də xüsusi təyinatlı mənzil fondunun yaşayış sahələrindən istifadə hüququnun kirayəçinin ərinə/arvadına məxsusluğu aydın şəkildə Mənzil Məcəlləsinin müvafiq maddələrində qeyd edilsin.

## 1.3. Soyadın və uşağın valideynlərinin kimliyinin müəyyən edilməsində gender məsələləri

Önəmli məsələlərdən biri də soyadların gender cəhətdən neytral olmaması, uşağın valideynə münasibətdə yalnız ata adının qeyd edilməsi kimi gender bərabərsizliyini təbliğ edən hallardır. Əksər inkişaf etmiş ölkələrdə bu məsələ gender cəhətdən həssaslıq nəzərə alınaraq həll edilib. Hazırda Azərbaycanda Sovet dövründən – 1937-ci ildən başlayaraq ruslaşdırılmış soyadların kütləvi şəkildə istifadəsi davam etdirilir. Bununla da soyadın sonu kişilərə münasibətdə "-ov", "-yev", qadınlara münasibətdə "-ova", "-yeva" kimi göstərilməkdədir.

1990-cı illərdən başlayaraq Azərbaycanda soyadların milliləşdirilməsi istiqamətində xeyli cəhdlər edilib. Bu məqsədlə 1993-cü ildə Milli Məclis müvafiq qərar da qəbul edib[29]. Həmin qərara əsasən, Azərbaycan Respublikasının vətəndaşları "-ov", "-yev" sonluqlu soyadlarını "-lı" (sözün kökündən asılı olaraq "-li", "-lu", "-lü"), "-zadə", "-oğlu", "-qızı" sonluqlu və ya sonluqsuz ifadə formaları ilə əvəz edə bilərlər. Üstəlik belə dəyişikliklə bağlı yeni hüquqi sənədlərin verilməsi üçün rüsum nəzərdə tutulmur.

Ötən onilliyin əvvəlində Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) nəzdində bu məsələ ilə bağlı xüsusi Komissiya yaradılıb, araşdırmalar aparılıb və Konsepsiya hazırlanıb[30]. Bu Konsepsiyaya əsasən, milli soyad sonluqları "-lı", "-li", "-lu", "-lü", "-zadə", "-oğlu", "-qızı", "-bəyli", "-xanlı", "-soylu" sonluqlu və ya sonluqsuz ifadə formaları ilə əvəz edilə bilər. Milli soyad Konsepsiyası Azərbaycan vətəndaşları olan digər millətlərin nümayəndələri (ruslar, ukraynalılar, gürcülər və başqaları) üçün nəzərdə tutulmur, onlar öz soyad sonluqlarını saxlaya bilərlər.

Ailə Məcəlləsinin 53-cü maddəsi uşağın ad, ata adı və soyad daşımaq hüququnu müəyyən edir. Qanunun bu maddəsində deyilir:

*"Uşaq ad, ata adı və soyad daşımaq hüququna malikdir. Uşağa ad valideynlərin razılığı ilə verilir, ata adı atasının adına görə verilir. Uşağın soyadı, bir qayda olaraq, valideynlərin soyadı ilə müəyyən edilir. Uşağın valideynlərinin soyadları müxtəlif olduqda uşağa valideynlərin razılığı ilə atanın və ya ananın soyadı verilir".*

Məcəllənin belə tələbini "Adın, ata adının və soyadın verilməsi və dəyişdirilməsi Qaydaları"[31], eləcə də "Vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı Qaydası"nda[32] görmək olar. "Vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı Qaydası"nın 2-ci bölməsinə əsasən qeydiyyat orqanları doğum haqqında şəhadətnamədə uşağın adı, atasının adı və soyadı, habelə onun valideynləri haqqında

---

[29]"Azərbaycan Respublikası vətəndaşlarının soyadlarının dövlət dilinə uyğunlaşdırılması haqqında" Azərbaycan Respublikası Milli Məclisinin 2 fevral 1993-cü il, 495 saylı Qərarı. http://www.e-qanun.az/framework/8078
[30]https://az.trend.az/azerbaijan/politics/1614586.html
[31]Azərbaycan Respublikası Nazirlər Kabinetinin 12 may 2011-ci il tarixli, 79 saylı Qərarı ilə təsdiq edilmişdir. http://www.e-qanun.az/framework/21676
[32]Azərbaycan Respublikası Nazirlər Kabinetinin 31 oktyabr 2003-cü il tarixli, 145 saylı Qərarı ilə təsdiq edilmişdir. http://www.e-qanun.az/alpidata/framework/data/2/f_2426.htm

məlumatı yazırlar. Uşağın adı valideynlərin razılığı ilə, soyadı valideynlərin soyadı ilə müəyyən edilir. Valideynlərin arzusu ilə "-ov", "-yev" sonluqlu soyadlar sözün kökündən asılı olaraq "-lı", "-li", "-lu", "-lü", "-zadə", "-oğlu", "-qızı" sonluqlu və ya sonluqsuz ifadə formaları ilə əvəz edilə bilər. Ata adı isə atasının adına görə verilir. Göründüyü kimi, həm Ailə Məcəlləsi, həm də sözügedən qaydalar uşağa soyadın verilməsində hər iki valideynin eyni hüquqlu olmasını qeyd etsə də açıq şəkildə görünür ki, uşaq kişinin soyadını davam etdirir. Baxmayaraq ki, həm qadınların, həm də kişilərin soyadları özü-özlüyündə kişi nəsli ilə xarakterizə olunur.

İstər müstəqillik, istərsə də ondan əvvəlki dövrlərdə rəsmi qərarlar, aktlarla qanuniləşdirilmiş bu yanaşma təctrübədə də uzun illərdir ki, davam etdirilir. Sənədlərdə uşağın adı və soyadı ilə yanaşı yalnız ata adı qeyd edilir. Yəni, doğum haqqında şəhadətnamənin uşağa aid hissəsində onun adı və soyadı ilə yanaşı valideynlərdən yalnız atanın adı qeyd olunur. Şəhadətnamənin digər hissəsində isə hər iki valideynin tam adı və soyadı yazılır. Belə təcrübənin mövcudluğu və davam etdirilməsi gender cəhətdən neytrallıq prinsipini pozmaqla yanaşı, uşağın hər iki valideynə münasibətdə, o cümlədən anaya münasibətdə kimliyinin qeyd edilməməsinə gətirib çıxarır. Digər tərəfdən uşağa münasibətdə ananın ata ilə bərabərhüquqlu olması prinsipləri ilə ziddiyyət təşkil edir. Belə yanaşma eynilə Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsində və ümumvətəndaş pasportunda göstərilən məlumatlarda da oxşardır. Belə ki, "Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında" Qanunun[33] 3-cü maddəsində deyilir:

> *"Şəxsiyyət vəsiqəsinin üzərində vətəndaşın soyadı, adı, atasının adı, vətəndaşın cinsi, doğulduğu tarix, doğulduğu yer, qan qrupu, fərdi identifikasiya nömrəsi, vəsiqənin nömrəsi və etibarlılıq müddəti göstərilir, həmçinin şəxsiyyət vəsiqəsi sahibinin şəxsi imzası və Beynəlxalq Mülki Aviasiya Təşkilatının (ICAO-nun) tələblərinə uyğun fotoşəkli yerləşdirilir".*

Pasport haqqında Qanunun[34] 7-ci maddəsinə əsasən, tiplərindən asılı olmayaraq hər bir pasportda Azərbaycan Respublikasının adı, dövlət gerbi, ölkənin kodu, pasportun tipi, seriyası və nömrəsi, sahibinin soyadı, adı, atasının adı, vətəndaşlığı, doğulduğu yer və tarix, cinsi, fərdi identifikasiya nömrəsi, boyu, gözlərinin rəngi, qan qrupu, yaşayış yeri, pasportu verən orqanın adı, verilmə tarixi, etibarlılıq müddəti, pasport sahibinin şəxsi imzası, onunla birgə gedən 18 yaşına çatmamış uşaqların soyadı, adı, cinsi və doğulduğu tarix pasporta aid olan tələblər kimi göstərilir.

Doğum haqqında şəhadətnamədə olduğu kimi, vətəndaşın şəxsiyyət vəsiqəsi və ümumvətəndaş pasportunda göstərilən məlumatlarda da yalnız ata adının qeyd olunması gender cəhətdən neytrallıq prinsipləri ilə ziddiyyət təşkil edən siyasət kimi qiymətləndirilə bilər.

**TÖVSİYƏLƏR:**

14) Doğum haqqında şəhadətnamədə, vətəndaşın şəxsiyyət vəsiqəsində və ümumvətəndaş pasportunda göstərilən məlumatlarda ad və soyadla yanaşı yalnız ata adının qeyd edilməsi təcrübəsinin aradan qaldırılması üçün müvafiq qanunvericilik aktlarına əlavə/dəyişikliklər edilsin.

[33] Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında Azərbaycan Respublikasının Qanunu. 1994. № 817. http://www.e-qanun.az/framework/9009

[34] Pasportlar haqqında Azərbaycan Respublikasının Qanunu. 1994. № 813. http://www.e-qanun.az/framework/9008

## 1.4. Qadınların vərəsəlik hüquqları

Azərbaycandakı mühafizəkar inanc və deyimə görə, “ata yurdu evin kiçik oğlunundur”. Buna cəmiyyətdə o qədər inam var ki, hətta bu ifadə təhsilli insanların da şüuruna hakim kəsilib və belə inanclar qanunun tələblərini üstələyib.

Gender əsaslı cins seçimi üzrə abortların daha yüksək olduğu Saatlı və Abşeron rayonlarında[35] qadın və kişi qrupları arasında vərəsəlik mövzusunda fokus qrup müzakirələri aparılıb. Saatlı rayonunda qadın və kişi qrupları iştirakçılarından qadınların vərəsə olması məsələsinə necə baxdıqları soruşulub. İştirakçı qadınların cavabları oxşar olub. Onlar bildiriblər ki:

> *“[...] ümümiyyətlə, ata-ananın mülkü oğlan övladlara qalır. Camaatda belə bir düşüncə var ki, qız övlada cehiz verilir, oğlana isə ailə mülkləri”.*

İştirakçıların əksəriyyəti qanuna görə qadınların kişilərlə bərabər hüquq və vəzifələrə malik olduqlarını bilsələr də, hesab edirlər ki:

> *“[...]təcrübədə elə deyil. [...] Nadir hallarda qıza ata əmlakından pay verilir”.*

Fokus qrupunda iştirak edən kişilərsə qadınların vərəsəlik hüququna daha mühafizəkar yanaşaraq bildiriblər ki:

> *“[...] əgər mənim oğlum varsa, niyə əmlakımı qızıma – yəni yad oğluna (kürəkənə) verməliyəm? Ümumiyyətlə, bu məsələlərdə şəhərlə kəndi bir tutmayın. Burada əmlak oğula verilir və ona bacısından muğayat olmaq tapşırılır”.*

Müzakirələrdən görünür ki, qadınlar qanunla qızların oğlanlarla bərabər vərəsəlik hüquqlarına malik olması barədə daha çox məlumatlıdırlar (baxmayaraq ki, təcrübədə belə hüququn həyata keçirilməsinə rast gəlinmir). Bu barədə daha az məlumatlı olan kişilər isə üstəlik gender stereotiplərinə əsaslanan mühafizəkar mövqedədirlər.

Fokus qrupların həm qadın, həm də kişi iştirakçıları kənd yerlərində vərəsəlik məsələlərinin necə həll edilməsi sualına cavabda bildiriblər ki:

> *“[...] hec bir rəsmiləşmə olmur. Əgər ata vəfat edirsə, mülk bu vaxtadək onun yanında yaşayan oğula qalır”.*

Bu faktlar da qadınların əmlak hüquqları bölməsində qeyd edilən problemlərlə (sənədsiz evlər, torpaqlar, özbaşına tikililər və s.) birbaşa bağlıdır. Fokus qrup müzakirələrində əmlak üzrə vərəsəlik şəhadətnaməsinin alınması, sonra miras əmlakın vərəsələr arasında pay bölgüsü və payların dövlət qeydiyyatına alınması ilə bağlı suala verilən cavab da maraqlıdır:

> *“[...] kənddə cəmi 2-3 ailənin evinin sənədi var. Onlar da həmin sənədi bank məsələləri ilə bağlı (bankdan pul kreditinin götürülməsi üçün) zərurət olduğu üçün alıblar. Ona görə də atadan sonra evin oğulun adına keçirilməsi üçün notariusa və ya əmlak idarəsinə gedilmir. İcra nümayəndəliyində təsərrüfat başlı kitabda atanın adı silinir, yerinə oğulun adı yazılır”.*

---

[35]Demoqrafiya və Sağlamlıq Sorğusu, 2011. Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzi (İSİM), 2013. Bakı, Azərbaycan. Səh. 96.

Bu faktlar bir daha təsdiq edir ki, yerli mədəniyyətlə bağlı faktorlarla yanaşı, əmlakın qeydiyyatındakı boşluqlar ucbatından da qadınların vərəsəlik hüququnun həyata keçirilməsində ciddi maneələr var. Belə şəraitdə torpaq da daxil olmaqla, əmlakın bütün formaları və ailə biznesi kişilərə faktiki əsaslarla ötürülür. Buna görə də Azərbaycanda bir sıra sosial-mədəni və iqtisadi faktorlar səbəbindən oğlanlar qızlarla müqayisədə daha vacib hesab edilir və bu faktorlar gender əsaslı cins seçiminin davam etməsinə gətirib çıxarır.

Azərbaycan qanunvericiliyində qız övladlarının vərəsəlik hüquqları ilə bağlı ayrı-seçkilik yoxdur və vərəsəlik hüququna Konstitusiya ilə dövlət təminatı verilir. Təəssüf ki, insanların, xüsusilə regionlarda yaşayan insanların qadın və qızları varis kimi qəbul etməməsi, bu sahədə məlumatsızlıq və ən önəmlisi, əksər daşınmaz əmlakların dövlət qeydiyyatına alınmaması qız övladları qanuni miras payından məhrum edir.

Mülki Məcəlləyə görə, ***miras əmlaka***[36] – miras qoyanın öldüyü məqamadək malik olduğu əmlak hüquqlarının (miras aktivi) və vəzifələrin (miras passivi) toplusu daxildir. Daşınmaz əmlaka münasibətdə miras əmlak dedikdə yalnız Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətində[37] qeydiyyata alınmış əmlak nəzərdə tutulur. Qanunvericiliyin miras əmlakla bağlı tələblərindən göründüyü kimi, ölən şəxsin dövlət qeydiyyatına alınmamış daşınmaz əmlakının (dövlət qeydiyyatına alınmamış MTK-dakı mənzil payı, sənədsiz həyət evi, qeyri-yaşayış sahəsi, torpaq sahəsi və s.) vərəsəlik yolu ilə vərəsələrə keçməsi məsələlərini tənzimləmir və bu tipli əmlak üzərində vərəsəlik məsələsi faktiki sahiblik əsasında həll edilir. Belə olan halların əksəriyyətində qız övladları miras əmlakdan pay ala bilmirlər.

Mülki Məcəlləyə görə, miras qoyanın vəfat etdiyi və ya ölmüş elan edilməsi barədə məhkəmə qərarının qüvvəyə mindiyi gün mirasın açıldığı gün hesab olunur. Vərəsə vərəsəliyə çağırıldığını bildiyi və ya bilməli olduğu gündən üç ay ərzində mirasın açıldığı yer üzrə notariat kontoruna mirası qəbul etdiyi barədə ərizə verməli və ya əmlaka faktiki sahiblik etməlidir ki, mirası qəbul etmiş sayılsın. Həmçinin mirası qəbul edən övlad bununla bağlı digər vərəsələrə, eyni zamanda onlar barəsində notariusa məlumat verməlidir. Lakin təcrübədə, bir qayda olaraq, digər vərəsələrə məlumat verilmir və miras tam şəkildə qəbul edilir. Bu halda digər vərəsələr, xüsusilə də qız övladları miras əmlakdan məhrum olunurlar. Bu səbəbdən də vərəsəlik hərəkətlərini aparan notaruisun digər vərəsələrə xəbər verilməsi, onların vərəsəlik hüquqlarının təmin olunması üzrə işlər görməsi çox vacibdir. Qanunvericilikdə vərəsəlik işini açan notariusun vəzifəsi yalnız[38]: a) miras əmlakın qorunması üçün tədbirlərin görülməsi; və b) vərəsəlik hüququ haqqında şəhadətnamələr verilməsi üzrə notariat hərəkətlərinin aparılması ilə məhdudlaşır. Miras əmlakın qorunması tədbirləri arasında mirasın açıldığı yerdə olmayan vərəsələrə xəbər verilməsi işi olsa da, praktikada notariuslar buna laqeyd yanaşırlar. Çünki qanunla[39] notariusların üzərinə vərəsələr barədə məlumat və sənədlərin toplanılması kimi bir vəzifə qoyulmayıb. "Notariat hərəkətlərinin aparılması qaydaları haqqında Təlimat"da[40] mirasın açıldığı yerdə olmayan vərəsələrin axtarılması üçün tədbirlər də aydın göstərilmir. Bu isə dolayı yolla miras əmlak haqqında məlumatı olmayan şəxslərin, xüsusilə də vərəsə kimi qəbul edilməyən qadınların miras əmlakdan məhrum olmasına gətirib çıxara bilir.

---

[36]Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 1151-ci maddəsi

[37]Daşınmaz əmlakın dövlət reyestrinin tərtib edilməsini və aparılmasını təmin edən icra hakimiyyəti orqanıdır. http://www.dedrx.gov.az/

[38]Azərbaycan Respublikasının Notariat haqqında Qanunu. № 762-IQ. 1999. http://www.e-qanun.az/framework/107

[39]Eyni mənbə.

[40]Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Azərbaycan Respublikasında notariat hərəkətlərinin aparılması qaydaları haqqında Təlimat"ın təsdiq edilməsi haqqında 11 sentyabr 2000-ci il tarixli, 167 saylı qərarı. http://www.e-qanun.az/framework/488

Yuxarıdakı qeydləri ümumiləşdirərək belə nəticəyə gəlmək olar ki, mədəni və gender normaları səbəbindən Azərbaycanda oğlanlar qızlarla müqayisədə daha vacib hesab edilir. Bu səbəbdən də ailə əmlakı oğlanlara ötürülür, qızlar isə varis kimi nəzərə alınmır. Bundan əlavə, icradakı boşluqlar ucbatından qız övladlarının vərəsəlik üzrə qanuni maraqları və mənafeyi arxa plana keçirilə, rahatca güzəştə gedilə bilir. Bunun kökündə duran mədəni və gender stereotipləri (oğlanlara qızlarla müqayisədə daha çox dəyər verilməsi, ailə və cəmiyyət tərəfindən qadınların mülkiyyətçi və vərəsə kimi qəbul edilməməsi, qanunvericiliyin tələbləri haqqında məlumat azlığı), eləcə də hüquqi-administrativ boşluqlarla (daşınmaz əmlakın sənədləşdirilməməsi, tənzimləyici qanunvericilik aktının olmaması) mübarizədə konkret və təxirə salınmadan tədbirlər görülməsi tövsiyə edilir. Bu tədbirlər qadınların Konstitusiya ilə qorunan əmlak və vərəsəlik hüquqlarının səmərəli təminatı, eləcə də Azərbaycanın tərəfdar çıxdığı insan hüquqları ilə bağlı beynəlxalq konvensiyalardan irəli gələn diskriminasiyanın yolverilməzliyi və hüquqların səmərəli həyata keçirilməsi üçün çox əhəmiyyətlidir.

## TÖVSİYƏLƏR:

15) Qız övladlarının oğlan övladları ilə bərabər vərəsəlik hüququnun olması və miras əmlakdan bərabər pay alması, əmlakın naturada bölünməsi mümkün olmadığı təqdirdə onun dəyərinin əvəzində təzminat tələb etmək hüququna dövlətin təminat verməsinə dair davamlı kütləvi maarifləndirmə işləri aparılsın;
16) Qeydiyyatsız daşınmaz əmlaka (MTK-lar tərəfindən yeni tikilən mənzil payı, sənədsiz həyət evi, qeyri-yaşayış sahəsi, torpaq sahəsi və s.) vərəsəlik məsələsinin həlli üzrə qanunvericiliyə tənzimləyici normalar əlavə edilsin;
17) Vərəsələr barədə məlumat və sənədlərin toplanılması vəzifəsi “Notariat haqqında” Qanunla notariusların üzərinə qoyulsun;
18) Mirasın açıldığı yerdə olmayan vərəsələrin axtarılması üçün notariusların görməli olduğu tədbirlər aydın şəkildə “Notariat hərəkətlərinin aparılması qaydaları haqqında Təlimat”da göstərilsin;
19) Notariuslar və notariat ofislərinin vətəndaşlarla birbaşa ünsiyyətdə olan əməkdaşları gender cəhətdən həssas xidmətlərin göstərilməsi ilə bağlı təlimlərə cəlb edilsin;
20) Qadınların vərəsəlik hüquqları və bu hüquqların həyata keçirilməsinə mane olan halların aradan qaldırılması üzrə ictimai maarifləndirmə kampaniyaları keçirilsin.

# BÖLMƏ 2.

# QADINLARIN MƏŞĞULLUQ VƏ ÖZÜNÜMƏŞĞULLUQDA İŞTİRAKI: ÇƏTİNLİKLƏR VƏ İMKANLAR

Peşə seçimində gender seqreqasiyası gender stereotipləri səbəbindən qadınların və ya kişilərin müəyyən iş sahələri üzrə həddən çox təmsil olunmaları ilə xarakterizə edilir. Bu da nəticə etibarilə qadın və ya kişiyə aid əmək bazarının formalaşmasına gətirib çıxarır. Empirik tədqiqat onu göstərir ki, Azərbaycanda qadınlar daha çox ictimai xidmət sahələrində, səhiyyə, təhsil, mədəniyyət və incəsənətdə (62-77 %) təmsil olunurlar. Bunun əksi olaraq kişilər daha çox idarəçilik və texniki sahələrdə təmsil olunurlar. Əvvəlki illərə dair məlumatların və tendensiyaların təhlili göstərir ki, Azərbaycanda peşə və məşğulluq kateqoriyası üzrə gender seqreqasiyası dəyişməz qalır və azalma baş vermir. Misal üçün, dövlət qulluğunun rəhbər vəzifələrində çalışan qadınların faiz bölgüsü 2013-cü ildə 9,6% idisə, 2017-ci ildə bu göstərici cüzi artaraq 9,8%-ə çatıb[41]. Qadın əməyinin tətbiqi qadağan edilmiş iş yerlərinin olması da karyera inkişafında horizontal və vertikal ayrı-seçkiliyə gətirib çıxaran amillərdəndir. Belə amillər sırasında qadınların az gəlirli sosial xidmət sahələrinə (əsasən pedaqoji, təbiət elmləri, eləcə də mədəniyyət və incəsənət) yönləndirilməsi, qadınlar arasında yüksək gəlirli peşə və ixtisasların təşviq edilməməsi kimi hallar da var.

Bu bölmədə əsasən əmək bazarında qadınların mövqeyi və əmək bazarına çıxış imkanları, o cümlədən qadınların məşğulluğunun artırılmasında dövlətin gender cəhətdən həssas siyasəti təhlil olunub. İlk olaraq diqqət qadınların əmək bazarında iştirakı, məşğulluq səviyyəsi, işsizlik, özünüməşğulluq, gəlir gətirən sahələr üzrə peşə təhsili və s. kimi mövzulara yönəlib. Bundan əlavə, məşğulluq və karyera inkişafında gender bərabərliyi, gender boşluqları və əmək bazarında ayrı-seçkilik kimi problemlər də daxil olmaqla, qadınların məşğulluq və özünüməşğulluqda iştirakında keyfiyyət məsələləri təhlil edilib.

## 2.1. Karyera inkişafında qeyri-bərabərlik (o cümlədən gender əsaslı ayrı-seçkilik və seksual qısnama)

***Məşğulluq və işsizlik üzrə vəziyyət və göstəricilər***

Rəsmi statistik məlumatlara əsasən (2018), ölkə üzrə iqtisadi fəal və məşğul əhalinin tərkibində kişilərin sayı qadınlara nisbətən çox olub. Məşğul əhalinin cins bölgüsündə qadınlar 48,2%, kişilər isə 51,8% təşkil edib. İşsiz əhalinin sayında qadınlar üstünlük təşkil edir. 2018-ci ildə bu göstərici qadınlar üçün 57,4%, kişilər üçün isə 42,6% olub. Ziddiyyət təşkil edən məqam odur ki, işsiz əhalinin sayında qadınlar çox olsa da, rəsmi işsizlik statusu verilmiş şəxslər arasında qadınlar kişilərə nisbətən təxminən 2 dəfə az işsizlik statusu əldə ediblər (37,2% qadınlar, 62,8% kişilər)[42].

[41]Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2018-ci il üzrə Hesabatı (Dövlət qulluğunun 4-7-ci təsnifatları üzrə rəhbər vəzifələrdə çalışanların cins üzrə bölgüsü). https://www.stat.gov.az/source/gender/
[42]Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2018-ci il üzrə Hesabatı (2018-ci ildə məşğulluq və işsizlik). https://www.stat.gov.az/source/gender/

Qadınların kişilərlə müqayisədə daha aşağı səviyyədə əmək bazarında iştirakı və işsiz əhali sayında çoxluq təşkil etməsi gender əsaslı stereotiplərdən irəli gələn ailədəki “qadın işi” ilə bərabər, peşə və məşğulluq sahələrinin horizontal seqreqasiyasının nəticələri ilə də sıx bağlıdır. Belə ki, 2018-ci ilin iqtisadi göstəricilərinə əsasən, Azərbaycanda sənaye məhsulunun 73%-i mədənçıxarma, 22,2%-i emal, 4,1%-i elektrik enerjisi, qaz-buxar istehsalı və təchizatı sektorunda istehsal olunub[43]. Bu sahələrdə çalışan işçilərin 86-89%-i kişilərdir[44] və onların orta aylıq əmək haqqı 599,4 manatla 3165,8 manat civarındadır[45]. Qadınlar isə əsasən üç fəaliyyət növündə[46] – səhiyyə və sosial xidmətlərin göstərilməsində (77,6%), təhsildə (73,1%), istirahət, əyləncə və incəsənət sahəsində (62,9%) çalışırlar. Onların orta aylıq əmək haqqı 222,6 manatdan 341,6 manata qədərdir[47]. Bu göstəricilərdə ciddi fərqin mövcudluğu peşə və əmək bazarındakı horizontal və vertikal seqreqasiyanın təzahürüdür. Bu, eyni zamanda dolayısı ilə gender əsaslı məvacib fərqidir. Belə hallar sonradan qadınların pensiya və digər sosial təminat imtiyazlarına mənfi təsir göstərir. Buna görə də Beynəlxalq Əmək Təşkilatı (BƏT) Azərbaycana 1992-ci ildə ratifikasiya etdiyi Məşğulluqda ayrı-seçkiliyə yol verilməsi ilə bağlı Konvensiyanın[48] kişilər və qadınlara qarşı rəftarın və imkanların bərabərliyinə dair 2-ci və 3-cü maddəsində mövcud olan böyük gender seqreqasiyasına qarşı effektiv tədbirlər görməsini tövsiyə edib.

Azərbaycanda qadınların aşağı ödənişli və qeyri-rəsmi işlərdə cəmlənməsi ilə nəticələnən əmək bazarının davam edən horizontal və vertikal seqreqasiyası, qadınlara münasibətdə ciddi maaş fərqi, uşaq müəssisələrinin sayının yetərincə olmaması və kişilərə nisbətdə qadınlar üçün aşağı pensiya dərəcələrinin mövcudluğu CEDAW Komitəsinin hesabatında da narahatlıq doğuran hal kimi qeyd olunub, belə bərabərsizliyin aradan qaldırılmasına yönəlmiş səylərin gücləndirilməsi məqsədilə real addımların atılması tövsiyə edilib[49].

Dövlətin gender cəhətdən həssas yanaşma prinsipinə dayanan peşə və məşğulluq siyasətini gücləndirməsi, habelə mövcud bərabərsizliyin aradan qaldırılması istiqamətində müvafiq addımlar atması bu sahədə gender seqreqasiyasının və bundan qaynaqlanan gender əsaslı məvacib fərqinin aradan qaldırılmasına kömək olar.

### ***Məşğulluq haqqında qanunvericilik və strategiyada gender bərabərliyinin təşviqi***

Məşğulluq haqqında Qanun[50] məşğulluq sahəsində dövlətin vəzifələrini (maddə 8) sadalayır. Lakin bu sənəd məşğulluq sahəsində gender bərabərliyinin təmini, iş yerlərində daha az təmsil olunan cinsin işə cəlbinin təşviqi ilə bağlı hec bir norma müəyyən etmir. Bu da o anlama gəlir ki, dövlət məşğulluq sahəsində gender bərabərliyinin təşviqini özünün vəzifə borcu kimi görmür, yalnız işəgötürənləri xüsusi müdafiəyə ehtiyacı olan şəxslərin işlə təmininə təşviq etməklə kifayətlənir.

---

[43]Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. 2018-ci ildə sənaye istehsalı haqqında. https://www.stat.gov.az/news/index.php?id=4089

[44]Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2018-ci il üzrə Hesabatı (2018-ci ildə iqtisadi fəaliyyət növləri üzrə muzdla işləyənlərin sayı ). https://www.stat.gov.az/source/gender/

[45]Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2018-ci il üzrə Hesabatı (2018-ci ildə iqtisadi fəaliyyət növləri üzrə muzdla işləyənlərin orta aylıq nominal əmək haqqı). https://www.stat.gov.az/source/gender/

[46]Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2018-ci il üzrə Hesabatı (2018-ci ildə iqtisadi fəaliyyət növləri üzrə muzdla işləyənlərin sayı). https://www.stat.gov.az/source/gender/

[47]Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2018-ci il üzrə Hesabatı (2018-ci ildə iqtisadi fəaliyyət növləri üzrə muzdla işləyənlərin orta aylıq nominal əmək haqqı). https://www.stat.gov.az/source/gender/

[48]Discrimination (Employment and Occupation) Convention

[49]CEDAW, Azərbaycan üçün Tövsiyələr, 2015-ci il. https://tbinternet.ohchr.org/_layouts/15/treatybodyexternal/Download.aspx?symbolno=CEDAW/C/AZE/CO/5&Lang=En

[50]Məşğulluq haqqında Azərbaycan Respublikasının Qanunu. 2018. № 1196-VQ. http://www.e-qanun.az/framework/39846

Əmək hüquqlarının həyata keçirilməsində dövlət təminatları ilə bağlı Qanunun 10-cu maddəsində peşəyönümünə və peşə hazırlığına göndərişlərin təmin edildiyi qeyd olunur. Peşəyönümlü kursların ənənəvi bazar tələbinə/marağına uyğun təşkil edildiyini və peşə sahələri üzrə ənənəvi gender rollarının günümüzdə də "qorunub" saxlanıldığını nəzərə alsaq, ənənəvi olmayan, müasir peşə sahələrində gender bərabərliyinin təşviqi, qadınların iştirakının təmin olunmasında gender cəhətdən həssas yanaşmalara dair müddəalar Qanunda mövcud deyil. Bundan başqa, Qanunda dövlət təminatında özünüməşğulluğa köməkliyin göstərilməsi və özünüməşğulluğun təşkili zamanı üstünlük verilən şəxslərin kateqoriyası sadalansa da, gender təmsilçiliyi üzrə vəzifələr müəyyən edilməyib.

Məşğulluğun təmin edilməsində yerli özünüidarəetmə orqanlarının, həmkarlar ittifaqlarının və işəgötürənlərin iştirakı ilə bağlı müvafiq maddələrdə də işə qəbul, işdə irəli çəkilmə, bacarıqların artırılmasında gender bərabərliyinin qorunması və təşviqinə dair heç bir hüquqi məsuliyyət müəyyən edilməyib. Sosial müəssisələrin və əlavə iş yerlərinin yaradılması və məqsədli proqramların həyata keçirilməsi ilə bağlı normalarda da bu proqramlarda gender bərabərliyinin təşviq edilməsi üzrə vəzifələr nəzərdə tutulmayıb.

Qanunda qeyd edilən sahələr üzrə gender cəhətdən həssas yanaşmanın ayrıca vurğulanmasının nə dərəcədə əhəmiyyətli olduğunu təsəvvür etmək üçün konkret bir fakta nəzər salmaq kifayətdir: 2016-cı ildən həyata keçirilən özünüməşğulluq proqramından indiyədək 1281 nəfər bəhrələnib. Ancaq həmin 1281 nəfərin çox az hissəsi – cəmi 309-u qadındır ki, bu fərq də özlüyündə mövcud vəziyyətin izahı üçün kifayət edir. Düzdür, nəzəri olaraq Qanunun müddəaları gender cəhətdən neytraldır, heç kimə fərq qoymur, hər kəsin bərabər faydalanacağı ehtimalını yaradır. Lakin yuxarıda qeyd edilən rəqəmlər də göstərir ki, cəmiyyətdə faktiki bərabərsizlik mövcud olduqda sözügedən proqramdan faydalanan qadınların sayı daha da az olur. Bu səbəbdən də Qanunda gender cəhətdən həssas yanaşmanın tətbiqinə zərurət var.

Fokus qrup görüşlərin nəticəsindən aydın olur ki, qadınlar arasında özünüməşğulluq və fərdi məşğulluq proqramlarından nəinki bəhrələnənlərin sayı, hətta bu barədə məlumatlılıq da azdır. ƏƏSMN-nin mövqeyi ondan ibarətdir ki, dövlətin özünüməşğulluq proqramı çərçivəsində verdiyi dəstəyə qadınların çıxışı Qadın Sahibkarlar Assosiasiyası vasitəsilə həyata keçirilsin. Bu yanaşmanı müsbət qiymətləndirmək olar. Lakin bütün ölkə üzrə bu işin həyata keçirilməsi üçün Assosiasiyanın institutlaşması, eləcə də imkanlarının artırılmasında dəstəyə ehtiyacı var. Bundan başqa, fokus qrup müzakirələrdə o da müəyyən edilib ki, ümumiyyətlə, işsizlik statusunun alınmasında, özünüməşğulluq proqramından faydalanmaqda hər iki cins üçün çətinliklər mövcuddur. Xüsusilə də gender bərabərsizliyi şəraitində qadınlar daha çox maneələrlə qarşılaşır. Qadınların müraciət etməkdə çətinliyi institusional səbəblərdən daha çox, sosial normalardan, kişilərin ailədə qərarverici şəxs olmasından qaynaqlanır.

*2019-2030-cu illər üçün Azərbaycan Respublikasının Məşğulluq Strategiyası*[51] əsasən məşğulluq yönümlü iqtisadi inkişaf siyasətinin həyata keçirilməsini, mikro, kiçik və orta sahibkarlığın dəstəklənməsi istiqamətində zəruri fəaliyyətlərin tətbiqini nəzərdə tutur. Məşğulluğun təmin olunması üçün sahibkarlığın dəstəklənməsi və əmək bazarının tənzimlənməsi sahəsində normativ hüquqi bazanın və institusional strukturun təkmilləşdirilməsi kimi aktiv məşğulluq tədbirlərinin səmərəliliyinin artırılmasında belə strategiyanın olması müsbət yanaşmadır. Lakin reallıqda qadınların sahibkarlıq fəaliyyətinə daha az cəlb olunmaları, imkan və resurslara əlçatanlıqdakı

[51] Azərbaycan Respublikası Prezidentinin 30 oktyabr 2018-ci il tarixli, 602 saylı Sərəncamı ilə təsdiq edilmişdir. http://e-qanun.az/framework/40416

çətinlikləri nəzərə alsaq, qeyd edilən strategiyanın yanaşması ümumi olmaqla bərabər, gender cəhətdən neytraldır. Belə ümumi yanaşma spesifik ehtiyacları nəzərə almır. Gender cəhətdən həssas yanaşma tələb edir ki, strategiyada gender bərabərliyinə əsaslanan sahibkarlığın dəstəklənməsi və ya qadınlar arasında məşğulluq tədbirlərinin artırılmasını vurğulayan normalar olsun. Bununla da mövcud bərabərsizliyin qəbul olunduğu və onun aradan qaldırılması üçün müvafiq addımların atılması öhdəliyi bəyan edilsin.

Bundan əlavə, işçi qüvvəsinin bacarıqlarının inkişaf etdirilməsi və əmək standartlarının təkmilləşdirilməsi üçün əmək bazarında rəqabət qabiliyyətli kadrların hazırlanması məqsədilə peşə təhsili (ilk peşə-ixtisas, orta ixtisas və ali) sisteminin təkmilləşdirilməsi zamanı gender stereotiplərinə əsaslanan peşə sahələrin deyil, ənənəvi sayılmayan peşə sahələrinin təşviqinə diqqətin yetirilməsi, o cümlədən iş yerində təlimlərin, ikili peşə təhsili sisteminin ("dual study") təşkili mexanizmlərinin hazırlanması və tətbiqi zamanı hər iki cinsin bərabər yararlanmasının təşviqini strategiyada vurğulamaq vacibdir.

Strategiyada həmçinin peşə və sahəvi assosiasiyaların yaradılmasının dəstəklənməsi və stimullaşdırılması qeyd olunub. Nəzərə almaq lazımdır ki, peşə və sahəvi assosiasiyaların həm üzvlük, həm də idarətmə məsələlərində daha çox kişilər iştirak edir. Bu faktı diqqətə alaraq qadınların sözügedən assosiasiyalara üzvlükdə aktiv iştirakının, idarə heyətlərində təmsilçiliyinin təşviq və təmin edilməsinin strategiyada öhdəlik kimi qeyd olunması məsələyə gender cəhətdən həssas yanaşıldığını göstərər.

***<u>Karyera inkişafında qeyri-bərabərlik (ayrı-seçkilik, cinsi qısnama və s)</u>***

Azərbaycan Respublikasının Əmək Məcəlləsi (ƏM)[52] işçilərin və işəgötürənlərin əmək münasibətlərində yaranan sosial və iqtisadi hüquqları, xüsusilə işəgötürənin əsas vəzifə və məsuliyyətlərini təsbit edir. Təqdirəlayiq haldır ki, Məcəllənin ayrı-ayrı maddələrində cinsi mənsubiyyətə görə ayrı-seçkilik və seksual qısnama qadağan edilir, belə halların qarşısının alınması üçün lazımi tədbirləri görmək vəzifəsi işəgötürənlərin üzərinə qoyulur. Məcəllənin 12-ci maddəsində deyilir:

*Əmək münasibətləri sahəsində işəgötürənin əsas vəzifələri aşağıdakılardır:*

- *işə qəbul, işdə irəli çəkilmək, peşə hazırlığını artırmaq, yeni ixtisasa yiyələnmək və ixtisasını artırmaq zamanı, işin keyfiyyətini qiymətləndirərkən, işdən azad edərkən cinsindən asılı olmayaraq, işçilərə eyni yanaşmaq və bərabər imkanlar yaratmaq;*
- *cinsindən asılı olmayaraq, eyni işlə məşğul olan işçilərə eyni iş şəraitini yaratmaq, eyni pozuntuya görə işçilərə fərqli intizam tənbehi tədbirini tətbiq etməmək, cinsi mənsubiyyətə görə ayrı-seçkiliyin və seksual qısnamanın qarşısını almaq üçün lazımi tədbirlər görmək.*

Məcəllənin belə tələbi eynilə gender haqqında qanunda da öz əksini tapıb. Lakin hər iki qanunun müvafiq maddələrində məhz bərabər imkanlara vertikal seqreqasiya və ya hansı vasitələrlə nail olunacağı müəyyən edilməyib. Hər iki sənəddə ayrı-seçkiliyə yol verilməsi və seksual qısnamanın qarşısının alınması öhdəliyinin pozulmasına görə işəgötürənlərin qanunvericiliklə müəyyən olunmuş qaydada müvafiq məsuliyyət daşıdıqları da qeyd edilib. Lakin İnzibati Xətalar Məcəlləsinin (İXM)[53] müvafiq bölməsində bununla bağlı inzibati məsuliyyət nəzərdə tutulmayıb.

[52]Azərbaycan Respublikası Əmək Məcəlləsi. 1999. N: 618-IQ. http://www.e-qanun.az/code/7
[53]Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi. 2015. N: 96-VQ. http://www.e-qanun.az/code/24

Bundan başqa, maddələrin heç birində bir sıra işlərdə və ya iş kateqoriyalarında qadın-kişi bölgüsünün bərabər olmadığı təqdirdə daha az təmsil olunan cinsin işə cəlb edilməsi üçün lazımi tədbirlərin görülməsi, bununla da tədricən gender disbalansının aradan qaldırılmasına nail olunması vəzifəsi işəgötürənin üzərinə qoyulmayıb. İşəgötürənin gender bərabərliyinin təşviqi və təmini üzrə gördüyü cari işlərin vəziyyəti və icrasının planlaşdırılan tədbirlərlə bağlı hesabatlılığı da qanunla və ya siyasi qərarla müəyyən edilməyib. İşəgötürənlərin gender bərabərliyi ilə bağlı qısa və uzunmüddətli planların hazırlanmasını da buraya aid etmək olar.

İşəgötürmədə ayrı-seçkiliyə yol verilməməsinə dair məsələlərdən biri də iş elanları ilə bağlıdır. Bu məsələdə qanunvericiliyin tələbi ilə real tətbiq arasında ziddiyyət var. Həm Əmək Məcəlləsi, həm də Gender haqqında Qanun yalnız bir cinsin nümayəndəsi üçün müsabiqənin elanına yol verilməsini qadağan edir. Lakin günümüzdə bu cür elanların verilməsinə tez-tez rast gəlinir. Araşdırma zamanı müəyyən olunub ki, belə ayrı-seçkiliyi özündə ehtiva edən iş elanlarının monitorinqi aparılmır, pozuntuya yol vermiş müəssisə və təşkilatlar, onların vəzifəli şəxsləri inzibati məsuliyyətə cəlb edilmir.

Ümumiyyətlə, belə pozuntuya görə İXM-də məsuliyyət nəzərdə tutulmayıb. Buna görə də Əmək Müfəttişliyinin iş yerlərində ayrı-seçkilik halları da daxil olmaqla, hər hansı bu cür pozuntuya yol vermiş müəssisələrə qarşı inzibati tədbirlər görmək səlahiyyəti yoxdur. Ümumilikdə isə Müfəttişliyin mövqeyi ondan ibarətdir ki, işəgötürmədə və ya ixtisasartırmada, eləcə də irəli çəkilmədə işəgötürənin cinsi ayrı-seçkiliyə yol verməsini sübut etmək qeyri-mümkündür.

Seksual qısnamanın qarşısının alınması və seksual qısnama törətmiş şəxslərin məsuliyyətə cəlb edilməsində də oxşar vəziyyətdir. Həm Əmək Məcəlləsi, həm də Gender haqqında Qanun seksual qısnamanı qadağan etsə də, İXM-də seksual qısnamaya yol vermiş şəxslərə qarşı məsuliyyət və cəza tədbirlərinə dair heç bir müddəa yoxdur. İXM-də yalnız seksual qısnamaya görə işəgötürəndən və ya rəhbərindən şikayət etmiş işçiyə təzyiq göstərilməsinə və ya işçinin təqib olunmasına görə məsuliyyət müəyyən edilib[54].

Bundan başqa, qanunvericilik seksual qısnama ilə bağlı şikayətçilər barədə konfidensiallığın qorunması və işin araşdırılması üzrə prosedurların yaradılması üçün lazımi tədbirlərin görülməsi vəzifəsini də işəgötürənlərin üzərinə qoymayıb. Əmək Müfəttişliyi isə bu məsələ ilə bağlı hesab edir ki, belə keyslər məhkəməyə qədər mübahisələrin həlli qaydasında (müəssisədaxili danışıqlar) və ya hüquq mühafizə orqanları tərəfindən araşdırılmalıdır. Lakin nəzərə almaq lazımdır ki, qısnamaya məruz qalan şəxslər çox vaxt hüquq mühafizə orqanlarına müraciət etmir. Ümumilikdə isə iş yerlərində şikayət mexanizminin olmaması və işəgötürənin lazımi tədbirləri görməməsi ucbatından belə hallar barədə heç yerə şikayət edilmir. Əmək Müfəttişliyinin bildirdiyinə görə, bu günə kimi seksual qısnama ilə bağlı 1-2 müraciət olub və həmin şikayətlər araşdırılması üçün prokurorluq orqanlarına göndərilib.

ƏM-də aşkar edilmiş boşluqlardan biri də işəgötürən tərəfindən işçiyə vurulan maddi və mənəvi ziyana görə məsuliyyətin müəyyən edilməsi halları ilə bağlıdır. Belə ki, ƏM işçinin hüquqlarını və qanuni mənafelərini pozmuş işəgötürənin məhkəmə tərəfindən müəyyən olunmuş qaydada maddi ziyana görə tam məbləğdə məsuliyyət daşıdığını qeyd edir. Məcəllədə işəgötürənin həmçinin əmək münasibətləri prosesində işçiyə vurduğu mənəvi ziyana görə də maddi məsuliyyət daşıdığı qeyd edilir. ƏM-in 290-cı maddəsinin qeyd hissəsində mənəvi ziyanın tərifi də verilir:

---

[54]İXM-nin 205-ci maddəsi: Seksual qısnamaya görə işəgötürəndən və ya rəhbərindən şikayət etmiş işçiyə təzyiq göstərilməsinə və ya işçinin təqib olunmasına görə vəzifəli şəxslər min beş yüz manatdan iki min beş yüz manatadək məbləğdə cərimə edilirlər.

*"[...] işəgötürən və ya onun tabeliyində olan vəzifəli şəxs tərəfindən hər hansı üsulla işçinin şərəf və ləyaqətinin ləkələnməsi, alçaldılması, ona böhtan atılması, şəxsiyyətinin təhqir edilməsi, kollektiv arasında gözdən salınması məqsədi ilə barəsində həqiqətə uyğun olmayan, yalan məlumatlar yayması, habelə mənəviyyatına, əxlaq normalarına, milli qürur hissinə, etiqadına zidd olan digər əməllər və hərəkətlər başa düşülməlidir".*

Ancaq buradan da göründüyü kimi, sənəddə "seksual qısnama" ayrıca və aydın qeyd olunmur.

Hazırda Azərbaycanda sahibkarlıq fəaliyyəti üzrə yoxlamalar 2021-ci ilədək dayandırılıb. Buna görə də Əmək Müfəttişliyi ərizə və şikayətləri (yalnız vətəndaş müraciətləri əsasında) müəssisəyə getmədən araşdırır. Ümumilikdə isə Müfəttişliyin fəaliyyətinin əsas hissəsini maarifləndirmə işləri təşkil edir. Bununla belə, ayrı-seçkiliklə bağlı mövzular maarifləndirmə tədbirlərində tam əhatə olunmur.

Ayrı-seçkilik hesab olunan digər yanaşma əmək müqaviləsi bağlanarkən və ya əmək münasibətləri prosesində işəgötürənlə qarşılıqlı razılaşma əsasında natamam iş vaxtı və ya iş həftəsinin müəyyən edilməsinə hüququ olan işçilərin dairəsi ilə bağlıdır. ƏM-in 94-cü maddəsinin üçüncü bəndində natamam iş vaxtı və ya iş həftəsini seçmək hüququ olan işçilərin dairəsini müəyyən edərkən kişilərlə qadınlar arasında cinsi ayrı-seçkiliyə yol verilib, habelə valideynlərdən yalnız qadınlar ayrıca qeyd edilməklə –*"[...] on dörd yaşına çatmamış yaxud sağlamlıq imkanları məhdud uşağı olan qadınlar [...]"* ailə münasibətlərində hüquq bərabərliyi prinsipi pozulub. Bu cür yanaşma ilk baxışdan müsbət görünsə də, yalnız qadınlara xitab edilmə ayrı-seçkilik olmaqla yanaşı, kişilərin uşaqlara, xüsusilə də sağlamlıq imkanları məhdud olan uşaqlara qayğı işində iştirak etməməsi kimi ənənəvi gender qərəzli düşüncələrdən qaynaqlanır. Oxşar yanaşmanı gecə işlərinə cəlb edilməsinə yol verilməyən işçilər kateqoriyasında  da görmək olar.

Ayrı-seçkiliyə dair ən mühüm məsələ qadın əməyinin tətbiqi qadağan olunan iş yerləri və işlərlə bağlıdır. Azərbaycanda qadın əməyini qadağan edən iş yerlərinin siyahısı[55] ƏM qüvvəyə mindiyi ildən mövcuddur. Bu siyahıya görə, istehsalatın aşağıdakı sahələri üzrə qadın əməyindən istifadə qadağandır: metal emalı, tikinti və təmir, tikinti materiallarının istehsalı, mədən işləri, neft və qaz hasilatı, elektrik stansiyalarının avadanlıqlarının istismarı və şəbəkə avadanlıqlarının təmiri, elektrotexnika,  gəmiqayırma və təmir, kimya istehsalatı, sintetik neft məhsullarının emalı, ağac tədarükü işləri, mebel istehsalı, dəmir-beton və konstruksiyalarının istehsalı, şüşə məmulatlarının istehsalı, toxuculuq və yüngül sənaye, yeyinti sənayesi, dəmiryol, dəniz və avtomobil nəqliyyatı, mülki aviasiyanın istismar, rabitə, poliqrafiya istehsalatı, kənd təsərrüfatı.

Beynəlxalq Əmək Təşkilatı 2002-ci ildən etibarən qadınların müəyyən məşğulluq/peşə sahələrində iştirakını qadağan edən belə siyasi qərardan narahatlığını dövlətə dəfələrlə bildirib. Bununla bağlı Təşkilat Azərbaycan dövlətini qadın əməyini qadağan edən həmin siyahını təxirə salınmadan ləğv etməyə, xüsusi müdafiə tədbirlərini yalnız analığı qorumaqla məhdudlaşdırmağa, eləcə də qadınları bacarıqları və istəkləri, ailədə və cəmiyyətdə qəbul olunan gender rolları ilə bağlı stereotipik düşüncələrdən qaynaqlanan siyasi qərarlardan uzaq olmağa çağırıb.

Ümumiyyətlə, əmək qanunvericiliyində qadınlar üçün nəzərdə tutulan müəyyən pozitiv tədbirlər gender bərabərsizliyini dərinləşdirməklə yanaşı, qadınların məşğulluq sahəsində imkanlarının məhdudlaşdırılmasına gətirib çıxarır. Gender haqqında Qanunun təhlili göstərir ki, əmək

[55]"Qadın əməyinin tətbiqi qadağan olunan, əmək şəraiti zərərli və ağır olan istehsalatların, peşələrin (vəzifələrin), habelə yeraltı işlərin Siyahısı" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 20 oktyabr 1999-cu il tarixli 170 saylı qərarı ilə təsdiq edilmişdir. http://www.e-qanun.az/framework/3085#

münasibətləri ilə bağlı olan bu kimi pozitiv addımlar və müdafiə xarakterli mexanizmlər beynəlxalq tələblərlə uzlaşmır. "Qadın sağlamlığının, o cümlədən reproduktiv sağlamlığın mühafizəsi ilə bağlı olan məhdudiyyətlər fərdi yanaşma üsulu və səriştəli tibbi rəy əsasında müəyyən edilə bilər. Belə olan halda sağlamlığa, o cümlədən reproduktiv sağlamlığa təhlükənin olmaması halında qadınların kişilərlə bərabər bütün iş yerlərinə və peşələrə bərabər çıxış imkanı təmin oluna bilər".[56]

Ümumiyyətlə, "məşğulluq sahəsində ayrı-seçkiliyi qadağan edən müddəaların praktikada tətbiqi zamanı gizli və dolayı ayrı-seçkilik hallarının qarşısını ala biləcək mexanizmlər yoxdur"[57]. Dolayı və gizli ayrı-seçkiliyin vurğulanmasının başlıca səbəbi odur ki, Azərbaycanda qadınların üzləşdiyi ayrı-seçkilik əsasən birbaşa deyil, dolayı və gizli ayrı-seçkilikdir. Bu isə sonra məşğulluqla bağlı məsələlərdə özünü daha aydın büruzə verir. Belə ki, ƏM-də qadınlara münasibətdə olan pozitiv addımlar, üstünlüklər (məsələn, uşağa qulluq və hamiləliklə bağlı işəgötürənin təmin etməli olduğu tədbirlər) və ya məhdudiyyətlər reallıqda onlara qarşı ayrı-seçkilik yaradır və məşğulluqlarının təmin edilməsinə təsir göstərir.

## TÖVSİYƏLƏR:

21) Karyera inkişafında (işə qəbul, işdə irəli çəkilmək, peşə hazırlığı, yeni ixtisasa yiyələnmək və ixtisasartırmada) ayrı-seçkiliyə yol verməyə görə işəgötürənlər üçün İXM-də hüquqi məsuliyyət nəzərdə tutulsun və monitorinq aparılsın;
22) Seksual qısnamanın qarşısının alınması və seksual qısnama törətmiş şəxslərin məsuliyyətə cəlb edilməsi ilə bağlı İXM-də hüquqi məsuliyyətlər nəzərdə tutulsun və monitorinq aparılsın;
23) Əmək münasibətləri prosesində işçiyə vurduğu mənəvi ziyana görə işəgötürənlərin maddi məsuliyyət hissəsində "seksual qısnama" əməllərinə görə tam məsuliyyət daşıması ƏM-in müvafiq maddəsinə əlavə edilsin;
24) Əmək münasibətləri prosesində işəgötürənlə qarşılıqlı razılaşma əsasında natamam iş vaxtı və ya iş həftəsinin müəyyən edilməsinə hüququ olan işçilərin dairəsində gender bərabərliyinin təmini üçün ƏM-nə dəyişiklik edilsin;
25) "Qadın əməyinin tətbiqi qadağan olunan, əmək şəraiti zərərli və ağır olan istehsalatların, peşələrin (vəzifələrin), habelə yeraltı işlərin Siyahısı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 20 oktyabr 1999-cu il tarixli 170 saylı qərarı ləğv edilsin;
26) Həm ƏM-də, həm də Gender haqqında Qanunda dolayı ayrı-seçkilik anlayışının izahı verilsin;
27) Əmək münasibətləri ilə bağlı məsələlərdə müxtəlif iş kateqoriyalarında daha az təmsil olunan cinsin işə cəlb edilməsi üçün tədbirlərin görülməsi vəzifəsi qanunla işəgötürənlərin üzərinə qoyulsun;
28) İş yerlərində gender bərabərliyinin təşviqi və təmini üzrə işəgötürənlərin gördüyü cari işlərin vəziyyəti və icrası planlaşdırılan tədbirlərlə bağlı hesabatlılıq mexanizmi yaradılsın;
29) Peşə hazırlığında ənənəvi olmayan sahələrdə gender bərabərliyinin təşviqində dövlətin siyasi iradəsi müvafiq hüquqi sənədlərdə aydın şəkildə əks etdirilsin;
30) Məşğulluqla bağlı proqramların hazırlanması və həyata keçirilməsi mərhələlərində gender bərabərliyinin nəzərə alınması və gender cəhətdən həssas yanaşmanın tətbiqi müvafiq icra hakimiyyəti orqanlarının hüquqi öhdəliyi kimi müəyyən edilsin;

[56] Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında Azərbaycan Respublikası Qanununun təhlili, 2014 USAID
[57] Eyni mənbə.

31) Özünüməşğulluq proqramlarının icrası üzrə gender bərabərliyi və gender cəhətdən həssas yanaşma prinsiplərinin qorunması vəzifəsi müvafiq hüquqi sənədlərdə qeyd olunsun və icrası təmin edilsin;
32) Məşğulluq Strategiyasında gender bərabərliyinə əsaslanan sahibkarlığın dəstəklənməsi və qadınlar arasında məşğulluğun artırılması məqsədilə ayrıca tədbirlər müəyyən edilsin;
33) Qadınların sahəvi assosiasiyalara üzvlüyü və idarəçiliyində aktiv iştirakının təşviq və təminatı Məşğulluq Strategiyasında öhdəlik olaraq qeyd edilsin;
34) Məşğulluq sahəsində dövlət nəzarətini həyata keçirən orqana qanun pozuntuları baş verdiyi hallarda müvafiq inzibati məcburetmə tədbirlərini görmək səlahiyyəti verilsin;
35) Məşğulluğa dair maarifləndirmə kampaniyalarında gender bərabərliyini təşviq edən və ayrı-seçkiliyin yolverilməzliyini vurğulayan mövzular da əhatə olunsun.

*Məşğulluqda bərabər imkanları təmin etməklə bağlı CEDAW Komitəsinin Azərbaycan hökumətinə tövsiyələri:*

36) Qadınların sosial, iqtisadi və siyasi həyatda fəal iştirakının üstünlüklərini (müsbət tərəflərini) göstərməklə gender üzrə stereotiplərin aradan qaldırılmasının əhəmiyyəti barədə radio, televiziya və çap mediası vasitəsilə əhalinin məlumatlılığı artırılsın;
37) Karyeranın inkişafı ilə əlaqədar müvafiq təlimat vasitələri hazırlansın, təhsildə və karyera seçimində qızların və gənc qadınların qeyri-ənənəvi sahələrə üstünlük vermələri təşviq edilsin;
38) Qadınların formal məşğulluqda iştirakını artırmaq və peşə bölgüsündə qadınlar və kişilər arasında, o cümlədən horizontal və vertikal (üfüqi və şaquli) struktur bərabərsizliyinin aradan qaldırılmasına yönəlmiş səylərini gücləndirmək üçün tədbirlər görülsün;
39) Genderdən asılı məvacib fərqini azaltmaq və aradan qaldırmaq məqsədilə eyni dəyərli işə görə bərabər əmək haqqı prinsipinin həyata keçirilməsi üçün tədbirlər görülsün, bütün sektorlarda kişi və qadınların əmək haqları müntəzəm olaraq nəzərdən keçirilsin.

## 2.2. Valideyn məzuniyyəti siyasəti

Əmək Məcəlləsindədə (ƏM) qadınlara, xüsusilə də uşaqlı qadınlara əlavə məzuniyyət hüququnun verilməsi müsbət addım kimi dəyərləndirilir. Sözugedən ƏM-in 117-ci maddəsi qadınlara, uşaqlarını təkbaşına böyüdən kişilərə və uşaq övladlığa götürmüş şəxslərə əlavə məzuniyyət hüququnu tanıyır. Burada əsas məsələ kişilər üçün əlavə məzuniyyətin onlara yalnız tək valideyn olduqlarında verilməsidir. Belə ki, bu maddənin birinci bəndi yalnız qadınlara (ailəyə yox) aid edilməklə mövcud gender stereotiplərini – uşağa qayğı göstərən tərəfin yalnız ana olduğu fikrini gücləndirir. Bununla da kişilərin uşağa qayğı göstərməyə cəlb olunmasını təşviq etmir, yalnız tək valideyn olan kişilərə xitab etməklə məhdudlaşır.

ƏM-in həm 91-ci, həm də 117-ci maddəsi (uşaqları təkbaşına böyüdən şəxslər üçün qısaldılmış iş vaxtı hüququnun müəyyən edilməsi) yalnız tək valideynlərə xitab etdiyindən ənənəvi gender rollarını möhkəmləndirir. Stereotip və ənənəvi gender rollarına görə qadınlara verilən qısaldılmış iş vaxtı kimi üstünlüklər, əslində, kişi işçiləri valideyn hüquqlarından istifadəyə və iş-ailə həyatını balanslaşdırmağa təşviq edir. Bəzi inkişaf etmiş ölkələrin təcrübəsində ofisdən kənarda işləməyin mümkünlüyü tanınır (buraya dövlət qurumları da daxildir). ƏM-in 126-cı maddəsində uşaq

övladlığa götürmüş qadınların məzuniyyət hüquqları təsbit edilir. Lakin bu maddə kişilərə şamil edilmir və beləliklə də, mövcud qeyri-bərabər gender rolları dəyişməz olaraq qalır.

ƏM-də kişilərin atalıq məzuniyyətini tənzimləyən 130-cu maddə olsa da, belə məzuniyyət ödənişsiz xarakter daşıyır. Belə ki, arvadlarının doğuşu ilə əlaqədər kişi işçilərin xahişinə əsasən bir iş ilində 14 təqvim gününədək ödənişsiz məzuniyyətlər verilir. Ancaq bu hüququn Məcəllədə məcburi deyil, könüllü seçim və ödənişsiz əsaslarla olması ayrı-seçkiliyi təşviq etməklə yanaşı, mövcud qeyri-bərabər gender rolları ilə bağlı stereotipləri daha da dərinləşdirir.

Kişi və qadınlarla aparılan fokus qrup müzakirələri əsnasında atalıq məzuniyyəti ilə bağlı vətəndaşların məlumatsız olduğu müəyyən edilib. Bu hüquqla bağlı məlumatlanan hər iki cinsin nümayəndələri onun qanunvericilikdə əks etdirilməsini müsbət qarşılasalar da, atalıq məzuniyyətinin ödənişsiz olmasını mənfi hal kimi dəyərləndiriblər.

Əmək məzuniyyətlərinin verilməsindəki növbəlilik prinsipində (133-cü maddə) qadınlara öncəliyin verilməsi (14 yaşınadək iki və daha çox uşağı olan, sağlamlıq imkanları məhdud uşağı olan qadınlar) müsbət ayrı-seçkilik tədbiri kimi dəyərləndirilsə də, əslində, bu, qadınların uşaqlara qayğı işində təkbaşına məsuliyyət daşıdığını bir daha vurğulayır. Bütün bunlar onu deməyə əsas verir ki, sənəddə uşağa qayğı yalnız “qadın işi” kimi təqdim edilir. Beləliklə də, ƏM özlüyündə gender transformativ yanaşmanı əhatə etmir.

ƏM-in müddəalarının tətbiqi üzrə daha çox sual yaradan məsələlərdən biri kənd təsərrüfatı istehsalında çalışan qadınlara hamiləliyə və doğuşa görə məzuniyyətin verilməsidir[58]. ƏM-də kənd təsərrüfatı istehsalında çalışan qadınların məzuniyyət hüquqlarının tənzimlənməsinə baxmayaraq, təcrübədə bunun tətbiqinə rast gəlinməyib. Saatlı və Abşeron rayonlarında fokus qruplarda aparılan müzakirələr zamanı bəlli olub ki, vətəndaşlar belə bir hüququn mövcudluğundan məlumatsızdırlar. ƏƏSMN ilə keçirilən görüş zamanı məşğulluq reyestrinin yaradılması üzrə işlərin aparıldığı qeyd edilsə də, bu reyestrdə kənd təsərrüfatında çalışan qadınların hamiləliyə və doğuşa görə məzuniyyət məsələlərinin öz əksini tapacağı müəyyən deyil.

## TÖVSİYƏLƏR:

40) ƏM-in 91-ci, 117-ci, 126-cı və 133-cü maddələrində gender və ailədə hüquq bərabərliyi prinsiplərənə əsasən “qadınlar” ifadəsi dəyişdirilərək “valideyn” ilə əvəz edilsin;
41) Kənd təsərrüfatında çalışan işçilərin məşğulluq reyestrində qeydiyyatı aparılsın;
42) Kənd təsərrüfatı istehsalında çalışan qadınlara hamiləliyə və doğuşa görə məzuniyyətin verilməsinin (ƏM-in 125.2-ci maddəsi) təcrübədə tətbiqi təmin edilsin;
43) Arvadlarının uşaq dünyaya gətirməsi ilə əlaqədar kişilərə atalıq məzuniyyətinin icbari və ödənişli əsaslarla olması, o cümlədən məzuniyyət müddətinin uzadılması təmin edilsin.

*CEDAW Komitəsinin valideyn məzuniyyəti ilə bağlı Azərbaycan dövlətinə tövsiyələri*

44) Uşaq müəssisələrinin sayının artırılması ilə yanaşı, icbari atalıq məzuniyyətini tətbiq etməklə qadın və kişilər üçün peşəkar və şəxsi həyat arasında tarazlığın asanlaşdırılması;
45) Karyerada hamiləlik, yarımştat məşğulluq kimi hallar səbəbindən yaranan fasilələr və məvaciblərdəki genderdən asılı olan fərqlərin qadınların pensiyalarına və digər sosial təminat imtiyazlarına mənfi təsirinin aradan qaldırılması.

[58] Əmək Məcəlləsinin 125.2-ci maddəsi

## 2.3. Qadınların sahibkarlıqda iştirakı, dövlət dəstəyi və imtiyazlardan istifadə

***Sahibkarlıqda gender bölgüsü***

Dövlət Statistika Komitəsinin məlumatlarında fərdi sahibkar qadınların məşğul olduğu sahələr aşağıdakı kateqoriyalar üzrə bölünür:

- kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq (35,2%),
- nəqliyyat vasitələrinin təmiri və ticarəti (24,4%),
- peşə, elmi və texniki fəaliyyət (2,6%),
- daşınmaz əmlakla əlaqədar əməliyyatlar (2%),
- turistlərin yerləşdirilməsi və ictimai iaşə (3,2%),
- təhsil (2%),
- fərdi istehlak üçün ev təsərrüfatlarının istehsal etdiyi mal və xidmətlərə dair fəaliyyət (3%)
- və digər sahələrdə xidmətlərin təmin edilməsi (22,5%).

Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, su təchizatı, tullantıların təmizlənməsi və emalı, mədənçıxarma sənayesi kimi digər sahələrdə fəaliyyət göstərən fərdi sahibkar qadınların sayı azlıq təşkil edir.

Qadınların fərdi sahibkarlıq fəaliyyətində çoxluq təşkil etdiyi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahəsi üzrə sayı 60227 nəfər olduğu halda, kişilər üçün bu göstərici 162626 nəfərdir. Ticarə və nəqliyyat vasitələrinin təmirində isə fərdi sahibkar qadınların sayı 41641 nəfər, fərdi sahibkar kişilərin sayı 159480 nəfər təşkil edir.

İqtisadiyyat Nazirliyinin tabeliyindəki Sahibkarlığın İnkişafı Fondunun 2017-ci il üzrə hesabatında[59] qeyd edilir ki, sahibkarlığın maliyyə resursları təminatı məqsədilə dövlətin güzəştli kreditləri hesabına maliyyələşdirilən layihələrin ümümi sayı 1953 olub. Onlardan 1871-i (95.8%) aqrar sektor, 68-i (3.5%) sənaye və 14-ü (0.7%) digər sahələrin payına düşüb. Lakin həmin ümumi sayın (1953) yalnız 280-ini fərdi qadın sahibkarların layihələri təşkil edib.

*Kiçik sahibkarlığa dövlət köməyi haqqında Azərbaycan Respublikasının Qanununun*[60] 6-cı maddəsi kiçik sahibkarlığa dövlət köməyinin istiqamətlərini aşağıdakı kimi təsvir edir:

- kiçik sahibkarlıq subyektlərinə maliyyə, maddi, elmi-texniki və informasiya resurslarının əldə etmələri üçün güzəştli şəraitin yaradılması;
- kadrların hazırlanması, yenidən hazırlanması və ixtisaslarının artırılması sahəsində kiçik sahibkarlıq subyektlərinə köməklik göstərilməsi;
- kiçik sahibkarlıq subyektlərinin xarici-iqtisadi fəaliyyətinə, o cümlədən xarici tərəf müqabilləri ilə istehsalat, maliyyə-kredit, ticarət, elmi-texniki və informasiya əlaqələrinin inkişafına köməklik göstərilməsi.

Qanunun bu müddəasında gender cəhətdən həssas yanaşmanın təşviqi, xüsusilə kiçik fərdi qadın sahibkarların xarici-iqtisadi fəaliyyətinin, o cümlədən istehsalat, maliyyə-kredit, ticarət, elmi-texniki və informasiya əlaqələrinin inkişafında üzləşdiyi çətinliklər nəzərə alınmır. Bu yanaşma dövlət dəstəyinin göstərilməsi üzrə ayrı-ayrı fəaliyyətlərin qeyd edildiyi digər maddələrdə də aktual qalır.

---

[59]http://edf.gov.az/uploads/Statistik_melumatlar/Illik_hesabatlar/Hes_2017.pdf
[60]Kiçik sahibkarlığa dövlət köməyi haqqında Azərbaycan Respublikasının Qanunu. 1999. № 673-IQ. http://www.e-qanun.az/framework/3849

İqtisadiyyat Nazirliyi kiçik sahibkarlığa dəstək məqsədilə təlim, sərgilər, satış yarmarkalarının həyata keçirildiyini və bu tədbirlərlə bağlı qadınların Qadın Sahibkarlar Assosiasiyası vasitəsilə məlumatlandırıldığını bildirir. Lakin məlumatlılığın azlığından və ya istehsalın yüksək olmaması səbəbindən qadın kiçik sahibkarlar tərəfindən məhsulun xaricdə satışı həyata keçirilmir. Fokus qrup görüşləri zamanı bu məsələdə də məlumatlılığın aşağı olması faktı müəyyən edilib. Onu da deyək ki, bəzən məlumatlılığın olması da hər şeyi həll etmir. Məsələn, fokus qrup görüşləri müəyyən edib ki, yerli yarmarkaların təşkili ilə bağlı qadın sahibkarlar məlumatlıdırlar, ancaq bu imkandan faydalanlanlar azdır. Diqqət çəkən məqamlardan biri də odur ki, kişi sahibkarlar dövlətin kiçik sahibkarlara yaratdığı dəstək və imkanlar barədə daha çox məlumatlıdırlar. Bu da kişilərin məlumatlara çıxış imkanının qadınlarla müqayisədə daha çox olduğu ilə əlaqələndirilir. Gender stereotipləri nəticəsində məlumata çıxışın məhdud olması, eləcə də qadınların sərbəst hərəkət/səyahət etmələrindəki məhdudiyyətlərin mövcudluğu (xüsusilə kənd/rayon yerlərində) onların beynəlxalq sərgi və yarmarkarlarda iştirakına, texniki və maliyyə resurslarına çıxışına mane olur. Mövcud problemin aradan qaldırılması və cavab tədbirlərinin görülməsi Qanun və onun icrasında nəzərə alınmır.

İqtisadiyyat Nazirliyi yuxarıda qeyd olunan problemlərdən çıxış yolunu qadın sahibkarlar üçün ayrıca sahəvi assosiasiyalar yaradılmasında görür. Bu yanaşma ilkin müdaxilə tədbiri kimi nəzərdə tutulsa da, onu uzunmüddətli məqsədlər üçün düzgün hesablanmış addım saymaq olmaz. Mövcud olan və yaradılması nəzərdə tutulan sahəvi assosiasiyalarda qadın sahibkarların da aktiv iştirakı və idarəçilikdə təmsil olunmasının təşviqi daha dayanıqlı və məqsədə uyğun olardı.

*Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi*[61] ölkədə kiçik ailə-kəndli təsərrüfatlarının fəaliyyətlərinin bazaryönümlülüyünün gücləndirilməsi, kommersiya əsaslı iri aqrokomplekslərin yaradılması və emal sənayesi ilə kənd təsərrüfatı məhsulları istehsalı arasında səmərəli inteqrasiya əlaqələrinin gücləndirilməsi, bazar infrastrukturunun inkişaf etdirilməsi ilə keyfiyyətli istehsal potensialına nail olmağı hədəfləyir. Eyni zamanda kənd təsərrüfatı istehsalında qabaqcıl texnologiyaların tətbiqi təcrübəsinin genişləndirilməsi, istehsalçıların bilik və bacarıqlarının artırılmasına imkan verən elm, təhsil və məsləhət xidmətləri sisteminin inkişaf etdirilməsi nəticəsində məhsuldarlıq göstəricilərinin yüksəldilməsinin təmin olunacağı qeyd edilir. Sənəddə əsaslı inkişafa nail olmaq üçün maliyyə resurslarına çıxış imkanlarının artırılması da öz əksini tapır.

Ancaq Strateji Yol Xəritəsinin hədəflərin reallaşdırılması üçün həyata keçirilməsi nəzərdə tutulan tədbirlərində (kənd təsərrüfatı məhsullarının istehsal potensialının dəyər zənciri üzrə artırılması, emal müəssisələrinin genişləndirilməsi, istehsalçıların maliyyə savadlılığının artırılması, aqrar sahədə ali və peşə təhsilinin inkişaf etdirilməsi, ehtiyaclarına uyğun informasiya-məsləhət xidməti şəbəkəsinin formalaşdırılması və s.) qadınların da bərabər faydalanmasının/iştirakının təşviq edilməsi aydın qeyd olunmur.

Bu yol xəritəsindən fərqli olaraq, *Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq (KOS) səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsində*[62] _qadınların rəhbərlik etdiyi şirkətlərin stimullaşdırılması hədəf baxışa daxil edilib və şərh hissəsində ayrıca qeyd olunub:

---

[61]Azərbaycan Respublikası Prezidentinin 6 dekabr 2016-cı il tarixli Fərmanı ilə təsdiq edilmişdir. https://azertag.az/store/files/Strateji_yol_xeritesi/strateji_yol_xeritesi_kend_teserrufati_mehsullarinin_istehsalina_ve_emalina_dair.pdf

[62]Azərbaycan Respublikası Prezidentinin 6 dekabr 2016-cı il tarixli Fərmanı ilə təsdiq edilmişdir. https://azertag.az/store/files/Strateji_yol_xeritesi/Ki%C3%A7ik_v%C9%99_orta_sahibkarl%C4%B1q_s%C9%99viyy%C9%99sind%C9%99_istehlak_mallar%C4%B1n%C4%B1n_istehsal%C4%B1na_dair.pdf

*"Şaxələndirmə məqsədlərinə müvafiq olaraq bütün sektorlar üzrə KOS subyektlərində qadınların daha çox iştirakının təmin edilməsinə əlavə imkanlar yaradılacaqdır. Buraya hər region daxilində ən yaxşı nümunə kimi qadınların rəhbərlik etdiyi şirkətlərin bilavasitə stimullaşdırılması daxildir. Uğurlu qadın sahibkarlarla görüşlər və müsahibələr nəticəsində bununla bağlı məlumatlılıq səviyyəsi daha da artırılacaqdır. Bu yolla Azərbaycanın əsas işçi qüvvəsində qadınların iştirak səviyyəsinin artırılması hədəflənir".*

Bundan başqa, KOS Strateji Yol Xəritəsinin prioritet 4.4 hissəsi qadın sahibkarlığının inkişaf etdirilməsinə həsr olunub. Bu hissədə qadınların KOS-da geniş təmsilçiliyinin sosial-iqtisadi inkişafın, o cümlədən məşğulluğun təmin olunmasında mühüm əhəmiyyət kəsb etdiyi vurğulanıb. Bu istiqamətdə dörd əsas tədbirin görülməsi – qadın sahibkarlığının inkişafı üzrə stimullaşdırıcı mexanizmlərin işlənib hazırlanması, informasiya dəstəyinin inkişaf etdirilməsi, eləcə də qadın biznes inkubatorlarının, assosiasiyalarının və peşə təşkilatlarının yaradılması nəzərdə tutulub.

Qeyd edilən bu müsbət məqamlarla yanaşı, qadın KOS-ların fəaliyyətinin ənənəvi olmayan, perspektivli və yüksək gəlirli sahələrə istiqamətləndirilməsi çox əhəmiyyətlidir. Bundan başqa, KOS subyektlərinin maliyyə savadlılığının artırılması, beynəlxalq ticarət əməliyyatları üçün maliyyə xidmətlərinin genişləndirilməsi və birbaşa xarici investisiyaların təşviqi ilə bağlı tədbirlərdə nəzərə almaq lazımdır ki, adətən qadınlar kişilərə nisbətən daha əlverişsiz şəraitdə olurlar. Bu fərqləri analiz edib müvafiq tədbirlərin görülməsi zəruridir. Bu baxımdan regionlardakı qadın sahibkarlara və ya sahibkar olmaq istəyən qadınlara mövcud dövlət proqramlarından istifadə imkanlarını təmin edəcək və onları yüksək gəlirli sahələrə istiqamətləndirəcək spesifik gender yanaşmalı tədbirlər proqramının olmasına xüsusi diqqət verilməlidir.

**TÖVSİYƏLƏR:**

46) KOS-un maliyyə, maddi, elmi-texniki və informasiya resurslarından istifadə imkanlarını əldə etmələri üçün güzəştli şəraitin yaradılmasında qadınların ehtiyacları nəzərə alınaraq gender cəhətdən həssas yanaşma tətbiq edilsin;
47) Kadrların hazırlanması, yenidən hazırlanması və ixtisaslarının artırılması sahəsində KOS-lara kömək göstərilməsi zamanı qadınların ənənəvi olmayan, perspektivli və yüksək gəlirli sahələrə istiqamətlənməsi təşviq edilsin;
48) KOS subyektlərinin xarici-iqtisadi fəaliyyətinə, o cümlədən xarici tərəf müqabilləri ilə istehsalat, maliyyə-kredit, ticarət, elmi-texniki və informasiya əlaqələrinin inkişafına kömək göstərilməsində qadınların ehtiyacları nəzərə alınaraq gender cəhətdən həssas yanaşma tətbiq edilsin;
49) Qadın fermerlərin bazara çıxışının asanlaşdırılması üçün kiçikhəcmli texnika, maşın və avadanlıqlarla təmin olunması üzrə xüsusi proqramlar və imtiyazlar/güzəştlər müəyyən edilsin;
50) Aqrar sahədə ali və peşə təhsilinin inkişaf etdirilməsi, həmçinin elmi tədqiqatların aparılmasının təşviqi mexanizminin hazırlanması zamanı qadınların xüsusi proqramlar, təqaüdlər və digər müfaviq tədbirlərdən bəhrələnmələri təmin edilsin;
51) Ekoloji təmiz məhsul istehsal edən fermerlərin formalaşdırılmasına dair tədbirlər çərçivəsində pilot təsərrüfatların qadın fermerlərin sahələrində yaradılması nəzərə alınsın;
52) Mərkəzləşdirilmiş KOS İnkişafı Agentliyinin idarəetməsində gender balansı gözlənilsin;

53) Müvafiq sahəyə dair strategiya və ya dövlət proqramının hazırlanmasına gender üzrə mütəxəssislər cəlb edilsin və müvafiq qurumlarla (məsələn, Qadın Sahibkarlar Assosiasiyası) məsləhətləşmələr aparılsın;
54) Qadın Sahibkarlar Assosiasiyasının peşəkar mütəxəssisləri və üzvləri konsaltinq xidmətlərinin göstərilməsi prosesinə cəlb edilsin;
55) Kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi və KOS Strateji Yol Xəritəsinin qadınlarla bağlı tədbirlərin icrasını təmin etmək üçün ayrıca “Qadın KOS-un İnkşafı üzrə Dövlət Proqramı” hazırlansın və icrasına maliyyə resursları ayırılsın;
56) Mövcud olan və yaradılması nəzərdə tutulan sahəvi assosiasiyalarda qadın sahibkarların da aktiv iştirakı və idarəçilikdə təmsil olunması təmin edilsin.

## 2.4. Qadınların təhsili və yüksək gəlirli peşə sahələrinə yönləndirilməsi

***Təhsildə gender göstəriciləri***

2018/2019-cu tədris ilinin əvvəlində dövlət ali məktəblərində qadınların sayı 48,4%, kişilərin sayı isə 51,6% olub. Araşdırmalar göstərir ki, Azərbaycanda qadınlar əsasən pedaqoji sahəyə, təbiət elmlərinə, eləcə də mədəniyyət və incəsənət ixtisaslarına üstünlük verirlər. İqtisadiyyat və idarəetmə, texniki və texnoloji ixtisaslar, kənd təsərrüfatı ixtisasları, hətta səhiyyə, rifah və xidmət ixtisaslarında qadınların sayı daha azdır.

***Cədvəl 1.*** **2018/2019-cu tədris ilinin əvvəlində dövlət ali təhsil müəssisələri tələbələrinin tədris müəssisələrinin ixtisas qrupları üzrə bölgüsü**[63]

| İxtisas qrupları | Cins bölgüsü (faizlə) | |
|---|---|---|
| | **qadınlar** | **kişilər** |
| Təhsil | 75,5 | 24,5 |
| Humanitar və sosial | 50,5 | 49,5 |
| Mədəniyyət və incəsənət | 62,1 | 37,9 |
| İqtisadiyyat və idarəetmə | 33,6 | 66,4 |
| Təbiət ixtisasları | 61,8 | 38,2 |
| Texniki və texnoloji ixtisaslar | 24,8 | 75,2 |
| Kənd təsərrüfatı ixtisasları | 32,6 | 67,4 |
| Səhiyyə, rifah və xidmət ixtisasları | 47,9 | 52,1 |
| Cəmi, faizlə | 48,4 | 51,6 |

2018/2019-cu tədris ilinin əvvəlində dövlət orta ixtisas təhsili müəssisələrində təhsil alan qadın tələbələrin xüsusi çəkisi bütün tələbələrin 65.9%-ini təşkil edir. Qadınlar əsasən humanitar və sosial, pedaqoji, səhiyyə, mədəniyyət və incəsənət ixtisasları üzrə təhsil alırlar.

[63]https://www.stat.gov.az/source/gender/

CEDAW Komitəsi öz müşahidələrində Azərbaycanda peşə sahəsinin seçilməsində ənənəvi qadın peşələri hesab olunan səhiyyə və xidmət sahəsinə stereotip yanaşmaya əsaslanan yüksək konsentrasiyanın olduğunu qeyd edir. CEDAW Komitəsi qadınların təhsili və onların sonrakı məşğulluğunun davamlılığı üçün müvafiq şəraitin yaradılmasını tövsiyə edib. Bu tövsiyə o cümlədən qadınların aşağı ödənişli və qeyri-rəsmi işlərdə çoxluğunun qarşısının alınmasını əhatə edir. Bundan əlavə, CEDAW Komitəsi prioritet məsələ olaraq təhsil və peşə seçimində mövcud gender stereotipləri ilə mübarizə sahəsində Azərbaycana iki əsas tövsiyə verib:

- ❖ Dərsliklər və digər tədris materiallarının nəzərdən keçirilməsi və hər hansı bir gender stereotiplərinə əsaslanan ayrı-seçkilik nümunələrinin aradan qaldırılması;
- ❖ Məktəblərin tədris proqramına və təhsilin bütün pillələrində müəllimlər üçün hazırlanan peşəkar təlim kurslarına qadın hüquqları və gender bərabərliyi üzrə məlumatların məcburi mövzu olaraq daxil edilməsi.

Təhsil haqqında Qanun[64] təhsil müəssisələrinə elmi-metodik rəhbərliyin və nəzarətin həyata keçirilməsini, təhsil müəssisələri üçün dərsliklərin, dərs vəsaitlərinin və digər tədris vasitələrinin hazırlanması və nəşrini, habelə icbari ümumi orta təhsilin həyata keçirilməsinə nəzarəti dövlətin təhsil sahəsində vəzifələri kimi müəyyən edib. Dövlət yuxarıda sadalanan vəzifələrinə əsaslanaraq ənənəvi gender rolları və peşə seçimlərini təbliğ edən materialların (şəkil, mətn, oyun və s.) tədris proqramından çıxarılmasını, eyni zamanda gender bərabərliyini aşılayan materialların proqrama əlavə olunmasını təmin edə bilər.

Peşə təhsili haqqında Qanun[65] peşə təhsili sahəsində dövlətin əsas vəzifələrini aşağıdakı kimi müəyyən edir:

- ❖ əmək bazarının tələblərinə və dövlət-özəl tərəfdaşlıq mexanizminə uyğun olaraq peşə təhsili müəssisələrində kadr hazırlığına dair sifarişlərin formalaşdırılmasını təmin etmək və proqnozları tərtib etmək;
- ❖ insan kapitalının inkişaf etdirilməsi, məşğulluğun təmin edilməsi və keyfiyyətli əmək bazarının formalaşdırılması üçün ixtisaslı işçi qüvvəsinin hazırlanması sahəsində mövcud problemləri araşdırmaq, bu istiqamətdə analitik və metodik materiallar hazırlamaq və s.

Burada diqqət yetirilməli məqam işçi qüvvəsinin hazırlığının əmək bazarının tələblərinə uyğun təmin edilməsi və insan kapitalının inkişaf etdirilməsinin vurğulanmasıdır. Qanunun bu bəndləri gender cəhətdən neytral olmaqla yanaşı, qadınların ənənəvi olmayan və gəlir gətirən peşə ixtisaslarına cəlb edilməsi məsələlərində (xüsusilə gənc qızların texniki və gəlir gətirən peşə sahələri üzrə təhsil alması) dövlətin öhdəliyini aydın müəyyən etmir.

Bu tədqiqat çərçivəsində Peşə Təhsili üzrə Dövlət Agentliyi ilə görüş zamanı müəyyən edilib ki, Agentlik tərəfindən bazar tələbləri araşdırılsa da, peşə sahələri üzrə təhsil ƏƏSMN-in sifarişi əsasında hazırlanır və qadınlar üçün daha çox ənənəvi peşə sahələri mövcuddur. Qadınların peşə təhsilinə cəlb edilməsi daha çox beynəlxalq təşkilatların həyata keçirdikləri layihələr çərçivəsində mümkün olur. Bununla belə, qadınlar daha çox "qadın peşələri" kimi qəbul edilən ənənəvi sahələr üzrə – toxuculuq, tikiş və s. peşə təhsili alırlar. Qadınların gəlir gətirən ixtisas və peşə sahələri üzrə cəlb edilməsinə xüsusi diqqət yetirilmir və ya həmin sahələrdə qadınların iştirakı təşviq edilmir.

---

[64]Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu. 2009. № 833-IIIQ. http://www.e-qanun.az/alpidata/framework/data/18/c_f_18343.htm
[65]Peşə təhsili haqqında Azərbaycan Respublikasının Qanunu. 2018. № 1071-VQ. http://www.e-qanun.az/framework/39275

Bundan əlavə, ölkənin cənub bölgələrində qadınların hətta “qadın peşələri” kimi qəbul olunan sahələr üzrə peşə təhsilinə cəlb edilməsində də problemlər var.

Peşə təhsili haqqında Qanun həmçinin sosial müdafiəyə xüsusi ehtiyacı olan şəxslərin (əlilliyi olan şəxslər, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar, şəhid ailəsi üzvləri və başqaları) dövlət peşə təhsili müəssisələrində ödənişli əsaslarla təhsil aldıqları müddətdə təhsil haqqının dövlət büdcəsinin vəsaiti hesabına ödənilməsini nəzərdə tutur. Lakin sosial müdafiəyə ehtiyacı olan digər həssas qrupa daxil olan şəxslər (insan alveri qurbanları) və onların övladları üçün bu imtiyaz nəzərdə tutulmayıb.

## TÖVSİYƏLƏR:

57) Ənənəvi gender rolları və peşə seçimlərini təbliğ edən materiallar (şəkil, mətn, oyun və s.) tədris proqramından çıxarılsın;
58) Ümumtəhsil və orta ixtisas təhsilinin bütün mərhələlərinə aid tədris proqramlarına gender bərabərliyini təşviq edən materialların salınması təmin olunsun;
59) Qadınların ənənəvi olmayan və gəlir gətirən peşə ixtisaslarına cəlb edilməsi üçün ölkə səviyyəsində təşviqat tədbirləri aparılsın və dövlət sifarişi əsasında illik kvota müəyyən edilsin;
60) Gənc qızların texniki və gəlir gətirən peşə sahələri üzrə təhsil alması üçün təqaüd proqramları yaradılsın;
61) Peşə təhsili üzrə ixtisasların müəyyənləşdirilməsində dövlət qurumları ilə yanaşı, özəl sektorun aparıcı tərəfləri və Qadın Sahibkarlar Assosiasiyası ilə əməkdaşlıq edilsin;
62) Dövlət hesabına peşə təhsili alan sosial müdafiəyə xüsusi ehtiyaclı şəxslərin siyahısına insan alverindən zərərçəkmiş şəxslər, onların övladları da əlavə edilsin.

# BÖLMƏ 3.
# SOSİAL MÜDAFİƏ: GENDER MƏSƏLƏLƏRİ

Oğlan uşaqlarına verilən üstünlük Azərbaycan mədəniyyətində dərin köklər salıb[66]. Qız övladların ailə qurduqda qayınana və qayınata ilə birgə yaşadığı, oğlanların da yaşlı valideynləri ilə birlikdə yaşadığı ailə sistemləri bir nəsildən digərinə kişi xətti ilə hələ də keçməkdədir. Azərbaycanda aparılan ən son tədqiqatlar göstərir ki, oğlan uşağına üstünlüyün verilməsi məsələsində qadınların 33,2%-i, kişilərin isə 53,8%-i ahıl yaşlarında onlara baxmaq üçün oğulun olmasını vacib hesab edir[67]. Bu tədqiqatlarda müəyyən edilib ki, məhz oğulun öz yaşlı valideynlərinə sosial-iqtisadi qayğı göstərməsi ehtimalını nəzərə alaraq ailədə oğlan uşağının olmasına daha çox üstünlük verilir. Eyni zamanda, tədqiqatın nəticələrinə görə, qız uşaqlarına əksər hallarda az üstünlük verilir, çünki onlardan ailə üzvlərini təmin edəcək gəlirin qazanılması gözlənilmir. Əksinə, qızların gəlin köçdükdən sonra öz ərlərinin ailəsinə kömək etməsi daha çox ehtimal olunur.

Araşdırmada yuxarıda qeyd olunan bütün ehtimallar nəzərə alınaraq Azərbaycanda yaşlı əhalinin sosial müdafiəsi, onlara göstərilən sosial xidmətlər və imtiyazlar, əhali üçün icbari tibbi sığorta kimi əhəmiyyətli sahələr üzrə qanunlar və dövlət siyasəti gender məsələləri nöqteyi-nəzərindən qiymətləndirilib. Yekunda ölkədə gender əsaslı cins seçiminə qarşı mübarizə və qız övladına verilən dəyərin artırılması, eləcə də gender bərabərliyinin təminində dövlət siyasətinə dəstək məqsədi ilə sözügedən sosial sahələr üzrə tövsiyələr verilib.

## 3.1. Yaşlıların sosial müdafiəsi

Sosial müdafiə müasir cəmiyyətlərdə inkişaf səviyyəsinin mühüm indikatorlarından hesab edilməkdədir. Belə ki, müasir dövr üçün sosial müdafiə anlayışı insanların həyatı boyu qarşılaşacaqları ən müxtəlif risklərdən qorunması mexanzmi olmaqla, fundamental insan haqlarından biridir. İnkişaf etmiş sosial müdafiə sistemi isə cəmiyyətin ən müxtəlif sosial qruplarını istənilən növ risklərə qarşı müdafiə edə bilməlidir.

Azərbaycanda bazar iqtisadiyyatının tələblərinə uyğun islahatların reallaşdırılması bu gün də davam etdirilir və belə tədbirlər əhalinin sosial rifahının əlaqələndirilməsi üzrə konsepsiyalara uyğun həyata keçirilir[68]. Bu əsasda Dövlət Sosial Müdafiə Fondunun gəlir və xərclərinin icrası, sığorta-pensiya sistemində beynəlxalq standartların tətbiqi, əmək pensiyaçılarının və əhalinin aztəminatlı təbəqələrinin sosial müdafiəsinin gücləndirilməsi tədbirləri 2018-2019-cu illərdə də davam etdirilib.

---

[66]Hortaçsu, Nuran, Şaron Ş. Baştuğ və Ovezdurdi B. Məhəmmətberdiyev. 2001. “Türkmənistan və Azərbaycanda uşaqlar üçün arzu: Oğlan uşaqlarına verilən üstünlük və dəyər məmnuniyyəti üçün qəbul edilən alətlər”. Mədəniyyətlərarası Psixologiya Jurnalı: 309-21

[67]“Azərbaycanda gender bərabərliyi və gender münasibətləri: mövcud vəziyyət və imkanlar. Kişilərin Gender Bərabərliyinə Münasibətinə dair Tədqiqatın (IMAGES) nəticələri üzrə Hesabat”. UNFPA/AQUPDK, 2018. Bakı, Azərbaycan. https://azerbaijan.unfpa.org/sites/default/files/pub-pdf/gender%20equality-az_0.pdf

[68]Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin 2018-ci il üzrə Hesabatı. http://sosial.gov.az/uploads/images/image_750x_5c62aca0358af.pdf

2018-ci il ərzində respublika əhalisinin 5,1%-inə və ya 505,9 min nəfərə sosial müavinət təyin olunub ki, onlardan 415,9 min nəfərinə aylıq, 90 min nəfərinə isə birdəfəlik sosial müavinət verilib.[69] Ölkə üzrə 415884 nəfər və ya 4,2% aylıq, 90056 nəfər və ya 0,9% isə birdəfəlik sosial müavinət alanlardır. Bundan əlavə, 62 min nəfərə müxtəlif Fərman və Sərəncamlara əsasən Azərbaycan Respublikası Prezidentinin təqaüdləri təyin olunaraq ödənilib. Eyni zamanda, 2018-ci ildə sosial müavinət alanların sayı 2017-ci illə müqayisədə 23 min nəfər, təqaüd alanların sayı isə 2 min nəfər artıb. Bu məqsədlər üçün 428,8 milyon manat vəsait sərf edilib.[70]

2018-ci ilin əvvəlində Azərbaycanda əmək pensiyası alan şəxslərin sayı 1 milyon 311 min 739 nəfər təşkil edib. Bunların ümumi sayından 11,1%-i işləyən pensiyaçılardır. Ölkə iqtisadiyyatında məşğul olanların hər 1000 nəfərinə hesabı ilə pensiyaçıların sayı 273 nəfər, yaşa görə pensiya alanların sayı isə 161 nəfər təşkil edib.[71]

***Cədvəl 2.*** **Pensiyaçıların sayı (Min nəfər, cins bölgüsü, faizlə)**

| İllər | Cəmi, nəfər | Onlardan, nəfər | | Cins bölgüsü, faizlə | |
|---|---|---|---|---|---|
| | | **qadınlar** | **kişilər** | **qadınlar** | **kişilər** |
| **2016** | 1 300 | 766 | 534 | 58,9 | 41,1 |
| **2017** | 1 315 | 760 | 555 | 57,8 | 42,2 |
| **2018** | 1 318 | 753 | 565 | 57,1 | 42,9 |
| **2019** | 1 295 | 744 | 551 | 57.4 | 42.6 |

2018-ci ilin əvvəlində ***əhaliyə ödənilən pensiyaların orta aylıq məbləği 208,4 manat*** olub və orta aylıq nominal əmək haqqının 39,5%-ini təşkil edib.[72] Bu istiqamətdə ardıcıl aparılan islahatlar nəticəsində 1 mart 2019-cu ildən Azərbaycanda əmək pensiyalarının minimum məbləği 38,5% artırılaraq 160 manata çatdırılıb. Lakin son dörd ildə manatın dəyərsizləşməsini və qiymətlərin artımını nəzərə alaraq (2016-cı ildə illik inflyasiya 12%, 2017-ci ildə 14% olmuşdur) demək olar ki, Azərbaycanda pensiyalar təqaüdçünün ehtiyaclarını tam ödəmir.

Təqaüdçülərin hesablamalarına görə, onların 177 manat aylıq pensiyasının təxminən 30%-i kommunal xidmətlərdən istifadəyə gedir. Nəqliyyat üçün 10 manat, təmizlik üçün 20 manat, ən vacib dərmanlar üçün 20 manat, qalan hissəsi qida və ev təsərrüfatı üçün kiçik ehtiyaclarının ödənilməsinə sərf olunur. Ağır müalicə və ya texniki avadanlığın alınması yaxınlarının köməyi olmadan, demək olar ki, mümkün deyildir. Buna görə də təqaüdçülər, xüsusilə də təkbaşına yaşayan təqaüdçülər çətinliklə və yoxsulluq içində dolanırlar.[73]

---

[69]Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin 2018-ci il üzrə Hesabatı. http://sosial.gov.az/uploads/images/image_750x_5c62aca0358af.pdf
[70]Eyni mənbə.
[71]Dövlət Statistika Komitəsi. https://www.stat.gov.az/source/gender/
[72]Dövlət Statistika Komitəsi. https://www.stat.gov.az/source/healthcare/
[73]Tengiz Verulava, "Cənubi Qafqazda Pensiya Sistemi". 2017. https://www.researchgate.net/publication/327971945_Pension_System_in_South_Caucasus

Əmək pensiyaları haqqında Qanun[74] ***əmək pensiyasının üç növünü müəyyən edir***: a) yaşa görə əmək pensiyası, b) əlilliyə görə əmək pensiyası və c) ailə başçısını itirməyə görə əmək pensiyası. Qanuna görə, hazırda 63 yaşına çatmış kişilərin və 60 yaşına çatmış qadınların yaşa görə əmək pensiyası hüququ var. 2017-ci ildə Qanuna edilmiş dəyişikliklə[75] kişilərin yaş həddi 2017-ci il iyulun 1-dən başlayaraq 2021-ci il iyulun 1-dək, qadınların yaş həddi 2017-ci il iyulun 1-dən 2027-ci il iyulun 1-dək hər il 6 ay artırılır[76]. Bu o deməkdir ki, 2021-ci ildən etibarən kişilərin əmək pensiyası hüququ üzrə yaş həddi 65 olacaq. Qadınlar isə 2027-ci ildən etibarən 65 yaşdan sonra əmək pensiyası hüququna malik olacaqlar. Beləliklə də, həm kişilər, həm də qadınlar üçün əmək pensiyasının yaş həddi 2027-ci ildən etibarən eyni olacaq. Kişi və qadınların əmək pensiyası hüququndan istifadədə də bərabərliyin təmin olunması üçün hökumətin atdığı bu addım çox təqdirəlayiqdir.

Lakin Qanunun digər bölmələrində pensiya hüququnun əldə edilməsində gender bərabərliyi pozulub, müxtəlif sosial səbəblərdən qadınların pensiya yaşı və staji azaldılıb. İlk baxışdan Qanundakı belə "imtiyazlar" qadınların sosial müdafiəsi tədbiri kimi görünsə də, mahiyyətinə vardıqda bəlli olur ki, bunlar qadınları rəqabətli əmək bazarından geri salmağa, daha çox dəyəri qiymətləndirilməyən ailə-məişət işləri ilə məşğul olmağa yönəldən və buna görə də "mükafat"landırılan mexanizmlərdir. Məsələn, Qanunun 8-ci maddəsi çoxuşaqlı qadınların, sağlamlıq imkanları məhdud uşağı olan anaların, uşaqlarını təkbaşına böyüdən ataların və qəyyumların yaşa görə əmək pensiyasının yaş həddinin azaldılmasını nəzərdə tutub.

***Beş və daha çox uşaq doğub onları 8 yaşınadək tərbiyə etmiş qadınların*** yaş həddi hər uşağa görə 1 il azaldılmaqla yaşa görə əmək pensiyası hüququ müəyyən edilib (8.1-ci maddə). Eyni zamanda, ***sağlamlıq imkanları məhdud uşağını 8 yaşınadək tərbiyə etmiş anaların*** yaş həddi 5 il azaldılmaqla yaşa görə əmək pensiyası hüququ müəyyən edilib (8.2-ci maddə). Atalara belə hüquq o halda verilir ki: a) ana vəfat etsin və ya b) ana ilə nikaha xitam verilsin yaxud c) ana valideynlik hüququndan məhrum edilsin və ata beş yaxud daha çox uşağı növbəti nikah bağlamadan, təkbaşına 8 yaşınadək böyütsün (8.3-cü maddə).

Qanunun bu maddəsinin hər üç bəndindən də göründüyü kimi, ***uşağa qulluq və xüsusilə də sağlamlıq imkanları məhdud uşağın 8 yaşınadək tərbiyə edilməsi öhdəliyi qadınların üzərinə qoyulur*** və beləliklə də, "tərbiyə işi" yalnız "ana işi" kimi göstərilir. Bundan əlavə, ataların uşaqlarının tərbiyə işinə cəlb edilməsi və buna görə pensiya yaşının azaldılması yalnız ana olmadıqda və ya analıqdan məhrum edildikdə mümkün sayılır. Yuxarıda qeyd olunmuş gender ayrı-seçkiliyini təşviq edən oxşar yanaşmanı "Sosial müavinətlər haqqında Qanun"un[77] ayrı-ayrı maddələrində də görmək olar.

Qanunun 1-ci maddəsində əmək qabiliyyəti olmayan şəxslərin dairəsi aşağıdakı kimi müəyyən edilir:

> *"...əlillər, sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlarla yanaşı, 3 və daha çox uşaq doğub 8 yaşınadək tərbiyə etmiş, yaxud sağlamlıq imkanları məhdud övladını 8 yaşınadək tərbiyə etmiş 57 yaşına çatmış qadınlar, ana vəfat etdiyinə, yaxud analıq hüququndan məhrum edildiyinə görə 3 və daha çox uşağı və ya sağlamlıq imkanları məhdud övladını növbəti nikah bağlamadan təkbaşına 8 yaşınadək böyüdən 62 yaşına çatmış kişilər.."*

---

[74] Əmək pensiyaları haqqında Qanun. 2006. № 54-IIIQ. http://www.e-qanun.az/framework/11566
[75] "Əmək pensiyaları haqqında Qanunda dəyişikliklər edilməsi barədə AR Qanunu. 2017. № 543-VQD. http://e-qanun.az/framework/35345
[76] Əmək pensiyaları haqqında Qanunun 7-ci maddəsi.
[77] Sosial müavinətlər haqqında Azərbaycan Respublikasının Qanunu. 2006. № 55-IIIQ. http://www.e-qanun.az/framework/11508

Həm “Əmək pensiyaları haqqında Qanun”da, həm də “Sosial müavinətlər haqqında Qanun”da belə normaların olması AR-nın Konstitusiyası ilə təmin edilən bərabərlik hüquqlarının pozulmasıdır. Bu hal Azərbaycanın tərəfdar çıxdığı müvafiq beynəlxalq konvensiyaların tələbləri ilə də ziddiyyət təşkil edir.

Qanunvericilikdəki belə yanaşmalar dolayısı ilə cəmiyyətdəki gender obrazlarının qalıcı olmasına, hətta təbliğ edilməsinə gətirib çıxarır. Qadın yalnız “ana” və “evdə qulluq edən”, “tərbiyəçi” rolunda görülür, bu roluna görə də müavinətlərin verilməsi ilə “mükafatlandırılır”.

Bundan əlavə, qadınlar uşağa və ya sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara qulluq etmələri və buna görə “məşğul” hesab edilmələri səbəbindən sosial sığorta haqqı ödəmirlər deyə sonradan pensiya yaşına çatdıqda aşağı məbləğdə pensiya almaq məcburiyyətində qalırlar. Bu məsələyə diqqət çəkən CEDAW Komitəsi Azərbaycan üzrə Yekun Müşahidələrində[78] qeyd edib ki, “[...]qadınların aşağı ödənişli və qeyri-rəsmi işlərdə cəmlənməsi ilə nəticələnən əmək bazarının davam edən horizontal və vertikal seqreqasiyası, qadınlara münasibətdə ciddi maaş fərqi, uşaq müəssisələrinin olmaması və kişilərə nisbətdə qadınlar üçün aşağı pensiya dərəcələrinin mövcudluğu Komitəni narahat edir”. Buna görə də Azərbaycan hökuməti bütün mümkün addımları atmalıdır ki, karyerada hamiləlik, yarımştat məşğulluq kimi hallar səbəbindən yaranan fasilələrin və məvaciblərdəki gender əsaslı fərqlərin qadın pensiyalarına, eləcə də digər sosial təminat imtiyazlarına mənfi təsirini aradan qaldırsın.

Əmək pensiyaları haqqında Qanunun 9-cu maddəsi güzəştli şərtlərlə əmək pensiyası hüququ olan digər şəxslərin dairəsini müəyyən edir. Bu maddədə ayrı-ayrı peşə sahələri üzrə (Prokurorluq, hərbi qulluqçular, Ədliyyə, Miqrasiya və Fövqəladə hallar orqanlarında) qulluq keçmiş şəxslərin pensiya yaşı və stajı ilə bağlı azaldılmalar nəzərdə tutulsa da, qadın və kişilər üçün bərabər müddətlər müəyyən edilib (Ədliyyə orqanlarına daxil olan cəzaçəkmə müəssisələrində, istintaq təcridxanalarında və azadlıqdan məhrum edilmiş şəxslər üçün nəzərdə tutulmuş müalicə müəssisələrində çalışan işçilər istisna olmaqla). Lakin Qanunun bu maddəsinin üç fərqli yarımbəndində güzəştli şərtlərlə yaşa görə əmək pensiyası hüququnda qadın və kişilər üçün fərqli yaş və staj müəyyən edilir, bərabərlik prinsipi pozulur. Belə ki, yeraltı işlərdə, incəsənətin xüsusi sahələrində, həmçinin əmək şəraiti xüsusilə zərərli və ağır olan işlərdə (istehsalatların, peşələrin, vəzifələrin və göstəricilərin müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq olunan siyahısı üzrə) çalışanların siyahısı aşağıdakı kimi qeyd edilir:

- Kişilər – 60 yaşına çatdıqda, azı 25 il sığorta stajına malik olduqda və bu müddətin azı 12 il 6 ayını həmin işlərdə çalışdıqda;
- Qadınlar – 55 yaşına çatdıqda, azı 20 il sığorta stajına malik olduqda və bu müddətin azı 10 ilini həmin işlərdə çalışmdıqda və fərdi hesabın sığorta hissəsində qeydə alınmış pensiya kapitalı əmək pensiyasının minimum məbləğindən az olmayan pensiya təminatına imkan verdikdə əmək şəraitinə görə güzəştli şərtlərlə yaşa görə əmək pensiyası hüququnun olması müəyyən edilib.

Bundan əlavə, kişi və qadınlar üçün bərabər olmayan belə güzəşli şərtlər mülki aviasiyanın uçuş və uçuş-sınaq heyətində işlə əlaqədar çalışanlara, hipofizar nanizm xəstəliyinə tutulan şəxslərə (liliputlara) və mütənasibliyi pozulmuş cırtdanboylulara aid edilir. Qanunun bu yarımbəndlərindən göründüyü kimi, yeraltı işlərdə, incəsənətin xüsusi sahələrində, əmək şəraiti xüsusilə zərərli və ağır

[78]CEDAW, Azərbaycan üçün Tövsiyələr, 2015-ci il.
https://tbinternet.ohchr.org/_layouts/15/treatybodyexternal/Download.aspx?symbolno=CEDAW/C/AZE/CO/5&Lang=En

olan işlərdə çalışan, həmçinin mülki aviasiyanın uçuş və uçuş-sınaq heyətilə əlaqədar işlərdə çalışanların pensiya yaşı və əmək stajı kişi və qadınlarda fərqlidir.

Nə Qanunda, nə də ki NK-nın qərarı ilə təsdiq edilmiş "Güzəştli şərtlərlə yaşa görə əmək pensiyası hüququ verən istehsalatların, peşələrin, vəzifələrin və göstəricilərin Siyahısı"nda[79] bu fərqlərin hər hansı birinin tibbi-sosioloji əsaslandırılmış səbəbləri qeyd olunmayıb. Məsələn, tam aydın deyil ki, nəyə görə incəsənətin xüsusi sahələrində çalışan kişi və qadınlar üçün fərqli yaş və staj müəyyən edilib.

Yuxarıda yazılanları ümümiləşdirərək qeyd etmək olar ki, CEDAW Komitəsinin vurğuladığı amillərin (qadınların aşağı ödənişli və qeyri-rəsmi işlərdə işləməsi, əmək bazarının davam edən horizontal və vertikal seqreqasiyası, gender əsaslı ciddi əmək haqqı fərqi, uşaq müəssisələrinin olmaması və s.) aradan qaldırılması istiqamətində təxirə salınmadan müvafiq tədbirlər görülməzsə, qadınların bərabər və ədalətli pensiya almaq hüququnun təminatına nail olunmayacaq. Bundan əlavə, pensiya və sosial müavinətlərin alınmasında qadınlar üçün nəzərdə tutulan yaş və staj "güzəştləri" gender bərabərliyi prinsipini pozmaqla yanaşı, qadınların bərabər məbləğdə pensiya almaq hüququnun reallaşdırılmasına gətirib çıxarmayacaq. Bu səbəbdən də Azərbaycan hökuməti karyerada hamiləlik, yarımştat və ya qeyri-rəsmi məşğulluq kimi hallar ucbatından yaranan fasilələrin və məvaciblərdəki gender əsaslı fərqlərin qadın pensiyalarına və digər sosial təminat imtiyazlarına mənfi təsirini aradan qaldırmaq üçün mümkün olan bütün tədbirləri görməlidir.

## TÖVSİYƏLƏR:

63) Sığorta-pensiya sisteminin beynəlxalq standartlara uyğunlaşdırılması və pensiyaçıların sosial müdafiəsinin gücləndirilməsi üçün hökumət təxirə salmadan görülən işləri davam etdirsin və yaşlı insanların layiqli həyat yaşamalarını təmin etmək üçün pensiyaların minimum məbləğini artırsın;
64) Əmək pensiyası hüququnun əldə edilməsində, habelə güzəştli şərtlərlə əldə edilməsində qadın və kişilər üçün bərabər yaş və əmək stajı şərtlərinin tətbiqi üzrə müvafiq qanunlara dəyişikliklər edilsin;
65) Beş və daha çox uşaq dünyaya gətirib onları 8 yaşınadək tərbiyə etmiş qadınların əmək pensiyası hüququnun əldə edilməsindəki yaş həddinin azaldılması konsepsiyası müvafiq qanunvericilik aktlarında ləğv edilsin;
66) Sağlamlıq imkanları məhdud uşağını 8 yaşınadək tərbiyə etmiş anaların, habelə ana vəfat etdiyinə yaxud analıq hüququndan məhrum edildiyinə görə üç və daha çox uşağı və ya sağlamlıq imkanları məhdud övladını növbəti nikah bağlamadan təkbaşına 8 yaşınadək böyüdən kişilərin əmək pensiyası hüququnun əldə edilməsindəki yaş həddinin azaldılması konsepsiyası müvafiq qanunvericilik aktlarında ləğv edilsin, gender cəhətdən neytral "tərbiyə edən/böyüdən valideyn" terminləri işlədilsin;
67) Güzəştli şərtlərlə yaşa görə əmək pensiyası hüququnun əldə edilməsində qadın və kişilər üçün bərabər şərtlərin müəyyən olunmasından ötrü müvafiq qanunvericilik aktlarına əlavə/dəyişikliklər edilsin.

---

[79]Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Güzəştli şərtlərlə yaşa görə əmək pensiyası hüququ verən istehsalatların, peşələrin, vəzifələrin və göstəricilərin Siyahısı"nın təsdiq edilməsi barədə 12 saylı Qərarı. 2007. http://www.e-qanun.az/framework/12731

## 3.2. Yaşlı Əhaliyə Dəstək Proqramları

“Sosial xidmət haqqında” Qanuna[80] əsasən, ölkədə yaşı 70-ə çatmış şəxslər ahıl hesab olunurlar. 2018-ci ilin rəsmi statistikasına əsasən, Azərbaycanda bu kateqoriyadan olan şəxslərin sayı (48,06%-i qadın, 51,9%-i kişi olmaqla) 302,3 min nəfər təşkil edir.[81] Ahıl pensiyaçıların 248 min nəfəri 70-79 yaş arası, 137,9 min nəfəri 80 və 80-dən yuxarı yaşı olan vətəndaşlardır. Ümumilikdə ahıl vətəndaşların 87,1%-i əmək pensiyası ilə təmin olunur, əmək pensiyası hüququ olmayan ahıl şəxslərə isə yaşa görə aylıq sosial müavinət ödənilir. 2004-cü ildə təsdiq edilmiş “Azərbaycanda demoqrafiya və əhali sakinliyinin inkişafı sahəsində Dövlət Proqramı”, 2006-cı ildə təsdiq edilmiş “Ahıl vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi üzrə Dövlət Proqramı”, eləcə də digər fərmanlar və qərarlar ahıl əhalinin sosial müdafiəsinin təminatçılarıdır.

Ahıl vətəndaşların bir qismini təşkil edən 1941-1945-ci illərdə İkinci Dünya müharibəsi iştirakçılarına digər müharibə əlilləri kimi aylıq təqaüd ödənilir. 9 May – Qələbə günü ərəfəsində İkinci Dünya müharibəsi iştirakçılarına, müharibədə və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, digər orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım göstərilir. Bu yardımların məbləği də vaxtaşırı artırılır. Qələbə günü ilə əlaqədar MDB məkanında ən yüksək məbləğdə birdəfəlik yardım məhz Azərbaycanda verilir. Digər tərəfdən, ötən dövrdə İkinci Dünya müharibəsi əlillərindən 102 nəfər dövlət büdcəsi hesabına mənzil, 1118 nəfər minik avtomobili ilə təmin olunub.

Hazırda ƏƏSMN-in tabeliyində olan sosial xidmət müəssisələrində 200 nəfərədək ahıl insan tam dövlət təminatında yaşayır. Müharibə və əmək əlilləri üçün Bilgəh pansionatında (Qocalar evi) son illər beynəlxalq standartlara cavab verən infrastruktur yaradılıb. Burada tənha ahıl və əlillərin keyfiyyətli tibbi-sosial xidmətlə təminatı həyata keçirilir, onların asudə vaxtlarının mənalı təşkili üçün müasir tələblərə uyğun şərait mövcuddur.

Eyni zamanda, AR Nazirlər Kabinetinin 22 aprel 2014-cü il tarixli 108 saylı Qərarı ilə təsdiq edilmiş “Evdə (səyyar) sosial xidmətin göstərilməsi Qaydası”na əsasən, hazırda ƏƏSMN tərəfindən 11208 nəfər tənha ahıl və əlil şəxsə evlərində sosial-məişət xidmətləri göstərilir. Həmin insanların 8857 nəfəri ahıl şəxslərdir. Sosial işçilər onlara ev təsərrüfatında təmizlik işlərinin aparılması, yemək hazırlanması, zəruri ərzaq, sənaye və məişət mallarının alınması, müvafiq hallarda tibbi və psixoloji yardımın, hüquqi məsləhətlərin təmin edilməsi və s. işlərdə köməklik göstərirlər.

Hökumətin yaşlı insanlara olan qayğısı onların övladlarından maddi və sosial asılılığını azaldır, beləliklə də, qız və oğlan övladlarının dəyəri valideynlərinin maddi rifahına verdikləri töhfə ilə ölçülmür. Bu nöqteyi-nəzərdən ahıllara və pensiyaçılara verilən güzəştlər və imtiyazlar selektiv abortların qarşısının alınmasına birbaşa təsir göstərə bilər.

Eyni zamnada, ahıllara verilən sosial təminatlar və imtiyazlar onların vətəndaş hüquqlarından yararlanmasına – sağlam və məhsuldar yaşlanmasına xidmət edir. Getdikcə hökumətlər və beynəlxalq ictimaiyyət qəbul edir ki, yaşlı əhalinin xüsusi qayğıya ehtiyacı məsələsi bir çox hallarda “rifahın ümumi planlaşdırılması”nda gözdən qaçır. Halbuki bir çox tədqiqatlar göstərir ki, ahıllar böyük məhsuldar qüvvədir və bu qüvvənin düzgün yönəldilməsi həm ahılların özləri, həm də cəmiyyətin rifahı üçün çox faydalı ola bilər. Dünyanın bir çox ölkələrində yaşlı əhalinin sosial

---

[80] “Sosial xidmət haqqında” Azərbaycan Respublikasının Qanunu. 2011. № 275-IVQ. http://www.e-qanun.az/framework/23195

[81] Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. 19 may 2019-cı il tarixində götürülüb. https://www.stat.gov.az/source/demoqraphy/

müdafiəsini təmin etmək üçün xüsusi xidmət və imtiyaz proqramları həyata keçirilir. Belə proqramlar layiqli həyat yaşamaq üçün uyğun pensiya məbləğinin ödənilməsi ilə yanaşı, tam tibbi sığortanı, ictimai nəqliyyatdan pulsuz istifadəni, kommunal xidmətlərin xərcini ödəməkdən azad olunma və ya ciddi güzəştləri, o cümlədən vergi ödənişlərində güzəştləri, aşağı faizli kreditləri və s. əhatə edir.

Azərbaycanda bəzi kateqoriyadan olan şəxslərin ictimai nəqliyyatdan istifadəsi zamanı gediş haqqından azad olunma qaydaları mövcuddur. AR Nazirlər Kabinetinin "Avtomobil nəqliyyatı ilə sərnişin və baqaj daşınması Qaydaları"[82]na əsasən, müntəzəm avtobus marşrutlarında sərnişin özü ilə ayrıca yer tutmadan və gediş haqqı ödəmədən 5 yaşa qədər olan bir uşaq aparmaq hüququna malikdir.

Eyni zamanda, "Hərbi qulluqçuların statusu haqqında Azərbaycan Respublikasının Qanunu"na əsasən, müddətli həqiqi hərbi xidmət qulluqçuları sərnişin nəqliyyatının bütün növlərindən (taksidən başqa) pulsuz istifadə edə bilər. Nəqliyyatdan pulsuz istifadə imtiyazı polis orqanlarının əməkdaşlarına da verilib. "Polis haqqında" Azərbaycan Respublikası Qanununun 38-ci maddəsində deyilir ki, xidməti vəzifələrinin icrası zamanı polis əməkdaşları Azərbaycan Respublikasının ərazisində sərnişin nəqliyyatının bütün növlərindən (taksidən və şəhərlərarası nəqliyyatdan başqa) pulsuz istifadə etmək hüququna malikdir. Lakin belə imtiyazlardan yaşlı əhalinin də istifadəsi qanunvericilikdə nəzərdə tutulmayıb. Şəhərdaxili bütün növ ictimai nəqliyyatdan pulsuz istifadə imtiyazlarının 65 yaşdan yuxarı bütün ahıl vətəndaşlara (kişi və qadınlara) şamil edilməsi, eyni zamanda bənzər imtiyazların dəmiryol və hava nəqliyyatından istifadəyə də (ən azı 50% güzəştlə) şamil edilməsi yaşlıların mobilliyinin artırılmasına və beləliklə də, sosial dəstək verilməsinə böyük bir töhfə ola bilər.

"Kommunal, nəqliyyat və digər xidmətlər üzrə güzəştlərin müavinətlərlə əvəz olunmasının təmin edilməsi haqqında" AR Prezidentinin 26 dekabr 2001-ci il tarixli 613 saylı Fərmanı ilə Azərbaycan dövlətinin ərazi bütövlüyünün, müstəqilliyinin və Konstitusiya quruluşunun müdafiəsi zamanı əlil olanlara, 1990-cı il 20 Yanvar hadisələri zamanı əlil olanlara, Böyük Vətən müharibəsi əlillərinə, müharibə əlillərinə bərabər tutulanlara, həqiqi hərbi xidmət dövründə Çernobıl qəzasının nəticələrinin aradan qaldırılmasına cəlb edilmiş və həmin qəza nəticəsində əlil olmuş hərbi qulluqçulara kommunal, nəqliyyat və digər xidmətlər üzrə aylıq müavinətlər müəyyən edilib. Belə müavinətlərin ödənilməsi ilə bağlı AR Nazirlər Kabinetinin müəyyən etdiyi Qaydaya[83] əsasən, sözügedən Fərmandan irəli gələrək aylıq müavinətlərdən bir neçəsini almaq hüququ olan şəxslərə həmin müavinətlərdən yalnız biri – ən yüksək olanı nağdsız qaydada ödənilir.

Kommunal ödənişlərdə güzəştlər həmçinin məcburi köçkün statusu olan vətəndaşlara da şamil edilir və belə güzəştlər müavinətlərlə əvəz olunaraq, nağdsız qaydada aylıq ödənilir. Əlbəttə ki, dövlət tərəfindən yuxarıda göstərilən kateqoriyaya daxil olan şəxslərə kommunal ödənişlərdə güzəştlərin edilməsi çox humanist bir addım kimi qiymətləndirilməlidir. Eyni zamanda, bütün kateqoriyalar üzrə yaşlı əhalinin (65 yaşdan yuxarı) sosial-məişət məsələlərində dəstəklənməsi, onlara kommunal ödənişlərdə güzəştlərin edilməsi ahıl əhalinin rifahına öz müsbət təsirini göstərə bilər.

Yaşlı əhaliyə dəstək proqramları çərçivəsində minimum orta əmək haqqı alan ahılların fərdi gəlir vergisindən azad edilməsi, banklar tərəfindən ahıl vətəndaşlara depozitlər üzrə normadan

[82]"Avtomobil nəqliyyatı ilə sərnişin və baqaj daşınması Qaydaları"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 17 sentyabr 2009-cu il tarixli 141 saylı Qərarı.

[83]"Kommunal, nəqliyyat və digər xidmətlər üzrə güzəştlərin müavinətlərlə əvəz olunması ilə əlaqədar həmin müavinətlərin vətəndaşlara verilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 9 yanvar 2002-ci il tarixli 2 nömrəli Qərarı. http://www.e-qanun.az/framework/1109

yüksək faiz dərəcələrinin verilməsi, yaşlılara uyğun xüsusi əmanət sxemlərinin təklif olunması kimi müsbət beynəlxalq təcrübə mövcuddur. Həmçinin hökumət və kommersiya müəssisələrində yaşlılar üçün ekspress növbələrin olması, yaşlılara xüsusi təhsil imtiyazları beynəlxalq təcrübədə müsbət nəticələrə gətirib çıxaran tədbirlərdən sayılır.

**TÖVSİYƏLƏR:**

68) 65 yaşdan yuxarı bütün vətəndaşlara Azərbaycan Respublikasının ərazisində şəhər/qəsəbələrdaxili sərnişin nəqliyyatının bütün növlərindən (taksidən və şəhərlərarası nəqliyyatdan başqa) pulsuz istifadə hüququnun verilməsi üçün müvafiq qanunvericilik aktlarına əlavələr edilsin;

69) 65 yaşdan yuxarı bütün vətəndaşlara Azərbaycan Respublikasının ərazisində şəhərlərarası nəqliyyatın bütün növlərindən (avtobus, dəmiryol və hava nəqliyyatı) güzəştli (ən azı 50% güzəştlə) istifadə hüququnun verilməsi üçün müvafiq qanunvericilik aktlarına əlavələr edilsin;

70) 65 yaşdan yuxarı bütün vətəndaşlara kommunal ödənişlərdə güzəştlərin edilməsi və belə güzəştlərin müavinətlərlə əvəz olunaraq onlara nağdsız qaydada aylıq ödənilməsi barədə müvafiq qanunvericilik aktlarına əlavələr edilsin;

71) Yaşlı əhaliyə dəstək proqramının hazırlanması və proqram çərçivəsində xüsusi tədbirlərin görülməsi (gəlir vergisindən azad edilmə, xüsusi əmanət sxemlərinin təklif olunması, təhsil imtiyazları, icmalarda fəaliyyətə cəlb edilmə və s.) üzrə hökumət müvafiq addımlar atsın.

## 3.3. Tibbi sığorta

***İcbari tibbi sığortanın tətbiqi təcrübəsi və əhalinin maliyyə yükünün azalması ilə əlaqəsi***

Son dövrlər ölkədə digər istiqamətlərdə olduğu kimi, səhiyyə sahəsində də geniş islahatlar aparılır və bununla bağlı dövlət əhalinin şəxsi ödənişlərini azaltmaq, səhiyyə mütəxəssisləri tərəfindən daha keyfiyyətli xidmətlərin göstərilməsini təşviq etmək niyyətindədir. Əhaliyə, xüsusilə də həssas qrupdan olan əhaliyə (pensiyaçılar, əlilliyi olan şəxslər, qadınlar, uşaqlar və s.) göstərilən tibbi xidmətlərin keyfiyyətinin yüksəldilməsində icbari tibbi sığortanın tətbiqinin xüsusi əhəmiyyəti var.

Dövlət bununla bağlı artıq qanunvericilik bazasını formalaşdırıb, institusional təşkilatlanma işlərini davam etdirməkdədir. AR Prezidentinin 24 noyabr 2016-cı il tarixli 1125 saylı Fərmanı ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi yaradılıb. Agentliyə icbari tibbi sığortanın tətbiqini təmin edən, baza (əsas xidmətlər) zərfi çərçivəsində tibbi xidmətlərin maliyyələşdirilməsi üçün vəsaitləri özündə cəmləşdirən, səhiyyə xidmətlərinin alıcısı olan və bununla bağlı zəruri xərclərin ödənilməsini təmin edən publik hüquqi şəxs statusu verilib. Agentlik yaradılan vaxtdan dərhal sonra Mingəçevir şəhəri, Yevlax və Ağdaş rayonlarının inzibati ərazilərində icbari tibbi sığortanın tətbiqi üzrə pilot layihələri həyata keçirilməkdədir.

Agentliyin 2018-ci il üzrə fəaliyyətinə dair Hesabatında[84] qeyd olunur ki, pilot layihə çərçivəsində göstərilən səhiyyə xidmətləri nəticəsində əhalinin tibbi xərclərlə bağlı maliyyə yükü

[84]İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin 2018-ci il üzrə fəaliyyətinə dair Hesabat. https://its.gov.az/site/assets/files/1533/icbari_tibbi_sigorta_uzr_dovlt_agentliyinin_illik_hesabati_2018.pd

azalıb (Mingəçevir-Yevlax şəhərləri – 19%, Ağdaş – 16%). Belə azalma deyəndə vətəndaşların cibdən ödədikləri ambulator müalicə üçün yazılan dərmanlara və həkimin göndərişi olmadan birbaşa ixtisaslı həkimə müraciət zamanı ödənilən məbləğ nəzərdə tutulur.

Göstərilən xidmətlərdən vətəndaşların məmnunluq dərəcəsi: Mingəçevir-Yevlax şəhərləri üzrə 87%, Ağdaş rayonu üzrə 90% olub. Həmçinin Hesabatda qeyd olunur ki, icbari tibbi sığorta haqqında əhalinin məlumatlılıq dərəcəsi Mingəçevir-Yevlax şəhərləri üzrə 73%, Ağdaş üzrə isə 74% olub. Bundan başqa, qeyd olunan bölgələrdə əhalinin tibbi xidmətlərdən istifadə imkanı Mingəçevir-Yevlax şəhərləri üzrə 72%, Ağdaş üzrə isə 62%-dir. Bu səbəbdən də Agentlik 2017-2018-ci illərdə davamlı olaraq icbari tibbi sığorta haqqında maarifləndirici kampaniyalar, görüşlər, təlimlər təşkil edib, KİV və sosial media vasitəsilə əhalinin məlumatlandırılması işini aparıb.

***Cədvəl 3.*** **Pilot ərazilərdə İcbari Tibbi Sığortanın tətbiqindən sonra cərrahi əməliyyatlarla bağlı əhali və pasiyentlərin maliyyə yükünün azalması üzrə göstəricilər[85]:**

| İTS-nin tətbiqindən sonra cərrahi əməliyyatlarla bağlı əhalinin maliyyə yükünün azalması | Mingəçevir şəhəri | | Yevlax rayonu | | Ağdaş rayonu | |
|---|---|---|---|---|---|---|
| | **Əvvəl** | **Sonra** | **Əvvəl** | **Sonra** | **Əvvəl** | **Sonra** |
| **Əhali** | 59.3 % | 4 % | 61.8 % | 3.1 % | 67.8 % | 13.5 % |
| **Pasiyentlər** | 45.3 % | 0.7 % | 63.3 % | 1.3 % | - | - |

Tibbi sığortanın tətbiqindən sonra əhalinin məmnunluq səviyyəsinin artması, o cümlədən maliyyə yükünün azalması belə tədbirlərin əhalinin, xüsusilə də yaşlıların övladlarından maddi və sosial asılılığının azalmasına gətirib çıxardığını göstərir. Bununla da qız və oğlan övladlarının dəyəri valideynlərinin maddi rifahına verdikləri töhfə ilə ölçülmür. Bu nöqteyi-nəzərdən icbari tibbi sığortanın bütün ölkə ərazisində tətbiqi Azərbaycanda selektiv abortların qarşısının alınmasına birbaşa təsir göstərə bilər.

Hazırda bütün ölkə ərazisində tibbi sığorta icbari deyil. Buna baxmayaraq, bəzi hallarda işəgötürənlər tərəfindən tibbi sığorta təmin olunur və ya belə bir təminat müstəqil şəkildə əldə edilə bilər. "Demoqrafiya və Sağlamlıq Sorğusu, 2011-ci il Hesabatı"nın[86] nəticələrinə görə, səhiyyə xidmətlərindən istifadədə qadınlar xeyli maneə və çətinliklərlə üzləşirlər. Hesabatda qadınların əsas çətinliklərinin həkim yanına getmək üçün ərindən və ya ailənin digər yaşlı üzvündən icazənin alınması, müalicə almaq üçün pulun əldə edilməsi, tibb müəssisəsinin yaşadığı ərazidən uzaqda yerləşməsi, tək getməli olduqları üçün yaranan narahatlıq, nəqliyyata ehtiyacın olması, qadın tibb işçilərinin olmaması və ümumiyyətlə, tibb işçisinin olmaması kimi məsələlərlə bağlı olduğu müəyyən edilib. Sorğuda iştirak edən qadınların əksəriyyəti (79.5%) səhiyyə xidmətlərinin əldə edilməsində bu sadalanan əngəllərdən ən azı birinin ciddi çətinlik yaratdığını göstərib. Qadınların 50.3%-i tibbi xidmətlərin əldə edilməsi ilə bağlı kifayət qədər pul vəsaitinin olmamasını ciddi problem kimi qeyd edib. Təxminən eyni sayda qadın heç bir tibb işçisinin olmadığını göstərib.

[85] İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin 2018-ci il üzrə fəaliyyətinə dair Hesabat.
[86] İctimai Səhiyyə və İslahatlar Mərkəzi (İSİM) [Azərbaycan]. 2013. Demoqrafiya və Sağlamlıq Sorğusu, 2011. Səhiyyə Nazirliyi (SN) [Azərbaycan], Bakı, Azərbaycan

Azərbaycanda “Tibbi sığorta haqqında” Qanun[87] 1999-cu ildə qəbul edilsə də, 2020-ci ilin yanvarında (ayın 1-dən) qüvvəyə minəcək. Qanunda tibbi sığortanın iki forması (icbari və könüllü) müəyyən edilib və xidmətlər zərfi iki hissədən ibarətdir: baza (ilkin səhiyyə xidməti, habelə təcili və təxirəsalınmaz tibbi yardım xidməti) və əlavə hissələr (ixtisaslaşdırılmış tibbi yardım).

Çox müsbət haldır ki, Qanun pensiyaçıların (əmək və sosial), ünvanlı dövlət sosial yardımı alan ailələrin üzvlərinin, AR vətəndaşlığı olan 18 yaşınadək şəxslərin, əyani təhsil alan 23 yaşınadək AR vətəndaşlarının, ərazi poliklinikalarında və qadın məsləhətxanalarında qeydiyyatdan keçmiş hamilə qadınların (doğuşdan sonra 42 gün müddəti də daxildir) xidmətlər zərfinin baza və əlavə hissəsindən dövlət hesabına yararlanmasını nəzərdə tutur. Belə yanaşma, yəni maddi və sosial müdafiə baxımından daha zəif durumda olan bu kateqoriya şəxslərin tam həcmdə tibbi xidmətlərdən yararlanması onların digər ailə üzvlərindən asılılığını azaldacaq.

***<u>Tibbi xidmətlər zərfinin baza və əlavə hissəsindən dövlət hesabına yararlanması nəzərdə tutulmayan digər həssas qruplar</u>***

Qanunla[88] məişət zorakılığı və insan alveri qurbanlarının tibbi xidmətlər zərfinin baza və əlavə hissəsindən dövlət hesabına istifadəsi nəzərdə tutulmayıb. Halbuki digər müvafiq qanunvericilik aktlarında[89] bu qurbanların dövlət səhiyyə sisteminin müəssisələrində ixtisaslaşdırılmış tibbi yardımla pulsuz təmin edilməsi nəzərdə tutulur. Bu səbəbdən də tezliklə müvafiq qanunvericilik aktlarının sinxronizasiyasının aparılması və mövcud qeyri-müəyyənliyin aradan qaldırılması çox vacibdir.

Digər narahatlıq doğuran məqam isə az gəlirli kateqoriyaya aid ailə-kəndli təsərrüfatında çalışanların və işsiz kimi qeydiyyata alınmış şəxslərin də icbari tibbi sığortadan dövlət hesabına yararlanmasının Qanunda nəzərdə tutulmamasıdır. Bu kateqoriyadan olan şəxslərə də pulsuz icbari tibbi sığortanın şamil edilməməsi, xüsusilə yuxarıda qeyd edilən əngəllər ucbatından (icazə almaq məcburiyyəti, pulun olmaması, tibb müəssisəsinin uzaq məsafədə yerləşməsi, nəqliyyat və s.) səhiyyə xidmətlərinə çıxışı məhdud olan qadınları daha çətin və təhlükəli vəziyyətə sala bilər.

**TÖVSİYƏLƏR:**

72) Əhaliyə göstərilən səhiyyə xidmətlərinin keyfiyyətinin artırılması üçün tibb müəssisələrinin sahələr üzrə ixtisaslaşdırılması və işçi heyətinin davamlı ixtisasartırma kurslarına cəlb edilməsinə dair işlər sürətləndirilsin;
73) İcbari tibbi sığorta haqqında əhalinin məlumatlılığının artırılması üçün davamlı maarifləndirici kampaniyalar, görüşlər aparılsın, KİV və sosial media vasitələri, o cümlədən mobil operatorların SMS imkanlarından istifadə edilsin;
74) Əhalinin, xüsusilə də bütün bölgələr və ucqar kənd rayonlarında yaşayan əhalinin tibbi xidmətlərdən istifadə imkanlarının artırılması üçün təxirə salınmadan lazımi tədbirlər görülsün;
75) Qadınların keyfiyyətli səhiyyə xidmətlərindən istifadə imkanlarının təminatı üçün təxirə salınmadan lazımi tədbirlər, o cümlədən mobil tibbi xidmətlərin göstərilməsi, yeni tibb müəssisələrinin yaradılması, qadın tibb işçilərinin sayının artırılması və s. təşkil edilsin;

---

[87] “Tibbi sığorta haqqında” Azərbaycan Respublikasının Qanunu. 1999. № 725-IQ. http://www.e-qanun.az/framework/80
[88] “Eyni mənbə.
[89] “Məişət zorakılığının qarşısının alınması haqqında” Qanun (Maddə 15) və “Əhalinin sağlamlığının qorunması haqqında” Qanun ilə (Maddə 17-1).

76) “Tibbi sığorta haqqında” Qanuna məişət zorakılığı qurbanları və insan alveri qurbanlarının tibbi xidmətlər zərfinin baza və əlavə hissəsindən dövlət hesabına istifadəsini nəzərdə tutan yeni maddə əlavə edilsin.

## 3.4 Ailə planlaması məsələlərinin tənzimlənməsi

***Selektiv abortlarla mübarizədə dövlət nəzarəti***

Şərqi və Mərkəzi Avropa, eləcə də keçmiş Sovet İttifaqının digər ölkələrində olduğu kimi, müasir Azərbaycanda da abortla bağlı qanunvericilik dünyada ən liberal olanlar sırasındadır. “Əhalinin sağlamlığının qorunması haqqında” Azərbaycan Respublikasının Qanununa[90] əsasən, qadının analıq barədə məsələni təkbaşına həll etmək hüququ var. Qadınlar öz arzuları ilə hamiləliklərinin 12-ci həftəsinə qədər, müəyyən sosial səbəblərə görə 22-ci həftəyə qədər, eləcə də həyat üçün təhlükə yarandığı hallarda (tibbi göstərişlərə əsasən) istənilən vaxt abortu seçə bilərlər. Tibbi və sosial göstərişlərin siyahıları AR Nazirlər Kabinetinin “Əhalinin sağlamlığının qorunması haqqında” AR Qanununun tətbiq edilməsi ilə bağlı bəzi məsələlər haqqında” 12 yanvar 1999-cu il tarixli, 5 saylı Qərarı ilə müəyyənləşdirilib. Sözügedən sosial göstərişlərin siyahısı geniş olmaqla yanaşı, indiki vaxtda elə də aktual olmayan səbəblərlə əsaslandırılıb: məsələn, çoxuşaqlılıq (5 və daha artıq uşaq), qadının qaçqın və ya məcburi köçkün statusunun olması, müəyyənləşdirilmiş qaydalar əsasında qadının və yaxud onun ərinin işsiz hesab edilməsi, mənzilin olmaması, yataqxanada, şəxsi evdə, kirayədə yaşama. Nəzərə alsaq ki, hazırkı texnoloji aparatların köməyilə dölün cinsini yalnız hamilələyin 12 həftəsindən sonrakı dövrdə müəyyənləşdirmək mümkün olur, onda Qanunda belə sosial göstərişlərə yer verilməsinin gender əsaslı selektiv abortların çoxalmasına təsir edəcəyi istisna deyil.

Səhiyyə Nazirliyində keçirdiyimiz görüşdə müəyyən edilib ki, daxili nəzarət və statistikanın toplanılması zamanı tibb müəssisələri tərəfindən abortlarla bağlı doldurulub Nazirliyə göndərilən ***F66 Formada*** abortların sosial səbəbləri göstərilmir. Həmçinin nə tibb müəssisəsi, nə də ki həkim tərəfindən sosial səbəbləri müəyyən edən sənəd tələb olunur. Nəticədə selektiv abortların sayını ölçmək olmur ki, bu da sonradan dəlillərə əsaslanan məlumatların toplanılması, qiymətləndirilməsi və cavab tədbirlərinin görülməsi üçün çətinlik yaradır.

İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi əməkdaşının bildirdiyinə görə, 2020-ci il yanvarın 1-dən bütün ölkə ərazisində tətbiq edilməyə başlanan icbari tibbi sığorta üzrə texniki işlər çərçivəsində hər kəsə aid şəxsi məlumat bazası formalaşdırılır və hər kəsin sağlamlığına dair şəxsi kartı olacaq. Lakin hazırda formalaşdırılan şəxsi kart sistemində abortlar üzrə sosial göstərişlərin qeyd edilməsinə dair məlumat bölməsi yoxdur. Yaxşı olardı ki, Agentlik qadınların şəxsi məlumat bazasında sağlamlığa dair kart bölməsinə onların keçirdiyi abortlar, o cümlədən sosial göstərişlər səbəbindən keçirdiyi abortlar və onları təsdiq edən sənədlərlə bağlı məlumatları da daxil etsin.

***Ailə planlamasında hərtərəfli yanaşmanın vacibliyi***

“IMAGES” 2018 Keyfiyyət Sorğusundan əldə edilən məlumatlara görə, ölkədə ailə planlamasını (məsələn: uşaqların ailədə sayı və ya hamiləliklərarası müddət) müzakirə edən ər-arvad cütlüyünün sayı olduqca azdır. Sorğuda iştirak edənlərin təxminən yarısının ailə planlaması ilə bağlı heç bir məlumatı yoxdur. Həmçinin qoruyucu vasitələrdən istifadə imkanları və bu barədə

---

[90]“Əhalinin sağlamlığının qorunması haqqında” Azərbaycan Respublikasının Qanunu. 1997. № 360-IQ. http://www.e-qanun.az/framework/4078

qərarvermədə kişilər qadınlarla müqayisədə daha çox söz sahibidirlər. Bundan başqa, kişilərin yarıdan, qadınların isə 40%-dən çoxu hesab edir ki, onların yaşadıqları rayonda və ya kənddə "qoruyucu vasitə almaq ayıbdır". Artıq bir neçə ildir ki, ölkə ərazisində kontraseptivlərin pulsuz paylanması dayandırılıb. Növbəti ildən ölkə üzrə tətbiq edilən icbari tibbi sığorta çərçivəsində ailə planlamasına dair tədbirlərin görülməsi nəzərdə tutulmayıb. Eskpertlərin fikrincə, qadın və doğulan uşaqların sağlamlığının qorunması üçün ilk növbədə ailə planlaması üzrə işlər təkmilləşdirilməli, nəhayət, "Reproduktiv sağlamlıq haqqında" Qanun qəbul edilməlidir. Bu məsələ ilə bağlı mətbuatda verilən məlumatlara[91] görə, bəzi maddələri (surroqat analıq və sperma bankı) ləğv edilməklə "Reproduktiv sağlamlıq haqqında" Qanun layihəsi Milli Məclisin payız sessiyasında müzakirəyə çıxarılacaq.

Reproduktiv sağlamlıq haqqında qanunun olmamasından narahatlığını bildirən CEDAW Komitəsi öz yekun müşahidələrində[92] qeyd edib ki, Azərbaycanda hələ də abortlar, xüsusilə də selektiv abortlar ailə planlamasında əsas vasitə olaraq qalır. Əhali arasında müasir kontraseptivlərdən istifadənin çox aşağı olması (xüsusilə də kənd rayonlarında) və ixtisaslaşmış tibb işçilərinin azlığı narahatlıq doğuran hallardır. CEDAW Komitəsi qeyd olunan çatışmazlıqların aradan qaldırılması üçün dövləti müvafiq addımlar atmağa çağırıb.

## TÖVSİYƏLƏR:

77) "Reproduktiv sağlamlıq haqqında" Qanun qəbul olunsun və icrası təmin edilsin;
78) Reproduktiv Sağlamlıq və Ailə Planlaması üzrə ölkə proqramı qəbul olunsun və icrası təmin edilsin;
79) Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi ilə bağlı bəzi məsələlər haqqında" 12 yanvar 1999-cu il tarixli 5 saylı Qərarına əsasən, hamiləliyin süni pozulmasına dair müəyyən edilmiş sosial göstərişlərin siyahısına yenidən baxılsın;
80) Qadınların sağlamlığına dair digər məlumatlarla yanaşı, keçirdiyi abortlar, o cümlədən sosial göstərişlər səbəbindən keçirdiyi abortlar və onları təsdiq edən sənədlərlə bağlı məlumatlar qadınların Sağlamlığa dair şəxsi kart sisteminə inteqrasiya edilsin;

*<u>Ailə planlaması ilə bağlı CEDAW Komitəsinin Azərbaycan hökumətinə tövsiyələri:</u>*

81) Əhali arasında müasir kontraseptiv vasitələrdən istifadə barədə təşviqat işləri aparılsın;
82) Təhsil müəssisələrində, xüsusilə də məktəblərdə yaş faktorları nəzərə alınmaqla ailə planlaşdırılması və cinsi tərbiyə haqqında maarifləndirmə işləri aparılsın;
83) Əhalinin reproduktiv sağlamlığı və ailə planlaşdırılması haqqında qanun gecikdirilmədən qəbul edilsin.

[91] Oxu.az xəbər portalı. https://ru.oxu.az/society/329278
[92] CEDAW, Azərbaycan üçün Tövsiyələr, 2015-ci il. https://tbinternet.ohchr.org/_layouts/15/treatybodyexternal/Download.aspx?symbolno=CEDAW/C/AZE/CO/5&Lang=En

# TÖVSİYƏLƏR

## 1.1. Qadınların mülkiyyət hüquqları

1) Boşanma zamanı himayəsində yetkinlik yaşına çatmayan uşaqları olan şəxslərin mənafeyinin və sosial ədalət prinsipinin təmin edilməsi üçün məhkəmə təcrübəsinin təhlilinin aparılması və Ali Məhkəmə Plenumunun qərarı ilə məsələnin həlli üçün məhkəmələr tərəfindən ən yaxşı təcrübənin tövsiyə edilməsi faydalı olar;
2) Birgə nikah dövründə əldə edilmiş avtonəqliyyat vasitələrinin alqı-satqısı zamanı ərin/arvadın rəsmi razılığının tələb edilməsi üzrə müvafiq qanun və qaydalara əlavə/dəyişiklik edilsin;
3) Şəxsi pay torpaqlarına dair dövlət aktı olan şəxslərin mülkiyyət hüquqlarının dövlət qeydiyyatını sürətləndirmək məqsədilə qeydiyyat xərcləri (rüsum və xidmət haqqı) dövlət büdcəsi hesabına təmin edilsin (və ya onun bir hissəsi);
4) Qeydiyyatı üçün hüquqi əsasları olan sənədsiz daşınmaz əmlakın (mənzil, həyət evi, qeyri-yaşayış sahəsi, həyətyanı və pay torpaq sahələri, bağlar və s.) dövlət qeydiyyatını sürətləndirmək məqsədilə 2 illik dövlət proqramı hazırlansın və xərclər (rüsum və xidmət haqqı) dövlət büdcəsi hesabına qarşılansın (və ya onun bir hissəsi);
5) Özbaşına tikililərə mülkiyyət hüququnun formalaşması və əmlak sahiblərinin hüquqi müdafiəsi üçün gender həssaslı müvafiq qanun layihəsi qəbul edilsin və onun icra mexanizmi yaradılsın;
6) Tikilən yeni çoxmənzilli binalardakı mənzil paylarının Dövlət Reyestr Xidmətində məcburi qeydiyyat məsələsi bütün növ hüquqi şəxslərin (MTK-lar, MMC-lər) üzərinə məcburi vəzifə kimi qoyulsun və bu vəzifə yerinə yetirilmədiyi təqdirdə cəza tədbirləri üçün müvafiq mülki və inzibati qanunvericiliyə əlavə/dəyişikliklər edilsin;
7) 3, 4 və 5-ci tövsiyələrdə nəzərdə tutulan tədbirlərin icrasında qadınların mülkiyyət hüququ, o cümlədən birgə mülkiyyət hüquqlarının təmin olunmasında gender cəhətdən həssas yanaşma tətbiq edilsin, bütün lazımi tədbirlər əvvəlcədən planlaşdırılıb həyata keçirilsin;
8) Əmlakın dövlət qeydiyyatı üçün sənədlərin təqdim edilməsinin 6 aydan çox yubadılmasına görə inzibati cərimələrin tətbiqi üzrə qanunvericiliyə əlavələr edilsin, əhalinin kütləvi məlumatlandırılması aparılsın;
9) Dövlət Reyestr Xidmətinin nəzdində qadın və kişilərin mülkiyyəti barədə dəqiq, əhatəli və cinslər üzrə təsnifatlanmış məlumat bazası yaradılsın;
10) Dövlət Reyestr Xidməti və onun ərazi idarələrində vətəndaşlarla birbaşa ünsiyyətdə olan əməkdaşlara gender cəhətdən həssas xidmətlərin göstərilməsi ilə bağlı təlimlər keçirilsin;
11) Qadınların əmlak hüquqlarının həyata keçirilməsi və bu hüquqların həyata keçirilməsinə mane olan halların aradan qaldırılması üzrə əhali arasında geniş ictimai maarifləndirmə kampaniyaları aparılsın.

## 1.2. Qadınların yaşayış yeri üzrə qeydiyyatı

12) Sənədsiz daşınmaz əmlakların qeydiyyatını sürətləndirmək və vətəndaşların daimi yaşayış yeri üzrə qeydiyyatı məsələlərinin qısa zamanda həlli məqsədilə hökumət tərəfindən bütün lazımi tədbirlərin icrası təmin edilsin;

13) Sosial kirayə müqaviləsi əsasında verilən yaşayış sahələrindən, eləcə də xüsusi təyinatlı mənzil fondunun yaşayış sahələrindən istifadə hüququnun kirayəçinin ərinə/arvadına məxsusluğu Mənzil Məcəlləsinin müvafiq maddələrində aydın şəkildə qeyd edilsin.

## 1.3. Soyadın və uşağın valideynlərinin kimliyinin müəyyən edilməsində gender məsələləri

14) Doğum haqqında şəhadətnamədə, vətəndaşın şəxsiyyət vəsiqəsində və ümumvətəndaş pasportunda göstərilən məlumatlarda ad və soyadla yanaşı yalnız ata adının qeyd olunması təcrübəsinin aradan qaldırılması üçün müvafiq qanunvericilik aktlarına əlavə/dəyişikliklər edilsin.

## 1.4. Qadınların vərəsəlik hüquqları

15) Qız övladlarının oğlan övladları ilə bərabər vərəsəlik hüququnun olması və miras əmlakdan bərabər pay alması, əmlakın naturada bölünməsi mümkün olmadığı təqdirdə onun dəyərinin əvəzində təzminat tələb etmək hüququna dövlətin təminat verdiyinə dair davamlı kütləvi maarifləndirmə işləri aparılsın;
16) Qeydiyyatsız daşınmaz əmlaka (MTK-lar tərəfindən yeni tikilən mənzil payı, sənədsiz həyət evi, qeyri-yaşayış sahəsi, torpaq sahəsi və s.) vərəsəlik məsələsinin həlli üzrə qanunvericiliyə tənzimləyici normalar əlavə edilsin;
17) Vərəsələr barədə məlumat və sənədlərin toplanılması vəzifəsi “Notariat haqqında” Qanunla notariusların üzərinə qoyulsun;
18) Mirasın açıldığı yerdə olmayan vərəsələrin axtarılması üçün notariusların görməli olduğu tədbirlər aydın şəkildə “Notariat hərəkətlərinin aparılması qaydaları haqqında Təlimat”da göstərilsin;
19) Notariuslar və notariat ofislərinin vətəndaşlarla birbaşa ünsiyyətdə olan əməkdaşları gender cəhətdən həssas xidmətlərin göstərilməsi ilə bağlı təlimlərə cəlb edilsin;
20) Qadınların vərəsəlik hüquqları və bu hüquqların həyata keçirilməsinə mane olan halların aradan qaldırılması üzrə ictimai maarifləndirmə kampaniyaları keçirilsin.

## 2.1. Karyera inkişafında qeyri-bərabərlik (o cümlədən gender əsaslı ayrı-seçkilik və seksual qısnama)

21) Karyera inkişafında (işə qəbul, işdə irəli çəkilmək, peşə hazırlığı, yeni ixtisasa yiyələnmək və ixtisasartırmada) ayrı-seçkiliyə yol verməyə görə işəgötürənlər üçün İXM-də hüquqi məsuliyyət nəzərdə tutulsun və monitorinq aparılsın;
22) Seksual qısnamanın qarşısının alınması və seksual qısnama törətmiş şəxslərin məsuliyyətə cəlb edilməsi ilə bağlı İXM-də hüquqi məsuliyyətlər nəzərdə tutulsun və monitorinq aparılsın;
23) Əmək münasibətləri prosesində işçiyə vurduğu mənəvi ziyana görə işəgötürənlərin maddi məsuliyyət hissəsində “seksual qısnama” əməllərinə görə tam məsuliyyət daşıması ƏM-in müvafiq maddəsinə əlavə edilsin;
24) Əmək münasibətləri prosesində işəgötürənlə qarşılıqlı razılaşma əsasında natamam iş vaxtı və ya iş həftəsinin müəyyən edilməsinə hüququ olan işçilərin dairəsində gender bərabərliyinin təmini üçün ƏM-nə dəyişiklik edilsin;
25) “Qadın əməyinin tətbiqi qadağan olunan, əmək şəraiti zərərli və ağır olan istehsalatların, peşələrin (vəzifələrin), habelə yeraltı işlərin Siyahısı”nın təsdiq edilməsi haqqında

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 20 oktyabr 1999-cu il tarixli 170 saylı qərarı ləğv edilsin;

26) Həm ƏM-də, həm də Gender haqqında Qanunda dolayı ayrı-seçkilik anlayışının izahı verilsin;
27) Əmək münasibətləri ilə bağlı məsələlərdə müxtəlif iş kateqoriyalarında daha az təmsil olunan cinsin işə cəlb edilməsi üçün tədbirlərin görülməsi vəzifəsi qanunla işəgötürənlərin üzərinə qoyulsun;
28) İş yerlərində gender bərabərliyinin təşviqi və təmini üzrə işəgötürənlərin gördüyü cari işlərin vəziyyəti və icrası, planlaşdırılan tədbirlərlə bağlı hesabatlılıq mexanizmi yaradılsın;
29) Peşə hazırlığında ənənəvi olmayan sahələrdə gender bərabərliyinin təşviqində dövlətin siyasi iradəsi aydın şəkildə müvafiq hüquqi sənədlərdə əks etdirilsin;
30) Məşğulluqla bağlı proqramların hazırlanması və həyata keçirilməsi mərhələlərində gender bərabərliyinin nəzərə alınması və gender cəhətdən həssas yanaşmanın tətbiqi müvafiq icra hakimiyyəti orqanlarının hüquqi öhdəliyi kimi müəyyən edilsin;
31) Özünüməşğulluq proqramlarının icrası üzrə gender bərabərliyi və gender cəhətdən həssas yanaşma prinsiplərinin qorunması vəzifəsi müvafiq hüquqi sənədlərdə qeyd olunsun və icrası təmin edilsin;
32) Gender bərabərliyinə əsaslanan sahibkarlığın dəstəklənməsi və qadınlar arasında məşğulluğun artırılması məqsədilə Məşğulluq Strategiyasında ayrıca tədbirlər müəyyən edilsin;
33) Qadınların sahəvi assosiasiyalara üzvlüyü və idarəçiliyində aktiv iştirakının təşviq və təmin edilməsi öhdəlik olaraq Məşğulluq Strategiyasında qeyd olunsun;
34) Məşğulluq sahəsində dövlət nəzarəti həyata keçirən orqana qanun pozuntusu hallarında müvafiq inzibati məcburetmə tədbirlərini görmək səlahiyyəti verilsin;
35) Məşğulluq sahəsində maarifləndirmə kampaniyalarında gender bərabərliyini təşviq edən və ayrı-seçkiliyin yolverilməzliyi barədə də mövzular əhatə olunsun.

*Məşğulluqda bərabər imkanları təmin etməklə bağlı CEDAW Komitəsinin Azərbaycan hökumətinə tövsiyələri:*

36) Qadınların sosial, iqtisadi və siyasi həyatda fəal iştirakının üstünlüklərini (müsbət tərəflərini) göstərməklə gender üzrə stereotiplərin aradan qaldırılmasının əhəmiyyəti barədə radio, televiziya və çap mediası vasitəsilə əhalinin məlumatlılığı artırılsın;
37) Karyeranın inkişafı ilə əlaqədar müvafiq təlimat vasitələri hazırlansın, təhsildə və karyera seçimində qızların və gənc qadınların qeyri-ənənəvi sahələrə üstünlük vermələri təşviq edilsin;
38) Qadınların formal məşğulluqda iştirakını artırmaq və peşə bölgüsündə qadınlar və kişilər arasında, o cümlədən horizontal və vertikal (üfüqi və şaquli) struktur bərabərsizliyinin aradan qaldırmasına yönəlmiş səyləri gücləndirmək üçün tədbirlər görülsün;
39) Genderdən asılı məvacib fərqini azaltmaq və aradan qaldırmaq məqsədi ilə eyni dəyərli işə görə bərabər əmək haqqı prinsipinin həyata keçirilməsi üçün tədbirlər görülsün, bütün sektorlarda kişi və qadınların əmək haqları müntəzəm olaraq nəzərdən keçirilsin.

## 2.2. Valideyn məzuniyyəti siyasəti

40) ƏM-in 91-ci, 117-ci, 126-cı və 133-cü maddələrində gender və ailədə hüquq bərabərliyi prinsiplərinə əsasən, “qadınlar” ifadəsi dəyişdirilərək “valideyn”lə əvəz edilsin;
41) Kənd təsərrüfatında çalışan işçilərin məşğulluq reyestrində qeydiyyatı aparılsın;

42) Kənd təsərrüfatı istehsalında çalışan qadınlara hamiləliyə və doğuşa görə məzuniyyətin verilməsinin (ƏM-in 125.2-ci maddəsi) təcrübədə tətbiqi təmin edilsin;
43) Arvadlarının uşaq dünyaya gətirməsi ilə əlaqədar kişilərə atalıq məzuniyyətinin icbari və ödənişli əsaslarla olması, o cümlədən məzuniyyət müddətinin uzadılması təmin edilsin.

*CEDAW Komitəsinin valideyn məzuniyyəti ilə bağlı Azərbaycan dövlətinə tövsiyələri:*

44) Uşaq müəssisələrinin sayının artırılması ilə bərabər, icbari atalıq məzuniyyətini tətbiq etməklə qadın və kişilər üçün peşəkar və şəxsi həyat arasında tarazlığın asanlaşdırılması;
45) Karyerada hamiləlik, yarımştat məşğulluq kimi hallar səbəbindən yaranan fasilələr və məvaciblərdəki genderdən asılı olan fərqlərin qadınların pensiyalarına və digər sosial təminat imtiyazlarına mənfi təsirinin aradan qaldırılması.

## 2.3. Qadınların sahibkarlıqda iştirakı, dövlət dəstəyi və imtiyazlardan istifadə

46) KOS-un maliyyə, maddi, elmi-texniki və informasiya resurslarından istifadə imkanlarını əldə etmələri üçün güzəştli şəraitin yaradılmasında qadınların ehtiyacları nəzərə alınaraq gender cəhətdən həssas yanaşma tətbiq edilsin;
47) Kadrların hazırlanması, yenidən hazırlanması və ixtisaslarının artırılması sahəsində KOS-lara kömək göstərilməsi zamanı qadınların ənənəvi olmayan, perspektvli və yüksək gəlirli sahələrə istiqamətlənməsi təşviq edilsin;
48) KOS subyektlərinin xarici-iqtisadi fəaliyyətinə, o cümlədən xarici tərəf müqabilləri ilə istehsalat, maliyyə-kredit, ticarət, elmi-texniki və informasiya əlaqələrinin inkişafına kömək göstərilməsində qadınların ehtiyacları nəzərə alınaraq gender cəhətdən həssas yanaşma tətbiq edilsin;
49) Qadın fermerlərin bazara çıxışının asanlaşdırılması üçün kiçikhəcmli texnika, maşın və avadanlıqlarla təmin olunması üzrə xüsusi proqramlar və imtiyazlar/güzəştlər müəyyən edilsin;
50) Aqrar sahədə ali və peşə təhsilinin inkişafı, həmçinin elmi tədqiqatların aparılmasının təşviqi mexanizminin hazırlanması zamanı qadınların xüsusi proqramlar, təqaüdlər və digər müfaviq tədbirlərdən bəhrələnmələri təmin edilsin;
51) Ekoloji təmiz məhsul istehsal edən fermerlərin formalaşdırılmasına dair tədbirlər çərçivəsində pilot təsərrüfatların qadın fermerlərin sahələrində yaradılması nəzərə alınsın;
52) Mərkəzləşdirilmiş KOS İnkişafı Agentliyinin idarəetməsində gender balansı gözlənilsin;
53) Müvafiq sahəyə dair strategiya və ya dövlət proqramının hazırlanmasına gender üzrə mütəxəssislər cəlb edilsin və müvafiq qurumlarla (məsələn, Qadın Sahibkarlar Assosiasiyası) məsləhətləşmələr aparılsın;
54) Qadın Sahibkarlar Assosiasiyasının peşəkar mütəxəssisləri və üzvləri konsaltinq xidmətlərin göstərilməsi prosesinə cəlb edilsin;
55) Kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi və KOS Strateji Yol Xəritəsinin qadınlarla bağlı tədbirlərin icrasını təmin etmək üçün ayrıca “Qadın KOS-un İnkşafı üzrə Dövlət Proqramı” hazırlansın və icrasına maliyyə resursları ayırılsın;
56) Mövcud olan və yaradılması nəzərdə tutulan sahəvi assosiasiyalarda qadın sahibkarların da aktiv iştirakı və idarəçilikdə təmsil olunması təmin edilsin.

## 2.4. Qadınların təhsili və yüksək gəlirli peşə sahələrinə yönləndirilməsi

57) Ənənəvi gender rolları və peşə seçimlərini təbliğ edən materiallar (şəkil, mətn, oyun və s.) tədris proqramından çıxarılsın;

58) Ümumtəhsil və orta ixtisas təhsilinin bütün mərhələlərinə aid tədris proqramlarına gender bərabərliyini təşviq edən materialların salınması təmin edilsin;
59) Qadınların ənənəvi olmayan və gəlir gətirən peşə ixtisaslarına cəlb olunması üçün ölkə səviyyəsində təşviqat tədbirləri aparılsın və dövlət sifarişi əsasında illik kvota müəyyən edilsin;
60) Gənc qızların texniki və gəlir gətirən peşə sahələri üzrə təhsil alması üçün təqaüd proqramları yaradılsın;
61) Peşə təhsili üzrə ixtisasların müəyyənləşdirilməsində dövlət qurumları ilə yanaşı, özəl sektorun aparıcı tərəfləri və Qadın Sahibkarlar Assosiasiyası ilə əməkdaşlıq edilsin;
62) Dövlət hesabına peşə təhsili alan sosial müdafiəyə xüsusi ehtiyaclı şəxslərin siyahısına insan alverindən zərərçəkmiş şəxslər, onların övladları da əlavə edilsin.

## 3.1. Yaşlıların sosial müdafiəsi

63) Sığorta-pensiya sisteminin beynəlxalq standartlara uyğunlaşdırılması və pensiyaçıların sosial müdafiəsinin gücləndirilməsi üçün hökumət təxirə salmadan görülən işləri davam etdirsin və yaşlı insanların layiqli həyat yaşamalarını təmin etmək üçün pensiyaların minimum məbləğini artırsın;
64) Əmək pensiyası hüququnun əldə edilməsində, habelə güzəştli şərtlərlə əldə edilməsində qadın və kişilər üçün bərabər yaş və əmək stajı şərtlərinin tətbiq edilməsi üzrə müvafiq qanunlara dəyişikliklər edilsin;
65) Beş və daha çox uşaq dünyaya gətirib onları 8 yaşınadək tərbiyə etmiş qadınların əmək pensiyası hüququnun əldə edilməsindəki yaş həddinin azaldılması konsepsiyası müvafiq qanunvericilik aktlarında ləğv edilsin;
66) Sağlamlıq imkanları məhdud uşağını 8 yaşınadək tərbiyə etmiş anaların, habelə ana vəfat etdiyinə yaxud analıq hüququndan məhrum edildiyinə görə üç və daha çox uşağı və ya sağlamlıq imkanları məhdud övladını növbəti nikah bağlamadan təkbaşına 8 yaşınadək böyüdən kişilərin əmək pensiyası hüququnun əldə edilməsindəki yaş həddinin azaldılması konsepsiyası müvafiq qanunvericilik aktlarında ləğv edilsin, gender cəhətdən neytral "tərbiyə edən/böyüdən valideyn" terminləri istifadə olunsun;
67) Güzəştli şərtlərlə yaşa görə əmək pensiyası hüququnun əldə edilməsində qadın və kişilər üçün bərabər şərtlərin müəyyən olunması üçün müvafiq qanunvericilik aktlarına əlavə/dəyişikliklər edilsin.

## 3.2. Yaşlı Əhaliyə Dəstək Proqramları

68) 65 yaşdan yuxarı vətəndaşlara Azərbaycan Respublikasının ərazisində şəhər/qəsəbələr daxili sərnişin nəqliyyatının bütün növlərindən (taksidən və şəhərlərarası nəqliyyatdan başqa) pulsuz istifadə hüququnun verilməsi üçün müvafiq qanunvericilik aktlarına əlavələr edilsin;
69) 65 yaşdan yuxarı vətəndaşlara Azərbaycan Respublikasının ərazisində şəhərlərarası nəqliyyatın bütün növlərindən (avtobus, dəmiryol və hava nəqliyyatı) güzəştli (ən azı 50% güzəştlə) istifadə hüququnun verilməsi üçün müvafiq qanunvericilik aktlarına əlavələr edilsin;
70) 65 yaşdan yuxarı vətəndaşlara kommunal ödənişlərdə güzəştlərin edilməsi və belə güzəştlərin müavinətlərlə əvəz olunaraq onlara nağdsız qaydada aylıq ödənilməsi barədə müvafiq qanunvericilik aktlarına əlavələr edilsin;

71) Hökumət yaşlı əhaliyə dəstək proqramının hazırlanması və proqram çərçivəsində xüsusi tədbirlərin görülməsi (gəlir vergisindən azad edilmə, xüsusi əmanət sxemlərinin təklif olunması, təhsil imtiyazları, icmalarda fəaliyyətə cəlb edilmə və s.) üzrə müvafiq addımlar atsın.

## 3.3. Tibbi sığorta

72) Əhaliyə göstərilən səhiyyə xidmətlərinin keyfiyyətinin artırılması üçün tibb müəssisələrinin sahələr üzrə ixtisaslaşdırılması və işçi heyətinin davamlı ixtisasartırma kurslarına cəlb edilməsinə dair işlər sürətləndirilsin;
73) İcbari tibbi sığorta haqqında əhalinin məlumatlılığının artırılması üçün davamlı maarifləndirici kampaniyalar, görüşlər aparılsın, KİV və sosial media vasitələri, o cümlədən mobil operatorların SMS imkanlarından istifadə edilsin;
74) Əhalinin, xüsusilə də bütün bölgələr və ucqar kənd rayonlarında yaşayan əhalinin tibbi xidmətlərdən istifadə imkanlarının artırılması üçün təxirə salınmadan lazımi tədbirlər görülsün;
75) Qadınların keyfiyyətli səhiyyə xidmətlərindən istifadə imkanlarının təmin edilməsi üçün təxirə salınmadan lazımi tədbirlər, o cümlədən mobil tibbi xidmətlərin göstərilməsi, yeni tibb müəssisələrinin yaradılması, qadın tibb işçilərinin sayının artırılması və s. təşkil edilsin;
76) “Tibbi sığorta haqqında” Qanuna məişət zorakılığı qurbanları və insan alveri qurbanlarının tibbi xidmətlər zərfinin baza və əlavə hissəsindən dövlət hesabına istifadəsini nəzərdə tutan yeni maddə əlavə edilsin.

## 3.4 Ailə planlaması məsələlərinin tənzimlənməsi

77) “Reproduktiv sağlamlıq haqqında” Qanun qəbul olunsun və icrası təmin edilsin;
78) Reproduktiv Sağlamlıq və Ailə Planlaması üzrə ölkə proqramı qəbul olunsun və icrası təmin edilsin;
79) Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Əhalinin sağlamlığının qorunması haqqında Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi ilə bağlı bəzi məsələlər haqqında” 12 yanvar 1999-cu il tarixli 5 saylı Qərarı ilə hamiləliyin süni pozulmasına dair müəyyən edilmiş sosial göstərişlərin siyahısına yenidən baxılsın;
80) Qadınların sağlamlığına dair digər məlumatlarla yanaşı, keçirdiyi abortlar, o cümlədən sosial göstərişlər səbəbindən keçirdiyi abortlar və onları təsdiq edən sənədlərlə bağlı məlumatlar qadınların Sağlamlığa dair şəxsi kart sisteminə inteqrasiya edilsin;

*Ailə planlaması ilə bağlı CEDAW Komitəsinin Azərbaycan hökumətinə tövsiyələri:*

81) Əhali arasında müasir kontraseptiv vasitələrdən istifadə barədə təşviqat işləri aparılsın;
82) Təhsil müəssisələrində, xüsusilə də məktəblərdə yaş faktorları nəzərə alınmaqla ailə planlaşdırılması və cinsi tərbiyə haqqında maarifləndirmə işləri aparılsın;
83) “Reproduktiv sağlamlığın qorunması və ailə planlaması haqqında” Qanun gecikdirilmədən qəbul edilsin.

# İSTİNADLAR


- "Azərbaycanda gender bərabərliyi və gender münasibətləri: mövcud vəziyyət və imkanlar. Kişilərin Gender Bərabərliyinə Münasibətinə dair Tədqiqatın (IMAGES) nəticələri üzrə Hesabat". UNFPA/AQUPDK, 2018. Bakı, Azərbaycan
- İctimai Səhiyyə və İslahatlar Mərkəzi (İSİM) [Azərbaycan]. 2013. Demoqrafiya və Sağlamlıq Sorğusu, Səhiyyə Nazirliyi, 2011. Bakı, Azərbaycan (DHS 2011)
- Dövlət Statistika Komitəsinin Hesabatları, https://www.stat.gov.az/menu/7/
- Demoqrafik Proqnozlar, 2014-2050: Azərbaycanda doğulan uşaqların cins nisbətinin müxtəlif ssenariləri. UNFPA Azerbaijan, 2018
- Azərbaycanda doğulan uşaqların cins nisbətinin pozulmasına zəmin yaradan mexanizmlər: keyfiyyət və kəmiyyət əsaslı tədqiqat. UNFPA Azerbaijan, 2018
- Azərbaycanda özəl sektorda qadınlar: imkanlar və çətinliklər. UNFPA, UNDP (Aysel Vəzirova, 2018)
- Azərbaycan Respublikasında cinsi və reproduktiv sağlamlıq və hüquqlar üzrə saziş qurumlarının tövsiyələrinin icra vəziyyətinin qiymətləndirilməsi. UNFPA Azerbaijan, 2015
- Preventing More "Missing Girls". A Review of Policies to Tackle Son Preference. World Bank, 2018
- Hortaçsu, Nuran, Sharon Ş. Baştuğ and Ovezdurdi B. Muhammetberdiev. 2001. "Desire for Children in Turkmenistan and Azerbaijan: Son Preference and Perceived Instrumentality for Value Satisfaction." *Journal of Cross-Cultural Psychology*32 (3): 309–21. https://doi.org/10.1177/0022022101032003004.
- CEDAW, Azərbaycan üçün Tövsiyələr, 2015
- Azərbaycan qanunvericiliyinin gender ekspertizası. 1999. «Gender inkişafda» UNDP layihəsi çərçivəsində keçirilmişdir. Müəllif: R.İbrahimbəyova
- European Institute for Gender Equality, Gender Impact Assessment, 2016.
- Universal Periodic Review – Azerbaijan, 2013
- Universal Periodic Review – Azerbaijan, 2018
- Explanatory Report, the Council of Europe Convention on preventing and combating violence against women and domestic violence. Istanbul, 11.V.2011
- Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında Azərbaycan Respublikası Qanununun təhlili, 2014 USAID
- Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyində Sahibkarlığın İnkişafı Fondunun 2017-ci il üzrə hesabatı. http://edf.gov.az/uploads/Statistik_melumatlar/Illik_hesabatlar/Hes_2017.pdf
- Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin 2018-ci il üzrə Hesabatı. http://sosial.gov.az/uploads/images/image_750x_5c62aca0358af.pdf
- Sənədsiz evlər probleminin həlli üçün yeganə çıxış yolu. Jurnalist araşdırması. Modern.az https://modern.az/az/news/144171

- Tengiz Verulava, Pension System in South Caucasus. 2017. https://www.researchgate.net/publication/327971945_Pension_System_in_South_Caucasus
- İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin 2018-ci il üzrə fəaliyyətinə dair Hesabat. https://its.gov.az/site/assets/files/1533/icbari_tibbi_sigorta_uzr_dovlt_agentliyinin_illik_hesabati_2018.pdf
- Azərbaycan Respublikasının Ailə Məcəlləsi. 1999. N. 781-IQ
- Azərbaycan Respublikasının Mülki Məcəlləsi. 2000. N. 886-IQ
- Azərbaycan Respublikasının Əmək Məcəlləsi. 1999. N: 618-IQ
- Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi. 2015. N: 96-VQ
- Azərbaycan Respublikasının Cinayət Məcəlləsi. 1999. N. 787-IQ
- Azərbaycan Respublikasının Mənzil Məcəlləsi. 2011. N. 253-IVQD
- Azərbaycan Respublikasının “Daşınmaz əmlakın dövlət reyestri haqqında” Qanunu. 2004. N. 713-IIQ
- Azərbaycan Respublikasının Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında Qanunu. 1996. N. 55-IQ
- Azərbaycan Respublikasının Gender (kişi və qadınların) bərabərliyinin təminatları haqqında Qanunu. 2006. N. 150-IIIQ
- Azərbaycan Respublikasının Ailə kəndli təsərrüfatı haqqında Qanunu. 2005. N. 926-IIQ
- Azərbaycan Respublikasının Sahibkarlıq fəaliyyəti haqqında Qanunu. 1992. N. 405
- Azərbaycan Respublikasının Kiçik sahibkarlığa dövlət köməyi haqqında Qanunu. 1999. N. 673-IQ
- Azərbaycan Respublikasının Məşğulluq haqqında Qanunu. 2018. № 1196-VQ.
- Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında Azərbaycan Respublikasının Qanunu. 1994. N. 817
- Azərbaycan Respublikasının Pasportlar haqqında Qanunu. 1994. N. 813.
- Azərbaycan Respublikasının Notariat haqqında Qanunu. № 762-IQ. 1999
- Azərbaycan Respublikasının Məhkəmələr və hakimlər haqqında Qanunu.1997. N. 310-IQ
- Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu. 2009. № 833-IIIQ
- Peşə təhsili haqqında Azərbaycan Respublikasının Qanunu. 2018. № 1071-VQ.
- Məktəbəqədər təhsil haqqında Azərbaycan Respublikasının Qanunu. 2017. N. 585-VQ
- Əmək pensiyaları haqqında Qanun. 2006. № 54-IIIQ
- Sosial müavinətlər haqqında Azərbaycan Respublikasının Qanunu. 2006. № 55-IIIQ.
- Sosial xidmət haqqında Azərbaycan Respublikasının Qanunu. 2011. № 275-IVQ.
- Tibbi sığorta haqqında Azərbaycan Respublikasının Qanunu. 1999. № 725-IQ.
- Məişət zorakılığının qarşısının alınması haqqında Azərbaycan Respublikasının Qanunu. 2010. № 1058-IIIQ.
- Əhalinin sağlamlığının qorunması haqqında Azərbaycan Respublikasının Qanunu. 1997. № 360-IQ.

- Sosial sığorta haqqında Azərbaycan Respublikasının Qanunu. 2008. N. 582-IIIQD
- İşsizlikdən sığorta haqqında Azərbaycan Respublikasının Qanunu. 2017. N. 765-VQ
- Ünvanlı dövlət sosial yardımı haqqında Azərbaycan Respublikasının Qanunu. 2005. N. 1039-IIQ
- "Qadın əməyinin tətbiqi qadağan olunan, əmək şəraiti zərərli və ağır olan istehsalatların, peşələrin (vəzifələrin), habelə yeraltı işlərin Siyahısının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 20 oktyabr 1999-cu il, 170 saylı Qərarı
- "Azərbaycan Respublikası Sahibkarlığa Kömək Milli Fondunun vəsaitinin istifadəsi Qaydalarının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 27 avqust 2002-ci il tarixli, 779 saylı Fərmanı
- "Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyində "ABAD" publik hüquqi şəxsin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 23 sentyabr 2016-cı il, 1047 saylı Fərmanı
- "Azərbaycan Respublikasının regionlarında uşaq bağçalarının tikintisi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 12 fevral 2018-ci il tarixli, 3667 saylı Sərəncamı
- "Evdə (səyyar) sosial xidmətin göstərilməsi Qaydasının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 31 yanvar 2013-cü il, 17 saylı Qərarı
- "Çətin həyat şəraitində olan şəxslərin (ailələrin) dövlət sosial xidmət müəssisələrinə yerləşdirilməsi Qaydasının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 15 noyabr 2013-cü il, 320 saylı Qərarı
- "Çətin həyat şəraitində olan şəxslərə (ailələrə) dövlət büdcəsinin vəsaiti hesabına göstərilən sosial xidmətin zəmanət verilmiş həcminın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 22 aprel 2014-cü il, 108 saylı Qərarı
- "Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi ilə bağlı bəzi məsələlər haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il, 5 saylı Qərarı
- "Mingəçevir şəhərinin, Yevlax və Ağdaş rayonlarının inzibati ərazilərində icbari tibbi sığortanın tətbiqinə dair pilot layihənin həyata keçirilməsi ilə bağlı tədbirlər haqqında"Azərbaycan Respublikası Prezidentinin 29 noyabr 2016-cı il tarixli, 1127 saylı Fərmanı
- "Azərbaycan Respublikasında icbari tibbi sığortanın tətbiqinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 20 dekabr 2018-ci il tarixli Fərmanı.
- "Azərbaycan Respublikası Sahibkarlığın İnkişafı Fondunun vəsaitindən istifadə Qaydasının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 31 iyul 2018-ci il tarixli Fərmanı
- "Azərbaycan Respublikasında sahibkarlığın inkişafına dövlət dəstəyi mexanizminin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 31 iyul 2018-ci il tarixli, 224 saylı Fərmanı
- "İşsizlik müavinətinin hesablanması və ödənilməsi Qaydalarının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 22 yanvar 2002-ci il tarixli, 12 saylı Qərarı
- "2019-2030-cu illər üçün Azərbaycan Respublikasının Məşğulluq Strategiyası", Azərbaycan Respublikası Prezidentinin 30 oktyabr 2018-ci il tarixli, 602 saylı Sərəncamı ilə təsdiq edilmişdir.

- “Əmək, məşğulluq, sosial müdafiə və sosial təminat sahələrində elektron xidmətlərin tətbiqinin genişləndirilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 5 sentyabr 2018-ci il tarixli, 258 saylı Fərmanı
- “Azərbaycan 2020: Gələcəyə baxış” İnkişaf Konsepsiyası, Azərbaycan Respublikası Prezidentinin 29 dekabr 2012-ci il tarixli, 800 saylı Fərmanı ilə təsdiq edilmişdir.
- “Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi”, Azərbaycan Respublikası Prezidentinin 6 dekabr 2016-cı il tarixli, 1138 saylı Fərmanı ilə təsdiq edilmişdir.
- “Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi”, Azərbaycan Respublikası Prezidentinin 6 dekabr 2016-cı il tarixli, 1138 saylı Fərmanı ilə təsdiq edilmişdir.
- “Fərdi məşğulluq proqramının yerinə yetirilməsi Qaydası və hesabatın forması”, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 29 dekabr 2017-ci il tarixli, 619 saylı Qərarı ilə təsdiq edilmişdir.
- “Sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən vətəndaşlar üçün kvota tətbiq edilməsi Qaydası”nın və “Kvota şamil edilməyən müəssisələrin Siyahısı”nın təsdiq edilməsi haqqında, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 22 noyabr 2005-ci il tarixli, 213 saylı Qərarı ilə təsdiq edilmişdir.
- “Məcburi dövlət sosial sığortası üzrə ödəmələrin və əmək qabiliyyətini müvəqqəti itirmiş işçilərə sığortaedənin vəsaiti hesabına ödənilən müavinətin hesablanması və ödənilməsi haqqında Əsasnamə”, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 15 sentyabr 1998-ci il tarixli, 189 saylı Qərarı ilə təsdiq edilmişdir.
- “Azərbaycan Respublikası vətəndaşlarının soyadlarının dövlət dilinə uyğunlaşdırılması haqqında” Azərbaycan Respublikası Milli Məclisinin 2 fevral 1993-cü il, 495 saylı Qərarı.
- “Adın, ata adının və soyadın verilməsi və dəyişdirilməsi Qaydaları”, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 12 may 2011-ci il tarixli, 79 saylı Qərarı ilə təsdiq edilmişdir.
- “Vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı Qaydası” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 31 oktyabr 2003-cü il tarixli, 145 saylı Qərarı ilə təsdiq edilmişdir.
- “Azərbaycan Respublikasında notariat hərəkətlərinin aparılması qaydaları haqqında Təlimat”, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 11 sentyabr 2000-ci il tarixli, 167 saylı Qərarı ilə təsdiq edilmişdir.
- “Güzəştli şərtlərlə yaşa görə əmək pensiyası hüququ verən istehsalatların, peşələrin, vəzifələrin və göstəricilərin Siyahısı”, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il, 12 saylı Qərarı ilə təsdiq edilmişdir.
- “Avtomobil nəqliyyatı ilə sərnişin və baqaj daşınması Qaydaları”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 17 sentyabr 2009-cu il tarixli 141 saylı Qərarı
- “Kommunal, nəqliyyat və digər xidmətlər üzrə güzəştlərin müavinətlərlə əvəz olunması ilə əlaqədar həmin müavinətlərin vətəndaşlara verilməsi Qaydaları”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 9 yanvar 2002-ci il tarixli, 2 nömrəli Qərarı.